**Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB)**
***www.dgtyb.org, www.bizimyazi.com***

# YENİ TATAR ŞEİRİ ANTOLOGİYASI

**(YAÑA TATAR ŞİĞERE ANTOLOGİYƏSE -**
ЯҢА ТАТАР ШИГЫРЕ АНТОЛОГИЯСЕ)

HƏDƏF NƏŞRLƏRİ

**BAKI – 2016**



Bu antologiya, tatar xalqının görkəmli oğlu,
tatar ədəbiyyatının tanınmış nümayəndəsi, şair, publisist,
tatar ədəbiyyatında tənqidi realizmin yaradıcısı, ***26 yaş***ında bu
dünyaya vida etmiş **Abdulla Tukay**ın **(Məhəmmədarif oğlu
Abdulla Tuqay, Габдулла Тукай, Ğabdulla Tuqay,**
**توقاي الدع بد**; *1886-1913*)
***130 illik yubiley***inə ad edilir

*Nəşrə məsul*
*(tərtib və ümumi redaktə):* **Əkbər QOŞALI,**
*DGTYB Məsləhət Şurasının başqanı*

*Redaktorlar:* ***dr.* Həyat ŞƏMİ,** *DGTYB Məsləhət Şurasının üzvü*
**Sərdar ŞİRVAN,** *DGTYB Məsləhət Şurasının üzvü*

*Məsləhətçilər:* ***prof.dr.* Nizami CƏFƏR**OV, *Millət vəkili*

**Rafis QURBAN**, *Tatarıstan Respublikasının Əməkdar İncəsənət Xadimi, Tatarıstan Yazıçılar Birliyinin başqanı*
***dr*. Yunus OĞUZ,** *"Olaylar" qəzetinin baş redaktoru*

**İsmət ORUCƏLİ**YEV**,** *vəkil (Tatarıstan)*

*Koordinator:* **Rəmis AYMET**, *Tatarıstan Yazıçılar Birliyinin başqan müavini*

*Rəyçilər:* **Rəşad MƏCİD,** *Azərbaycan Yazıçılar Birliyinin katibi*
***dos.dr.* Şəmil SADİQ, "***KitabEvimAz"ın qurucusu*
**Afaq ŞIXLI,** *Uluslararası Yazıçılar və Publisistlər Assosiasiyasının üzvü (Moskva)*
**İbrahim İLYASLI,** *Əli Kərim adın Poeziya Klubunun direktoru (Sumqayıt)*
**Elman TOVUZ,** *DGTYB Məsləhət Şurasının üzvü*

"YENİ TATAR ŞEİRİ ANTOLOGİYASI"
Tatarıstan Yazıçılar Birliyinin təqdim etdiyi materiallar, o cümlədən "Антология новой татарской поэзии" ("Oktyabr", Moskva-2015) kitabında yer alan mətnlər, habelə bir qismi gənc tatar şairlərinin şeir kitabları yaxud onlar tərəfindən biləvasitə göndərilən şeirlər əsasında hazırlanıb. Mətnlər, əsasən ruscadan, müəyyən bir qismi isə orjinaldan (tatarcadan) çevrilib

**ISBN: 9000000060077**
**© DGTYB / 2016**
**© Hədəf Nəşrləri / 2016**

## BAKIDAN KAZANA ƏDƏBİ VƏ ƏBƏDİ SALAM...

2016-cı ilin aprelində, tatar xalqının görkəmli oğlu, çağdaş tatar ədəbiyyatının ünlü nümayəndəsi, tatar ədəbiyyatında tənqidi realizmin yaradıcısı, 26 yaşında bu dünyaya vida etmiş şair-publisist Abdulla Tukayın 130 yaşı tamam olur. Bu əlamətdar yubiley qardaş Tatarıstanda böyük coşğu ilə qeyd ediləcək. Tatarıstan Respublikasında şairin xatirəsinə həsr olunmuş ədəbi yarışmalar düzənlənib, tədqiqatlar aparılıb, yeni kitablar nəşr olunub və s.

Azərbaycana doğma olan qardaş tatar xalqının görkəmli oğlunun 130 illik yubileyi bizdə də anılır, xatirəsi əziz tutulur. Bu anlamda, Abdulla Tukayın əlamətdar yubileyinə həsr edilmiş və 23 gənc tatar şairinin şeirləri toplanmış nəfis antologiyanın nəşri təqdirəlayiq hadisədir.

Mən, bu antologiyanı bir neçə baxımdan çox dəyərli hesab edirəm:

- *Azərbaycan ədəbi ictimaiyyətinin, özəlliklə də, gənc yazıçı-şairlərimizin tatar xalqının nakam oğlunun xatirəsinə ehtiramı və onun yubileyinə biganə qalmaması çox xoş təsir bağışlayan bir hadisədir. Gənc yazarlarımızın bu addımını ümumtürk birliyinin gücləndirilməsinə verdikləri töhfə hesab edirəm;*
- *Tatar ədəbiyyatında tənqidi realizmin yaradıcısı olan, ömrünün və yaradıcılığının çiçəklənən çağında – 26 yaşında həyata gözlərini yuman Abdulla Tukay, yeni nəsil yazarları tərəfindən məhz yeni kitabın buraxılması ilə yad edildi ki, bu da həm həm rəmzi mənada, həm də praktiki baxımdan olduqca əhəmiyyətlidir;*
- *Antologiya üz qabığının tərtibatından tutmuş, bütövlükdə məzmunu etibarı ilə Abdulla Tukay irsinin, onun qısa, lakin işıqlı ömrünün sanki müasir gənc şairlərin ömrünə paylandığını və Abdulla Tukay ömrünün bu günümüzün gənc yazarları simasında yaşadığını, davam etdiyini şəkilləndirir;*

*- Daha bir vacib məqam ondan ibarətdir ki, bu antologiya Tatarıstandan kənarda, gənc tatar yazarlarına aid, bu həcm və içərikdə olan ilk antologiyadır;*

*- Antologiyanın tərtibi, şeirlərin ruscadan və tatarcadan Azərbaycan dilinə çevrilməsi, uyğunlaşdırılması yalnız bir şəxsin deyil, 20-yə yaxın şair-publisistin, tərcüməçilərin, araşdırmaçıların iştirakı ilə baş tutub. Habelə, kitabın məsləhətçisi, rəyçisi, redaktoru olaraq, Azərbaycandan və Tatarıstandan tanınmış alimlər və yazarlar öz münasibətlərini bildiriblər. Bu da, görülən işin miqyasını böyüdüb, mahiyyətini dərinləşdirib, deyə düşünürəm. Üstəlik, işin bu şəkildə təşkili gənc tatar şairlərinin şəxsində ümumilikdə tatar ədəbiyyatını və tatar dilini yeni nəsil Azərbaycan yazarlarının yaradıcılıq gündəliyinə, "ədəbi menyu"suna gətirmiş olub;*

*- Antologiya üçün seçilmiş şairlərin çağdaş tatar ədəbiyyatının işıqlı, ümidli və yüksək ruhlu kəsimini əhatə etməsi də özəlliklə vurğulanmalıdır;*

*- Seçilmiş şeirlərin məzmunu tatar türklərinin yalnız gənclik dünyasına və duyğularına deyil, bütövlükdə tatar xalqının bugünkü yaşantılarına, tarixə və gələcəyə baxışına güzgü tutur;*

*- Nəhayət, oxuduğunuz ən yeni tatar şeiri antologiyası, Dünya Gənc Türk Yazarlar Birliyi (Bakı) ilə Tatarıstan Yazıçılar Birliyinin (Kazan) ədəbi-mədəni əməkdaşlığı sayəsində ərsəyə gəlib ki, bu da, ədəbi qurumlarımız arasında sağlam və güvənli yaradıcılıq əməkdaşlığı mühitinin varlığını göstərir.*

***

Beləliklə, Azərbaycan və Tatarıstan kitabxanaları, ədəbiyyat xəzinəmiz yeni bir kitab qazanır, yazarlarımız yeni əməkdaşlıq üfüqlərinə boylanır, yeni ideyalar, təşəbbüslər meydana gəlir... Bu çox vacib məqamdır. Kazan (Tatarıstan) Avrasiyanın, Bakı (Azərbaycan) isə Yer kürəsinin mərkəzində yerləşir... Bunun yalnız coğrafi anlam daşımaması üçün, məhz qələm sahibləri, şair və yazıçılar, mədəniyyət və incəsənət

xadimləri, alimlər və b. öz ürəkləri ilə birlikdə həm də yaradıcılıq ruhlarını birləşdirməli, mədəni-intellektual enerji mübadiləsində bulunmalı və mütəmadi olaraq kitablı, əsərli töhfələri ilə çıxış etməlidirlər. Bax, bu anlamda, "Yeni tatar şeiri antologiyası" bir neçə aylıq işin yekunu olsa da, mən onu böyük buluşmanın başlanğıcı hesab edirəm və çox yüksək dəyərləndirirəm.

Arzu edirəm ki, Azərbaycan – Tatarıstan ədəbi-mədəni əməkdaşlığı daha da genişlənsin, yeni ədəbi nəsillər özlərinin yeni yaradıcılıq ruhu ilə bu işbirliyində yer alsın, bu birliyimizi qüvvətləndirən, bizləri bir-birimizə doğmalaşdıran yeni-yeni əsərlər yaransın..!

*Azərbaycan və Tatarıstan yaradıcı ziyalılarına*
*dərin ehtiram və məhəbbətlə,*

*dr.* **Cavanşir FEYZİYEV,**
***Millət vəkili***

***BAKI, 02.04.2016***

## BİR NEÇƏ SÖZ...

Əziz oxucu, qardaş tatar xalqının əbədi gənc klassiki Abdulla Tukayın 130 illik yubileyi münasibəti ilə araya-ərsəyə gətirdiyimiz YENİ TATAR ŞEİRİ ANTOLOGIYASI ilə görüşünüzə gəlmənin qürur və məmnuniyyətini sizlərlə paylaşmaq xoşdur!

...Tatarıstan Yazıçılar Birliyinin (eləcə də, mədəniyyət, təhsil və gənclər işinə məsul nazirliklərin) davamlı və məqsədyönlü gənclər siyasətinin, habelə, "İDEL" Gənclər Mərkəzinin ilaşırı düzənlədiyi şeir yarışmasının şeirə könül verən tatar gənclərinin ədəbi üfüqünün genişlənməsinə, istedlarının üzə çıxmasına, yeni mühit(lər) qazanmasına yararlı olduğunu qeyd edərkən, tatar ədəbiyyatının klassiklərinin zamanın o üzündən XXI yüzilin gəncliyini harayladığına, ruh gücü verdiyinə inandığımı da vurğulamaq istərdim.

...Çağdaş tatar ədəbi gəncliyinin yaradıcılıq örnəkləri ilə tanışılığın Avrasiyanın ortasında, Avrasiya gözəli Kazanda (bütövlükdə qardaş Tatarıstanda, bəlkə bir xeyli dərəcədə Sibirdə...) bugünkü şeirin ahəngi, sözün ritmi, çağdaş şairin dünyası... haqqında Azərbaycan oxucusunda təsəvvürlərin formalaşmasında, dolğunlaşmasında rol oynayacağına ümid edirəm. Giriş yazısında da vurğulandığı kimi, antologiya yeni ideyaların, layihələrin başlanğıcı olacaq, deyə ümid edirik.

Ümid edirik ki, hər yeni yanaşma, yeni iş insanların estetik dəyərlərinin formalaşmasına (zənginləşməsinə) təsirsiz ötüşməyəcəkdir.

Bu nəşr, forması, ümumi məzmunu ilə ortaq dəyərlərin gələcəyə daşınmasına xidmət edən qalıcı bir işdir.

Fürsətdən yararlanıb, antologiyanın nəşrinə dəstək verən hörmətli millət vəkilimiz dr. Cavanşir Feyziyevə, mətnlərin rusca və tatarcadan azərbaycancaya çevrilməsini, uyğunlaşdırılmasını həyata keçirən yazar dostlarıma, kitabda əməyi keçən hər kəsə təşəkkürümü yetirirəm.

Əlbəttə, bir təşəkkür borcum da, bizi uyğun kitablarla, mətnlərlə təmin edən, Tatarıstan Yazıçılar Birliyi başqanlığına, şəxsən başqan Rafis Qurbanadır.

Beləliklə, sizləri qardaş tatar gəncliyinin yaradıcılıq örnəkləri – Şeir dünyası ilə baş-başa qoyuruq…

*Ürəkli və yaxşı oxular diləyi ilə,*

**Ə.QOŞALI**
*03.04.2016,*
*BAKI*

## TATAR ŞEİRİNİN (ƏDƏBİYYATININ) ÖZƏLLİKLƏRİ VƏ TENDENSİYALARI

### (“Türkcənin XI Şeir Şölənində gerçəkləşən “Şeir üzrə müzakirə bölümü”nün Sonuc Bildirgəsi)

(şairlər Çulpan ZARİF ÇETİN, Robert MİNNULLİN, Rədif QATAŞ tərəfindən hazırlanıb)

Tatar ədəbiyyatı çox erkən yüzilliklərə gedib çıxan bir inkişaf yoluna sahibdir. Tatar türkləri də bütün başqa türk boyları kimi özlərinə aid olan söz sənətinin başlanğıcında Runik yazısı ilə əsərlər yaratmışlar. – Tatar yazılı ədəbiyyatının ilk dövrü olaraq, yaratdığı mədəniyyəti ilə dünya miqyasında şöhrət qazanan İdil boyu Bulqar dövlətinin hökm sürdüyü dövr qəbul edilir. Bu dönəm tatar ədəbiyyatının, tatar şeirinin ən ünlü təmsilçisi, şübhəsiz, Kul Alidir. XIII yüzilliyin ikinci yarısından - XV yüzilliyin ortalarına qədərki tarix – Qızıl Orda dövrü Tatar Ədəbiyyatı olaraq səciyyələndirilir. Bu dönəm tatar ədəbiyyatı Gündoğar və bütün başqa  türk boyları ədəbiyyatı ilə birgə inkişaf etdi. Kazan xanlığı dövründə əsərlər yazan bir çox şairin adı isə günümüzə qədər gəlib çatmışdır. Bu gün bu dövr tatar şeirini biz daha çox Kazan xanlığını idarə edən Xan Məhəmməd Əmin, Xan türbəsinin gözətçisi və elçisi Məhəmmədyar, Seyid şair və həm imam, həm də şair olan Kul Şərif ilə xatırlayırıq.

Kazan xanlığı yıxıldıqdan sonra toplum həyatında müşahidə edilən durğunluq çox uzun sürür və özünü yenidən dirçəltməyə başlayan tatar şeirində XVIII yüzilliyin ikinci yarısından etibarən toplumun inkişafını müəyyən edən dünyəvi təhsil modeli və zehni üstün tutan tendensiya yer alır.

XVIII-XIX yüzilliyin ən ünlü şairləri A.Karqalıy, Ş.Zəki, A.Kandalıy, Ağmolla və başqaları olub; bunlar Orenburq, Ster-

libaş, Trostik kimi şəhərlərdə və Orta Asiyada yaşayıb əsərlər yazmışlar. Onlar günümüzdə bir çox türk boyunun ortaq şairi sayılırlar. Örnəyi, Ağmolla həm tatar, həm başqurt, həm də qazax boyları tərəfindən milli şair olaraq qəbul edilmişdir. Eyni durum XX yüzilliyin əvvəlləri tatar şeiri üçün də keçərlidir. Ş.Babiç və Məcid Qafuri kimi şairlər həm tatar, həm də başqurt ədəbiyyatının qürur qaynağıdır. Onu da deyək ki, XX yüzilliyin başlanğıcında tatar ədəbiyyatı artıq yalnız Gündoğara deyil, Günbatara da yönəlməyə başladı. Ayrıca, bu dövr tatar ədəbiyyatı və şeiri, doğrudan doğruya, "Cəditçilik" hərəkatına bağlı fikri-estetik gələnəkləri inkişaf etdirib, Avropanın çatdığı mədəniyyəti də örnək götürərək davam etmişdir. Tatar ədəbiyyatını yeni təməllər üzərində inkişaf etdirmək üçün mətbuatın, kitabın rolu çox böyükdür. Bu dövrdə tatar türkləri hardasa, bütün Türk Dünyasını aydınlatmış, mədrəsələr açmış, dərgi və qəzetlər nəşr etdirmiş və ədəbiyyatda bir çox türk boylarına yön vermək rolunu üzərinə götürmüşdür.

XX yüzilliyin başında tatar şeiri zirvəyə qalxır və tarixinin ən parlaq dövrünü – altın çağını yaşayır. Əruz ilə yazmağa başlayan tatar şairləri yaradıcılıqlarında xalq şeiri örnəklərini də verirlər. Bu dövr tatar ədəbiyyatında həm romantizm, həm realizm, həm də xalqçılıq axtarışlarının ən gözəl örnəklərini görə bilirik. **Təbii ki, bu dövrün ən ünlü və parlaq ismi, qısa həyatında xalqına fədakarcasına xidmət etmiş şair Abdulla Tukay oldu.** Lakin bu dövrdə xatırlanması gərəkən çox özəl yaradıcılığa sahib olan Dərdmənd, Sakit Rəmiyev, Ş.Babiç, M.Qafuri kimi bir çox şairlər də vardır. (Bu dönəmdə yaşayan tatar şairləri Gündoğar və Türk Dünyası ədəbiyyatını orijinal qaynaqlardan oxumuş və özləri də dəyişik türk ləhcələrində, örnəyi, Osmanlı türkcəsi ilə şeirlər yazmağı bacarmışlar.)

1917-ci il inqilabından sonra Sovet ideologiyasına bağlı inkişaf edən tatar ədəbiyyatı bəzi çatışmazlıqlara bəxmayaraq, XXI yüzilliyə zəngin bir miras buraxdı. Lakin bu müddətdə tatar şairlərinin Gündoğar və Türk Dünyası ilə bağlılıqdan xey-

li qopuq qalması sonucunda, onlar, qardaş türk boyları ədəbiyyatı və təmsilçiləri ilə ilişkilərdən də qopuq qalmış oldu. Buna baxmayaraq, türk boyları öz şairlərini tatarların ünlü şairi Abdulla Tukay və Taktaşları örnək gətirərək yetişdirməyə davam etdilər. XX yüzilliyin 20-30-cu illərində Stalin zamanında F.Kərim, H.Tufan kimi bəzi tatar ədibləri kommunizm ideologiyasına meyl etdi.

II Dünya savaşında yaşanan itkilər də tatar ədəbiyyatına və şeirinə böyük təsir etdi. Lakin bunu da demək lazımdır ki, bu savaş zamanında qəhrəman şairlər də ortaya çıxdı. 1941-1945-ci illərdə ən ağır şəraitdə ulduzu parlayan Musa Cəlil buna bariz örnəkdir. Yüzillərdir Gündoğar və Günbatar ədəbiyyatının ən gözəl örnəklərini götürərək inkiaf edən tatar şeiri, keçən yüzilliyin 60-cı illərində S.Hakim, İ.Yuziyev, A.Bayan, Ş.Qaliyev, S.Süleymanova, R.Ahmedcanov, R.Minnullin, E.Şerifullina, R.Feyzullin, R.Qataş, G.Rəhim, R.Xaris kimi fəlsəfi və lirik şeir ustalarının əsərləri ilə yenidən zirvəyə qalxdı. II Dünya savaşı sonrası yetimliyin hüznü ilə atasız böyüyən və şeirlərində əslində heç üzünü görmədikləri atalarına həsrət qaldıqlarından barış və əmin-amanlıq içində yaşama diləyi bildirən bu nəsildən sonra, 1970-ci, 1980-ci illərdə F.Yarullin, Zülfət, M.Aglemov, L.Şakircan, İ.Möeminova, K.Bulatova, A.Xalim, G.Rahim, Nizami, daha sonra R.Zaydulla, H.Eyyub, Ş.Cahangirova, N.Qəmbər, F.Tarxanova, L.Zülqərneyn, Z.Mansurov, G.Murad, R.Rəhman nəsli gəldi. Bu dönəm şeirində əslində hər zaman keçərli olan ortaq mövzular işlənildi: kənd təbiəti, insan könlünün gözəlliyi, əxlaq dəyərləri, yaşam və ölüm haqqında düşüncə, nigarançılıq, eşq və dostluq... Bu dövrdə millətinə sadiq qalıb, könlü ilə günəşi arayaraq yola çıxan R.Ahmedcanov insanların ən incə duyğularını xalq ədəbiyyatı örnəkləri əsasında ortaya çıxaran İ.Yuziyev, Zülfət, M.Ağlam kimi şairləri ilə tatar xalqı hər zaman qürur duydu. – Fəlsəfi şeirləri ilə tanınan R.Feyzullin, sevgi mövzusunda Gündoğar klassik şairlərini ustad olaraq qəbul edən, qəzəl və

rübailərində eşqi vəsf edən, Məcnun misali eşq üçün yaradılan şair R.Qataş da o cümlədən...

Ayrıca, tatar şeirində uşaqlar üçün yazan şairlər də çoxdur və toplumun gələcəyini düşünərək ortaya çıxan şeirin bu qanadı heç bir zaman önəmini itirməmişdir. Tukay, Cəlil, Alış kimi uşaqlar üçün əsərlər yazan şairlərin ardından 1960-cı illərdə Ş.Qaliyev, B.Rahmet, R.Minnulllin, A.Feyzi, daha sonrakı dönəmdə G.Giylman, R.Korban kimi şairlər bu xüsusda əsərlər ortaya qoydu. Onlardan R.Minnullin Andersen ödülünə layiq görüldü. H.Tufan, M.Nuğman, İ.Yuziyev, G.Zeynaşeva, S.Süleymanova, R.Minnullin, R.Feyzullin, R.Vəliyev, F.Safin, Ş.Cahangirova, M.Qaliyev kimi şairlərin isə bir çox şeiri sadəcə şeir olaraq yaşamaqla qalmadı, bəstəçilər tərəfindən səhnələrə daşınaraq tatar xalqının könlündə ikinci dəfə yaşam qazandı.

Fəqət, sovet dönəmində tatar şeirində siyasi səbəblərdən mövzular daraldı, şeir xalqa yaxın və anlaşılan olsun deyə bəsitləşdirildi. Millilik gizlənildi, şairlər duyğularını, bir qayda olaraq, "Ezop dili" ilə yazmağa başladı. Klassik şeir ölçüləri yerinə şairlər sərbəst nəzmi üstün tutdu. Gündoğar və Türk Dünyası ədəbiyyatı və mədəniyyəti ilə olan bağlantılar zəiflədi... Bu səbəbdən də, Gündoğar və türk xalqlarının yaratdığı əsərlər yüzilləri adlayan gələnəyə görə orijinaldan oxunmaq əvəzinə, artıq rusca çevrilərdə izlənməyə (oxunmağa) başlanıldı. Nazim Hikmət kimi ünlü türk şairinin şeirlərini, dahi tatar şairləri ruscaya çevrilmiş örnəklərlə tanıdı. Sovet dönəmində də A.İshaki, N.Arslan kimi bir çox tatar şairi Gündoğar ədəbiyyatı klassiklərini orijinaldan tatarcaya çevirməyi bacardı.

Sovet dövründə tatar şairləri şeirə, rus şeiri vasitəsilə Avropa şeirini və onun özəlliklərini daşıdılar. Partiya ideologiyasına bağlılıq səbəbiylə sovet dönəmi tatar ədəbiyyatı mövzu baxımından tamamən rus ədəbiyyatına bənzədi, həm nəzm, həm də nəsr artıq rus ədəbiyyatı təsiri altına düşdü. İdeoloji

təzyiq hökm sürdü. Beləcə, tatar şeiri Gündoğar və Türk Dünyasından qopdu və təəssüf ki, ozanlıq, aşıqlıq kimi ən əski dönəmlərdən gələn gələnəklərini itirdi...

Daha sonra, 1990-cı illərdə yaşlı, ustad şairlər öz duyğu və düşüncələri ilə diqqət çəkməyə davam edərkən, artıq gənc nəsil şairləri də onlarla yanaşı, şeirdə öz yerlərini tapmağa çalışdı və bugün onların yazdığı şeirlərə baxdıq da, "bunu bacardılar!" deyə bilərik: İ.İksanova, M.Mirzə, R.Sulti, Süleyman, M.Zakir, R.Aymet, C.Ahtyamova, Tançulpan, Ç.Zarif, R.Camal və başqalarının timsalında yeni nəsil şairlərimiz, 1990-cı illərdən bugünə, çağdaş insanın ruhsal dünyasını təsvir edərək qlobal nigarançılıq və ümidlərə bağlandılar... Ölkə, xalq və ana dilinin taleyi, dinə dönüş, yaşam və ölümlə bağlı fəlsəfi düşüncələri, ölkədə olub-bitən qarışıqlıqlarla ilgili nigarançılıqları, bəzən ümidsizlik... amma yenə də, gələcəklə bağlı ümidləri duyğulara daşımağa çalışdılar. Yeni dövr tatar şeirində təsvir və fikir birliyi, şeirdə hiss və ağlın bütünlüyü, xalq ədəbiyyatı və Gündoğar kalssik şeir gələnəklərinin canlanması əsas mövzu oldu. Özəlliklə, bir çox tatar şeirində Tatarıstanın müstəqilliyi ümidini də görə bilərik (A.Halim, Zülfət, M.Ağlam, R.Aymet və başqaları). Şeir bu dönəmdə milli ruhu, dili və bərabərliyi qorumaqda çox önəmli bir rola sahibdir və siyasətlə yaxından bağlılıq yoluna girdi, deyə bilərik. Deyə bilərik ki, tatarların bir millət olaraq qalmasına şeir (ədəbiyyat) düşüncə öncüllüyü etdi... Bu hal, tatar şeirində şairin taleyi ilə millətin taleyinin birgə inkişaf etdiyini bir daha sübut etmiş oldu. Artıq bu dövrdə Türkiyə, Gündoğar və Türk Dünyası ilə ilişkilər yenidən canlanmağa və qüvvətlənməyə başladı, bir çox tatar şairi bu illərdə ən ünlü Gündoğar və Türk Dünyası ədəbiyyatı klassiklərinin, çağdaş şairlərin əsərlərini tatarcaya çevirdilər.

Uluslararası Şeir Şölənləri 1990-cı illərdən günümüzə qədər türk boylarının ən üzdə olan şairlərini bir araya gətirib, öz xalqının ədəbiyyatını tanıtmalarında və başqa xalqların ədəbiyyatını tanımaqda önəmli rol oynamağa başladı. Türkiyə

Cümhuriyyətinin bir çox məsələlərdə öncüllük etməsi və bütün Türk Dünyasına qucaq açması özəlliklə təqdirəlayiqdir.

2000-ci illərdə tatar ədəbiyyatı və şeirini yeni maraqlı mövzu və təsvirlərlə zənginləşdirən qabiliyyətli qələm ustaları yetişdi: **Luiza Yansuar, Lenar Şəex, Rifat Salah, Rüzəl Mühəmmədşin, Liliya Qıybadullina, Yıldız Minnullina, Elvira Hadı**yeva**, Fanil Gilaji** və başqaları...

...Tatar şeirinin ən öndə gələn başqa bir özəlliyi də var: tatar yaşam tərzi həmişə kənd və kənd həyatı ilə bağlı olub. Son 20 il içində kəndlərin kiçilməsi, hətta bir çoxunun yox olması və kənddən şəhərə köç, şairləri olumsuz bir şəkildə təsirləndirdi. Xalq getdikcə ana dilini, əslini itirməyə başladı. Şeirə şəhər mədəniyyəti və dili sızdı... amma digər tərəfdən bu durum tatar şeirini şəhər ahəngi, şəhər bəzəkləri ilə zənginləşdirdi.

2000-ci illərdə yeni toplumun durumu, yeni həyatın anlamı və dəyərləri ilə ilgili dərin fəlsəfi düşüncələr tatar şeirinə yeni bir rəng qazandırdı. M.Mirzanın şeir dünyasında güclü yanğı yaradan və tatar türkcəsi, Türkiyə türkcəsi, rusca və ingiliscə çıxan "Adəmoğlu" adlı güldəstəsi buna ən gözəl örnəkdir. Digər tərəfdən XX yüzil tatar şairləri, şeiri eyni zamanda milli və ilahi ahənglərlə də zənginləşdirdi...

Tatar şeiri günümüzdə, sadəcə şeir olaraq deyil, səhnələrə daşınaraq opera və balet olaraq da yaşamağı sürdürməkdədir. Belə ki, R.Xaris, R.Mühəmmədşin kimi fərqli ədəbi nəsillərə məxsus şairlər opera və balet üçün librettolar yazıb. Bu da tatar şeirinə yeni bir dəyər qazandırmışdır.

Qloballaşan dünya tatar şairlərinə də böyük təsir edib. Çünki şair qloballaşa bilmir... Şair bütöv yaşayar, öz dünyasını qoruyar və bu dünyada sənətini ortaya qoyar...

Tatarların coğrafi-strateji mövqeyi, rus və Avropa həyat tərzindən, ədəbiyyatından, başqa türk boylarına nəzərən daha tez təsirlənməsi, özündən uzaq düşməsi, xalqçılığı, özəlliklə

şeir ölçülərini (və ahəngini) itirməsinə yol açan faktorların ən öndə gələnlərindəndir...

XX yüzilin sonu XXI yüzilin başlanğıcı tatar şeirinin ən önəmli özəlliyi, toplumun gözləntilərini qarşılayacaq milli ruha sahib, bütün çətinliklərə sinə gərən çağdaş bir qəhrəman arayışıdır. Bu qəhrəmanın xalqın içindən olması çox önəmlidir. Lakin olumlu bir qəhrəman tapmaq həmişə asan olmur. Bəlkə də bir çox şair bu üzdən şeirlərində ünlü şəxslərə səslənməkdə, onları şeirin mərkəzinə qoymaqdadır...

Günümüzün tatar şeirində hüznlü və yaşam dolu iki yol alan, romantizmə söykənən, insanın iç duyğularına yönələn lirik əsərlər də yazılmaqdadır. Hüznlü romantizm, həyatın acımasız və ədalətsiz olmasına yanan, dünyanın və insanların dəyişiminə inanmayan romantik qəhrəmanı, həyat dolu romantizm isə həyatdan zövq almağı mədh edən, sevgiyə, gələcəyə ümidlə baxan nəşəli qəhrəmanı qoyar ortaya...

Günümüzün gənc şairlərinin şeirlərində bir başqa yenilik, sadəcə onlara özgü bir fikir yürütmə çabası vardır... Təbiətə, həyata olan sevgi, kəndin gözəlliyi və sadəcə şəhərə məxsus bir özəllik... Bu şairlərin xəyalları ilə hər zaman yüksəkdə, adətən göydədir və əslində sevgi və xalqın taleyi, keçmişi və bugünü ilə bağlı şeirlər yazmaqdadırlar... Şeirlərində ayrıca könül sızıltısı, səmimiyyət və dürüstlük vardır. Ana mövzular əsasən eşqdir. Şair Lenar Şəexin də dediyi kimi: “Əslində, şeirlərin adı yoxdur... Sanki şair duyğularını bəlli bir qəlibə qoymaq istəmir, onların sərbəst, müstəqil qalmasını istəyir...”

Çağdaş tatar şeirinin bir özəlliyi də var: Şairlər təbiətə çox yaxındır, təbiət ilə özlərini bir bütün olaraq görürlər. Onların şeirləri göy, bulud, ulduz, Günəş, Ay, külək, yağış, gecə... kimi sözlərdən toxunmuşdur. Bütün bu sözlər çox rəngli, çox hərəkətli, dəyişik şəkil və hallarda verilməkdədir. Bunun səbəbi, bir tərəfdən şairlərin kənd həyatı ilə yaxından bağlı olması, digər tərəfdən isə qloballaşan dünyada şairin bir fərd olaraq qalma mücadiləsi ilə insanlardan, toplumdan uzaqlaşaraq öz iç

dünyalarına qapanmaları, yalnızlığa üstünlük vermələridir, deyə bilərik.

Çağdaş şeirin mövzularından biri də, tatarların şanlı tarixidir. Şairlər sadəcə bugünün problemləri ilə yaşamır, onlar gələcəyə keçmişi anaraq, onunla qürur duyaraq baxır. Buna görə də, şeirlərdə tez-tez “Əski Bulqar”, “Saçları ağarmış İdil”, “Akidil”, “Yar Çallı”, “İjav” kimi, tatarların keçmişdə və bu gün də yaşadıqları yer adları keçməkdədir. Ayrıca, tatar mifologiyası (Sak Suk, Şürəli və başqaları), tatar xalq ədəbiyyatına göndərmələr, İslam dini ilə bağlı motivlər, xristiyan dinində olan Kereşin tatarlarının şeirlərində xristiyan dini motivləri, əsasən də romantik şeir biçimləndirən ispan motivləri ilə də qarşılaşmaqdayıq. Bir başqa tərəfdən də, bəzi şairlərin təhsil almaq üçün getdikləri ya da artıq yaşadıqları fərqli coğrafiyalar da tatar şeirinə ayrı bir rəng qatır. Beləliklə, şeirdə ərəb və türk motivləri yer aldı (Ç.Zarif, R.Salah, E.Hadıyeva və başqalarının yaradıcılığını göstərə bilərik). Bu yolla tatar şeiri yeni təsvirlər və bənzətmələrlə zənginləşdirildi. Lakin bütün bu gözəlliklərin şeirə mənfi təsirindən də danışmaq lazımdır. Şeir daha çox didaktik, bilgi vermə özəlliyində qaldı, estetik axtarışlar zəiflədi... Yeni nəsil şairlərdə bir başqa olumsuzluq da şeirlərində dünya və türk mədəniyyəti ilə bağlı bilgi çatışmazlığının hiss edilməsidir. Hazırda tatar şairlərinin ana dillərini, dünya ədəbiyyatını yaxşı bilmələri və sahib olduqları bilgiləri inkişaf etmiş bir şeir dili ilə təsvir etmələri gərəkməkdədir.

Lakin bütün bu çatışmazlıqlara baxmayaraq, sevindirici və ümidverici bir şey var: tatar şeirinə gələn yeni nəsil şairlər, özünəyadlaşdırma siyasətinə baxmayaraq, ana dilinə sadiq qalmaqda, onu bütün incəlikləri ilə yaşatmağa çalışmaqdadır. Ən önəmlisi isə, tatar şeiri yüzillərcə davam edən gələnəyə sadiq qalaraq, günümüzdə də qafiyədən istifadə edərək şeirlər yazmağa davam etməkdədir...



# RİFAT SALAH

**(Рифат Гали улы Сәлах) –**



*8 iyul 1987-ci ildə Tatarıstanın Bua elinin Yeni Çəçkap kəndində doğulub.*
*Orta məktəbi bitirdikdən sonra, 2004-2009-cu illərdə Kazan Dövlət Universitetinin Hüquq fakültəsində oxuyub.*
*Hələ orta məktəbdə oxuyarkən ədəbiyyata böyük ilgi göstərib, tatar dili və ədəbiyyatı üzrə keçirilən müxtəlif olimpiadalarda qalib olub. Tələbəlik illərində KDU-nun "Əllüki" ədəbi-bədii dərnəyinin fəal üzvü (2007-2009-cu illərdə isə başçısı) olub.*
*2005-ci ildən başlayaraq Tatarıstanın qəzet və dərgilərində şeirləri yayınlanmağa başlayıb. Elə həmin ildə, "Könül zərrəcikləri" adlı şeir və poemalar kitabı işıq üzü görüb.*
*2008-ci ildə Tatarıstan Yazıçılar Birliyinin üzvü olub, bir il sonra şairin "Yaşıl Ay" adlı ikinci şeirlər kitabı, 2012-ci ildə isə "Daş üzündə çiçəklər"i gün üzü görüb.*
*Ərəbcəni, Türkiyə türkcəsini öyrənən gənc şair*
*bu dillərdən çevirmələr də edir.*
*2013-cü ildə Qırğız Respublikasında keçirilən Türkcənin X Şeir Şölənində, Türkiyə Yazarlar Birliyi tərəfindən Namiq Kamal adına ödülə layiq görülüb.*
*2009-2010-cu illərdə iki dildə nəşr olunan "İdel" dərgisinin tatar bölməsinin, 2011-2012-ci illərdə isə "Şəhri Kazan" qəzetinin redaktoru olub.*
*Hazırda müstəqil hüquqşünas olaraq çalışmaqdadır.*
*2014-cü ildə Bakıda keçirilən "Türk ölkə və topluluqlarının gənc yazarlarını birləşdirən qurumlar arasında məsləhət mühitinin yaradılması" adlı layihə çərçivəsində düzənlənən "Türk Dünyası Gənc Şairlərinin Şeir Şöləni"nin qalibi olub.*

## AYİN

Gümüşü Ay nuru ələnir göydən,
Ulduzlar sayrışır öz yatağında;
Ürəklər də tövbə üçün tələsir,
Günahların ən saf, təmiz çağında...

Pəncərəmin o tayında Dolunay
öz nuruyla ruhumuzu sarmada...
Bütün dünya lal dayanıb, sussa da,
dan sökülüb, üfüqləri yarmada...

İnanclıyam, qorxum yoxdu heç nədən,
Dualarım Günəş kimi istidir...
Doymaq olmur bu ilahi gecədən,
Üzərimə Ayın nuru ələnir...

## ÖMRÜM BOYU...

Ömrüm boyu həsrətini çəkəcəm –
Harda olsan, kimin olsan – fərqi yox...
Harda olsam, kimlə olsam – fərqi yox,
Bu yollarda kimə qalsam – fərqi yox...

Ömrüm boyu həsrətini çəkəcəm,
Unutmaynan, sən də məni sal yada...
Bunca illər biz bərabər yürüdük,
Amma nədən alışmadıq bir oda?!.

Ömrüm boyu həsrətini çəkəcəm,
Unutmaram, pozulmazdı bu ilqar..!
Nələr gizlər bu zavallı ürəyim...
Hələ sənə deyilməmiş sözüm var...

## KƏPƏNƏK

Belədir bu dünya, bəzən bir günü,
Bəzən bir saatı yaşayar ürək.
Sən də anlayarsan bu yer ömrünü,
Sən də anlayarsan, gözəl kəpənək...

Günahlar tövbəylə yuyulub gedər,
Darılar duası bir hədər olan…
Günəşi səsləyər sabaha qədər
Ömrü bircə günə bərabər olan..!

Uç gəl, ovcuma qon, pıçılda görək,
Söylə, "hər günümüz bir andır elə..!"
Bəs mənim həyatım nə vaxt bitəcək? –
Bilmirəm, kəpənək, bilmirəm hələ...

Hər kəs bu münvalla keçər dünyanı –
Müdrikdir, aqildir, ya divanədir...
Lakin əbədiyyət önündə hamı
Bir pərvanədir..!
Bir pərvanədir...

## BAHARI SEVMİRƏM...

Baharı sevmirəm,
niyə sevim ki?
Səni alıb gedən bahar deyilmi?
Deyə bilmədiyim o isti sözlər
Qəlbimi sızladan qubar deyilmi?

Payızı sevirəm, vəfalım mənim,
Onu sevgimizə oxşadıram mən.
Səni həyatıma gətirib deyə,
Adını qəlbimdə yaşadıram mən.

Baharı sevmirəm..!
amma ömürlük
xəzana dönməsin ocağım, evim...
Gəl, gülüm, özünlə bir ümid gətir,
gəl ki, mən yenidən baharı sevim..!

## BU YAD ÇİÇƏKLƏR

Ayna arxasında bu yad çiçəklər,
Kiminçün açılıb, kimlərə sirdaş?..
Nədir damcılayıb süzülən belə,
Yağışamı dönüb gözlərimdə yaş.?!

Titrəyən damlalar yuyub üzümü,
Köksümə çilənir, çəkir qınağa...
Bilmirəm, bu anda nədir günahım? –
Mən Həccə gəlmişdim günah yumağa...

Ah, bu yad çiçəklər gül açıb indi,
Nədir bu gözəllik, kim bilir axı?
Qəlbimi dolduran sellərdi bəlkə,
Beləcə çağlayıb torpağa axıb?..

Bu gün nə soruşub, nə axtarıram,
Daşlar üzərində bitən çiçəkdən?..
Əfsus, nə bu güllər tanış deyillər,
Nə də ürəyimi tanımıram mən..!

(***Çevirən:*** **Afaq ŞIXLI***)*

## DAŞ ÜSTƏ BİTƏN ÇALILAR

Könül rəsmimə hər vaxt
bu tərəflər çöküb qalır... –
Daş-qayadan mənə baxır,
daş-qayaya bitən çalı...

Durdurmaz heç nə könlümü
Gördüm qanadlanan quşu...
Daşlara can olan çalı
hardan almış bunca gücü..?

Möcizədir..! –
            Yaradanın möcüzəsi
bir ibrətdir – anlasana...
Baş əymə..! – söylədim ona, –
"yol azıb", daşda qalsan da...

"Aşın olsa,
            başın olsa"...
göyünə gerçək Ay çıxar...
Yurdunda yurdsuz olanlar,
daş üstdə çalıya oxşar...

**(*Çevirəni*: Ə.QOŞALI)**



## FƏNİL GİLAJİ
## (Фәнил Фаил улы Гыйләҗев) –



*16 may 1987-ci ildə Kazan şəhərində doğulub.*
*Öncə Yuxarı Kamenka orta məktəbini, sonra Kazan Dövlət Universitetinin Jurnalistika və Sosiologiya fakültəsini bitirib.*
*Universitetdə oxuduğu illərdə "Əllüki" Ədəbi-bədii yaradıcılıq dərnəyinin üzvü olub. İdil-Ural bölgəsi tələbələrinin "Şeir sabantuyu" ("Şiqri- Sabantuy" , 2010) yarışmasında ikincilik qazanıb.*
*"İdelem akçarlaqı" (" İdil qağayıları", 2010) və "Tayan Allaqa" ("Allaha güvən", 2011) ədəbi yarışmalarında "Qran-pri"yə layiq görülüb.*
*2011-2015-ci illərdə "Şəhri Kazan" qəzetinin əməkdaşı olub.*
*2015-ci ildə "Kazan odları" ədəbi dərgisində işləməyə başlayıb.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvü olan gənc şairin şeirləri bu Birlik tərəfindən nəşr edilən "Ağ yol" toplusunda (2012) yer alıb.2014-cü ilin dekabrında isə Tatarıstan Kitab Nəşriyyatında "Rizasızlıq" adlı şeirlər kitabı işıq üzü görüb.*
*2015-ci ildə "Şeiri-sənəti, geyimi, mətbəxi və tarixi ilə CAN AZƏRBAYCAN" adlı layihə çərçivəsində Bakıda düzənlənən tədbirlərdə fəal iştirak edib.*

## ÇAĞLAYIR İDİL...

Budur, üz tutmuşam Kəbəyə sarı,
Xəyalım istəmir geridə qala.
Şirin arzularım İdil boyunca
Köhlən atlar kimi çapır dördnala...

Ağ vərəq üstündə süzüb arzular,
Alır qanadında göyə qəlbimi;
Çırpınır narahat xatirələrim
Yaddaş sarayımda yarasa kimi...

Üzür xəyallarım bəyaz gəmidə
Tatar boğazından uzaq diyara...
Anlar ötüşdükcə sızladır məni
İçimdə bir kədər, köksümdə yara...

Dua oxuyuram babalarımtək,
Beləcə üz tutub Kəbəyə sarı...
Qovuşub bəşərin sonsuzluğuna
Çağlayır İdilin büllur axını...

## XƏZƏR QIYILARINDA

Xəzər boyu obalarda
Azərbaycan xalqı var.
“Dağ tatarı” deyirdilər
onlara bir zamanlar;

Bəzən “Qafqaz tatarları”,
bəzən “Qafqaz bəyləri”...
Tarixən bir döyünmüşdür
bizimlə ürəkləri...

İnsanları saf niyyətli
o yerlərdən keçmişəm;
Dostluğundan ilham alıb,
pürrəngi çay içmişəm...

Burda gözəldi axşamlar,
hüzurludu səhərlər, -
Bizim ortaq babaların
çadır qurduğu yerlər...

Sizə,
   ey, qan qardaşlarım,
dənizin o üzündən,
Xəzər övladlarından -
Kazan tatarlarından
salam gətirmişəm
                    mən!

## İSTANBUL KÜÇƏLƏRİNDƏ

Bazar qaynamada... – burda nə yox ki?
Alanlar, satanlar verib baş-başa...
Hər yerdən eyni söz qulağa dəyir:
“Gəl... filan lirəyə... filan quruşa...”

“Almıram” – deyərsən, – “bahadır malın”,
Ucuza düşərlər, tutaraq dilə.
İnadla çıxarlar yolunun üstə
“Xoş gələn boş getməz” misalı ilə...

Kəsərlər önünü, – alasan nəsə,
“Abicim, abicim, bi şunlara bak!”
Endirib qiyməti satarlar malı,
Hər kəsin qəlbinə bir yol taparaq...

...Paraya bağlıdır hər yerdə hər kəs,
Mal ilə birlikdə dil də satan var...
“Boş getmə” deyərək salarlar yola
“Xoş gəldin” deyərək qarşılayanlar..!

## XATİRƏ YELİ

Mənim igid, çomərd xalqım heç zaman
Əyilməyib, diz çökməyib düşmənə!
Qəlbimizdə şanlı tarix yaşayıb, -
Hələ sağdır, ayaqdadır o yenə!

...Kaban gölü şahididir hər şeyin,
Keşməkeşli taleyilə barışıb.
Şəhidlərçün axıdılan göz yaşı
Onun səssiz sularına qarışıb...

Bura neçə başsız bədən gömülmüş,
Bu göl neçə qəhrəmanın məzarı!..
Cənazə duası oxunsun deyə
Gah inildər, gah da sızlar suları..!

Şəhid olub baş qoymuşlar igidlər –
Verməmişlər yağılara meydanı..!
Suvarıbdı od püskürən torpağı
Məğlubolmaz tatarların al qanı..!

"Daş atana sən çörək at" demişlər...
Qılınc sınıb, sarsılmayıb dəyanət!
Kaban gölü qan içində üzəndə
Silah olub əl altında hər alət!..

Qadınların mətanəti bitməyib –
Tükənəndə kişilərin taqəti.
Bugünədək yad zənglərin səsindən
Alovlanır ürəklərin hiddəti!

"Mənim xalqım, ulu xalqım, sağmısan?" –
Köhnə sual dilə gəlir qəfildən;
Əsən yellər əsrlərdən səs verir:
Mən ölməzəm, əbədiyəm, sağam mən!

## DUA

Aman Tanrım, sən bilirsən nələr saxlar ürəyim,
Yalvarıram, köməyim ol, günahımdan keç mənim..!

Sənin lütfün qədərsizdi, hifz et bizi sən özün,
Nəfsimizə qul olmayaq, açılsın könlün gözü...

Müstəcəb et bu duanı, inayət et quluna,
Sən böyüksən, şərəfləndir, gələk haqqın yoluna..!

## QIYAMƏT GÜNÜ HAQQINDA DÜŞÜNCƏLƏR...

Bu həyat – bir dərin yuxudur yalnız,
şübhəsiz, bir sabah gün doğacaqdır.
Qəflətdən oyanıb duracaq hamı,
əfsus ki, o zaman gec olacaqdır...

**(*Çevirəni:* Afaq ŞIXLI*)***

# BULAT İBRAHİM

## (Булат Хәким улы Ибраһим) –



*19 oktyabr 1990-cı ildə Tatarıstanın Layeş elinin Atabay kəndində doğulub. Kazan Dövlət Universitetinin Tatar filologiyası və Tarixi fakultəsini itirdikdən sonra, orada aspiranturaya qəbul olub. Təhsil müddətində, "Əllüki" Ədəbi-bədii yaradıcılıq dərnəyinin başqanı, habelə tələbə qəzeti "Tərəzə"nin ("Pəncərə") qəzetinin müxbiri olub. "İdel", "Kazan odları", "Söembikə" dərgilərində ardıcıl olaraq dərc edilib. Respublika şeir yarışmalarının, şeir şölənlərinin ("İdelem akcarlaqı", "Şiqri- Sabantuy" və s.) qalibi olub; eləcə də, Səcidə Süleymanova adına ədəbi təqaüdə layiq görülüb.*
*Hazırda Ümumdünya Tatar Konqresi İcra Komitəsinin məsul katibidir.*
*İlk şeirlər toplusu "Balık Tele" ("Balıq dili") adlanır. Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## DOSTLAR GEDƏNDƏN SONRA
## və ya ŞEİRLƏ ÇAY SÜFRƏSİ...

**1.**
Ax, bu sənsənmi, dostum,
keç, qapını bağla;
gir evə, qoy heç kimsə gəlməsin...
Əhvalın necədir?
bu dəfə nə gətirmisən –
sevincmi, kədərmi?..
Necədir həyatın –
bugün nə deyir gələcəkdən?
keç yuxarı başa,
otur, çay içək.
Eşitməkçün, danışmaqçün
çoxlu boş sözlər yığılıb...
Qapını bağladınmı?
get, bir də yoxla;
həə... döşəmə, tavan və qapı
təhlükə qoxuyur...
bağladınmı?
Lap yaxşı,
yaxın gəl,
çayını təzələyim,
fincanlarımızı qaldıraq
gələcəyin sağlığına..!

Bu kimin kölgəsidir? –
Tanrım,
o məni necə qorxutdu..!
sən bugünü soruşursan?
eh, elə həminkidi...
Pəncərəyə bax,
gör hələ də yaydımı?

Deyirsən, qorxmayım?
Mən bilirəm
yaydan sonra
qızılı payız gəlir.
Deyirsən ki, noolsun? –
bu belədir
bildiyin şeyləri
çox vaxt düzəltmək olmur...
Çay süzümmü?
Qənd at,
bir az da çox...
çox vaxt olur ki,
Hətta sözlərdən qaçırsan
tavan, döşəmə və qapı
təhlükə qoxuyur...
amma fikirlər beyində haçalanır...

***2.***

Bəli, bəli... eşitdim
dan necə sökülürdü,
adətincə, gecədən sonra
günahların yuyulması üçün
camelərdə ianə paylanandan,
kilsələrdə günahların etirafından,
ruhların
    qaranlıqdan arınmasından sonra...
Onları yenə də gecə gözləyir.
Yenidən...
Mən deyirəm:
nə deyəcəksən?
nə baş verir dünyanda?
Şəffaflıqmı, təmizlikmi?
ya da qaranlıqlar və hikkəmi

dostların xəyanətimi?
Qızıl ruhdan daha bahamı oldu?
Çox təəssüf
Sevgi səhər şehi qədər yaşayır..!
Ürəklər qırılıbmı?
Ax, dostum mənim, ax..!
Deynən, yox..!
Deynən, göylər günəşlidir..!
De, noolar..?
Qapılar bağlıdır, elə deyilmi?
Dillənsənə bəs..!
Bir... utancaq şeir
bu gün qonaqdır..!
Bizsə üçümüzük:
mən, şeir, isti çay...
Yanımızda mürgüləyir casuslar:
- döşəmə, tavan və qapı..!

## BİR AZ BƏXTİYARLIQ...

***1.***

Bir az bəxtiyarlıq...–
Pəncərədən boylandı
ən tələsən şüası
     gecikmiş şəfəqlərin...
Düşdü və... səni gördü!
Sanki ruhun silkələndi;
Xeyirxahlıq damarına,
ruhuna inam doldurdular
yeridiyin cığırda...

***2***.
Anam,
maraqlıdır cənnətin rəngi..!
göylərin üzündədir...
gördünmü gözüm kimi..?
Tamam...
bir az bəxtiyarlıq istəyim olsun,
çox lazım deyil
tamam...
bir az bəxtiyarlıq istəyirəm mən
çoxmu böyük istəkdi?
Kim ki tərəziyə qoyur
xeyirlə şəri,
bizi fərqli tərəflərə çəkəcək;
Ola bilər soyuqlara,
bəlkə də, isti tərəfə,
bəli, mən də insanam...
əllərim içində silah titrəyir –
sonuncu odlu silah...
Əgər Antixrist gələcəksə
bəlkə də əllərim tətiyi çəkər,
o hazırdı təpəgöz Antixristçün
O, təkgözdür...
amma biz də, o vaxtacan
gözsüz, görgüsüz qalarıq...
eh, bəlkə də, heç olmarıq...

***3***.
Damara yeridilmiş
xeyirxahlıq iksiri,
yamayanda
qəlbdəki
büllur misal boşluğu,
Sübh şəfəqi hədələdi:
"Bəsdirin! bəsdirin!"

***4***.
Bir az bəxtiyarlıq...
Günəş bizdən qərbdə batdı
Günəş yerlə qəmə batdı...
Dünyadakı qarmaşada
Küləklə Şeytanın
təntənəsi var...

***5.***
Zəm-zəm bulağında dizin üstə dur
Ovcuna sağlamlıq yığ...
Qumlar diyarında üzüm və
qürbətə qovulmuş
söyüd ağlayır...

***6.***
Sübh...
şəfəqsiz oyanır Günəş –
Yer kürəsini fırlanaraq...
Mən bilmirəm,
bu evin divarları
içərdəki
bezginliyə
necə dözəcək..?

***7.***

Bir az bəxtiyarlıq...
Məkkə üzünü sənə çevirməyəcək,
sən üzünü ona çevirməsən;
inam ürəkdən gəlməsə,
sən heç bir zirvəni
fəth edəmməzsən...
Hətta, qaranlıqlar
özündən çıxsa
çıxsa həqiqətlərdən...
qaranlıqdan yol tapmaq
və getmək lazımdı,
                    getmək...
Ağ kəfən
      istəmək
      lazım Tanrıdan,
                  ağ kəfən...
Beləyik yaranışdan
beləyik ta əzəldən...
Üstümüzə
   gizli əclaflıq enir –
cismimiz nəm olub;
və sanki heç zaman
qurumayacaq...

***8.***

Bir az bəxtiyarlıq
səhər tezdən
bir daha və yenidən
hazırlıqlı
bəzənmiş
boyanmış
sanki yenidən başlamağa hazır:
“Ya Tanrı,

kömək et!
sənə elə ehyitacım var, elə..!”
damardakı xeyirxahlıq
vücuduma yayılmış;
qara bakirə Yerin
qara tozunu almış...
Gələcək adlanan
son günləri
ac ölkəyə zəkat vermi...

***9.***
Lap azca bəxtiyarlıq...
və bu dünya bitəcək..!
böyük sınaqlardan keçəcək
“gələcək, gələcək”
               deyə inandırırlar...
ruhsuzlar ruh axtarır
                cansızlar can...
tezliklə qullar tökülüşəcək Yerə
üfüqdə səpələnib,
                    əriyib,
                    qışqıracaqlar...
və dünya dağılacaq..!
Sanki ağlını itirmiş kimi
hardasa, uzaqdan yeni Göy görünəcək
qutsallıq sızılacaq bu cizgilərdən
                yaddaşın dərinliyindən
bir daha və yenidən O doğulacaq –
                                    yeni səhər..!

**(*Çevirəni:* SƏHƏR ƏHMƏD*)***

**ŞAN**
**(Alsu Axat qızı NURQATİNA;**
**Алсу Ахат кызы Нургатина) –**



*27 sentyabr 1993-cü ildə Tatarıstanın Aksubay elinin Köhnə İbray (İske İbray) kəndində doğulub. 2000-ci ildə Köhnə İbray kənd orta məktəbinin I sinfinə gedib. 2011-ci ildə həmin məktəbi bitirərək, Kazan Dövlət Universitetinin Jurnalistika və Sosiologiya fakültəsinə daxil olub.*
*Hazırda təhsilini davam etdirir.*
*IV sinifdə oxuduğu vaxtdan şeir və hekayələr yazır.*
*VI sinifdə oxuyanda yazdıqları "Avıl tannarı" (rayon) qəzetində çap olunub. Daha sonra respublika miqyaslı mətbuatda da çap olunmağa başlayıb. Ardıcıl olaraq, dövri mətbuatda ("Yalkın", "Söembikə", "İdel", "Kazan utları" və b.) dərgilərdə çap olunur.*

***

Bu gün səni gözləmişəm,
gözləmişəm, görmək üçün...
Külə döndü dəqiqələr,
mən közərrəm, görmək üçün...

Səni dost kimi sevirəm,
Qəlbim səni görür dost tək.
Belə düşün, unut məni,
Sözümdən yansa da ürək...

Qəlbinə də toxunmuşam
bəzən payız yeli kimi...
Payız qızam –
buz nəfəsli,
qış
mənim keçmişim kimi...

Bu gün səni gözləmişəm,
dərdləri çözmək naminə...
Gəlsən könül duyğuları
bağlayardı bir düyünə...

O düyünü birgə açar,
anlayardıq kimdi sevən...
Özümü duymayan yaşda
ürəyim dayansın nədən.?!

***

Bir qədəh şərabdı bizim duyğumuz,
İçini boşaltmış şərab şüşəsi...
Gözlərik Günəşi,
al üfüqləri,
görək ölmədən...
Pəncərədə dümağ pərdə,
Ay işığı kölgələrə nur salır...
Bu gün bu daş divarların içində
bir gözəl itirir bəkarətini...
Eşqə səcdə edir yenə sevənlər,
bizim duyğularla dolu qədəhlər
Yenə də əllərdə cingildəmədə...
Hələ ki, vaxt yetişməyib,
bir olub, birgə uçmağa...
göz yaşları qurumayıb...
Bu gün hərəmizin öz bucağı var,
Pəncərəni yelləyir
küləklər aramızda...
Könlümüzdə isti qalıb duyğular,
hələ xeyli qalıb dan ağarmağa...
Hələ, vaxtı deyil qanad açmağın,
gedəndə də qəlbim təmiz gedəcək...
Dolaşıb qaldığım bu kələfi də
sən deyil, başqası gəlib çözəcək...
Çimir Ay işığı yenə şərabda...
Bir qədəh var, hələ dodaq dəyməyib.
Gözlərində parıldayır gur alov...
qədəhlərdə şərab duyğularımız,
qıraqda hisslərin bomboş şüşəsi...
Gözləyirik doğan günü,
Hisslərə naxış vurmadan...

## KAZAN YATMIR

Bizdə hələ səhər açılmayıbdı,
Kazandasa indi gün başa çatır.
Gün demiş,
Kazana qarnlıq çökmür,
Fasiləsiz yanır projektorlar...
İşığı da yatan pəncərənizdən
Hər gecə, hər gecə Aya baxırsan;
Gözlərin yaşla dolu,
dodaqların dualı:
“Qoru, insanları! Qoru!” – deyirsən;
Hüzn dolu sentyabr səhərlərində,
Gözlərimdən sanki mürəkkəb damır...
Kənddə hələ gecədi,
səhərə hələ çox var.
Kazandasa
dilənçi
mahnısı havalanır,
Doğulur maşın səsi,
doğulur gur səsiylə,
bezdirir,
ruhunu doğrayır yenə...
Ağ Günəşdən nur damlayır,
Buludlar elə bil mavi pətəkdir...
Oyanmağa hələ tezdir, elə bil,
Bir az vaxt var hələ mürgüləməyə.
Mənim gözlərimdə bir azca kədər,
Bir də bir arzu var – kəndə qayıtmaq!..
...Sizdə hələ səhər açılmayıbdı,
Axı Kazan heç vaxt yatmır, deyilmi..?

Ah! bircə sən dönsəydin
mənim doğma kəndimin
gecikmiş səhəriylə..!
Mən iş-gücdən qurtulmuram,
Sənsə pəncərə önündə
Pərdələri aça-aça
hələ də çölə baxırsan.
“Həmişəlik yox, hələlik!..”
Sınamasın qəlbim ağlamağı da.
Mən gedəndə “ağlamaynan!” deyirsən,
amma özün gözüyaşlı qalmısan.
Gözlərim yorulub, yorulub daha
Kazan yollarına boylanıb qalıb...
Ah!.. İki səhərə yetişə bilsəm,
gecələri sənə qayıdacağam...

## MƏNİM HƏSRƏTİM

Qar geyinmiş ağdan arı gecədə,
soyuqdan donaraq dayanacaqda,
bir küncdə büzüşüb qalmışam yenə;
İsti fikirlərin əhatəsindən
heç cür
          xilas ola bilməsəm də mən
sizə gəldim...

Dayı, məni eşit, kimsəyə baxma,
görən, avtobus yolu
                    buralarda kəsişmir?
Görmədiz, yanımdan ötməmiş ola?
Artıq əllərim də keyiyib mənim,
Külək dəli-dəli dolur qoynuma,
Mənim xəyanətim... isti hisslərim,
Yandırır qəlbimin hüdudlarını...

...Söylədi: – İstidir,
                    bugün Romada,
yəqin 38 dərəcə olar...
Orda adamların əyin-başında
bədənə yapışan geyimləri var;
Atılmaq istərlər küləyin üstə...
Nilin qıyısını dalğalar tutub;
İlıq hava axını
                    zövq verir insanlara...
Bircə dəqiqəliyinə
                    isti külək hiss etsən,
Çəkər səni doğma yerlərə doğru...

Gəl, – dedi... –
          səninlə evlənək indi,

Romaya yollanaq
hava almağa,
Qışın soyuğundan qurtulub bir az
Birlikdə Günəşə mahnı oxuyaq...
Sənin bədəninə yapışmış donun
dizindən bir azca yuxarı olsun...
...Özümə deyirəm, bu yazıq canım
nə üçün soyuqda üşüyüb, donsun?..

– Gəlsənə!
– Yox, sağol, dayıcan, avtobus gəlsin,
onu gözləyirəm, - dönüm evimə.
Öz doğma ölkəmiz olsa da, yenə,
neynəyək, qış qışdır, soyuq soyuqdur...
Amma mən razıyam bu havalara...
Qoy, paltarım yapışmasın bədənə,
Olacaq olacaq, olan olubdu...

Vaxt gələr gərəyim olar
atamın köhnə paltosu,
Pərqu şalı bürüyərəm başıma... –
soyuq olursa olsun,
Tanrımızın rəhmətidir, deyərəm.
Kənd qışının həsrətini ovutmaqçün
hələ kəndə qayıtmaq da lazımdı.
Ta fikrimdən çıxardım
İtalyaya uçmağı...

Eh... dəliqanlılığın ağılsız vaxtlarıdır...

Duruxub dayanacaqda,
sonra, sağollaşıb, getdi,
keçdi avtobus da, keçdi...
Mənsə artıq qızınmışdım.
***(Çevirəni:* Təranə Turan Rəhimli*)***



## ALYONA KƏRİMOVA
## (Алена Каюм кызы Каримова) –



*14 iyun 1976-cı ildə Kazanda doğulub.*

*Qorki adına Ədəbi –memorial Muzeyin nəzdindəki Mark Zareçko adına Ədəbi Birliyin başçısı, şair, çevirməndir. Tatarıstan Yazıçılar Birliyinin, Rusiya Yazıçılar Birliyinin, habelə Tatar PEN Klubunun üzvüdür. 2006-cı ildə Saransk şəhərində keçirilən İdiloboyu Gənc Yazarlarının I Forumunun, eləcə də, M. Qorki adına Ədəbi Ödülün (2007, Kazan) laureatıdır. O, həmçinin Xarkovda keçirilən Boris Çiçibabina adına Çağdaş Poeziya Şöləninin nümayəndəsi; gənc yazarların Moskvada keçirilən bir şox forumlarının iştirakçısı olub; habelə 41-ci Puşkin Poeziya Günlərinin ödülü ilə təltif edilib. Fransanın Val-de Maren şəhərində keçirilən X Uluslararası Poeziya Şöləninin də iştirakçısı olan Alyona, "Novıy mir" ("Yeni dünya"), "Drujba narodov" ("Xalqlar dostluğu"), "Den i noç" ("Gündüz və gecə"), "Kazan" və başqa dərgilərdə dərc olunub.*

*"Başqa libas" ( Kazan, 2005),*
*"Soyuq isti..." (Kazan, 2015) və b. kitabları işıq üzü görüb.*

## YADIMDA
## YAĞIŞLI BİR GÜN
## QALACAQ...

***1.***

Bir söz söyləmirsən, yalan demirsən
qalıb boğazında acı sözlərin...
Yadımda yağışlı bir gün qalacaq –
o gecə mənimçün hələ sağ idin...

Əzizim, bu dünya səsli-küylüdür
bir tərəfdə qan var, bir yanda sevgi...
İndi kimdən sorum, cavab axtarım..? –
mənə cavab versin, qalmasın küsgün...
Süfrəyə nə düzüm?
                                        Sənin şorbana
nə əlavə edim, daha nə qatım..?

Kimdən soruşum ki, indi hardadır
Çeremşan çayının coşğun keçidi..?
Bəlkə sənin ruhun mürgülü çayın
suyuna qarışıb, gedib əbədi
uzaq bir sahilə...
                                   necə axtarım?..

Əzizim, sevgilim, sənin nəticən
artıq addım atır, durub yeriyir.
əlini qələmə, kağıza atır
dizimin üstündə durmur, sürüşür...

O, hələ bilməyir , səninlə necə
birgə yaşamışıq o kənd yolunun
            üstündə tikilən köhnə komada;
həyətdə moruq var, meşədə gilas,

qonaqsız olmayıb evimiz heç vaxt...

Kəndin arxasında Sultanbəy gölü...
göldə üzmək üçün bir balon aldım –
rəngi yaşıl idi, havası dolu;
“qorxma, əziz balam, çağır dostları
təəccüb qalsınlar” – çaöırdım onu...

Arxamca düşübdü qara keçisi
şıltaqdı, əl çəkmir
sahibi kimi...
Biz belə yaşadıq körpə balamla
eşidirsənmi?
Amma o eşitmir, büzür ağzını
onun da özünün dostu var, əlbət,
əlbət, dostu da var, bir də ki, sirri...
Əzizim, çox sağ ol, bunlara görə,
Çox sağ ol, çox sağ ol,
çox minnətdaram...

***2.***

Hər şey unudulur zaman keçdikcə
amma sən yuxumda cavan qalırsan...
Bilirsən, bu nahaq, bu boş dünyada,
oğlum qucaqlayır dizimi mənim,
oynamaq istəyir: “mənə bir ev tik”...
Xırda qutuları tökür qarşıma;
Ev tikim? – gülürəm körpə balama...

Amma sənin kimi ev tikmək çətin –
bu evin həyəti, həyətində bağ,
o bağda güllərin olması şərtdi...
Mənim torpağım da tamam başqadır

elə həyatımda – artıq beş ildir
qar yağır ömrümə, günümə mənim
soyuqdur, bilirsən, yatmaq çətindir,
oyanmaq ondan da dəhşətdir, axı...
Sən nə deyəcəkdin mənə, söylə bir,
yenəmi xəbərlər səni izləyir..?

Mənsə xırda qutulardan
oğluma ev tikim gərək...
Bilirəm,
            sırsıra,
                        şaxta keçəcək,
mən də ev tikməyi öyrənəcəyəm,
amma indi deyil,
                qoy, bir az keçsin...

***

Axmasın göz yaşların,
heç nəyin dəyəri yox,
bu kiçik, bu gülməli
səhnəni bir yaşasaq,
heç bir vaxt,
        heç bir zaman
əlimizdən verməyib
satmarıq, buna inan...
Burada ötən dönəmlər
    həzincə yada düşər,
yadına düşsə əgər...
Qıvrılıb, şahə qalxar
quyruğunu dişləyən
əcaib ilan kimi
Yenə öncəki təki,
cırıltıyla fırlanır,
Sanki şeytan çarxıdır,
başın üstə dayanıb...

Ağır-ağır,
            tutqun-tutqun
dolur ciyərimin dərinliyinə
payızın havası...
            havalı payız... –
“qəlbimə ağırlıq çöküb...” –
                        deyirsən...

Deyirsən:
“Bu qeybət, bu dedi-qodu
ax, necə yamandı...
ax, nə yamandı...”
Amma nə baş verir? –
Deyirəm, bəlkə,
nəmli havadan,
o qəfil burulan
İdil çayından
tərk edilib köhnə
gəmilər daha...
Di, gəl ki, o gəmi
ölməyib hələ...

***(Çevirəni:* Faiq BALABƏYLİ*)***

**AYDAR CAMAL**
**(Айдар Марат улы Җамалиев) –**



*1985-ci ildə Kazan şəhərində doğulub. Kazan Dövlət Universitetinin "Tatar dilinini tarixi və Ədəbiyyatı" fakültəsini bitirib. Filologiya üzrə fəlsəfə doktorudur.*
*Şeirləri, hekayələri, publisistik və analitik informasiya yüklü məqalələri respublika qəzetlərində, dərgilərində çap olunub.*
*2006-cı ildə Səcidə Süleymanova adına təqaüdə layiq görülüb. A.Camalın şeirləri "Əllüki" (2001) almanaxında yer alıb. 2008-ci ildə isə ilk şeirlər kitabı "Qəlbin yüksəkliyi" və uşaqlar üçün yazdığı "Aqillə Dinarın macəraları" (və ya "Söembikdə qonaqlıqda") adlı kitabları işıq üzü görüb.*
*Müxbir, kitab redaktoru olaraq peşəkar yaradıcılıq fəaliyyətində bulunur.*
*Hazırda "Kazan yarmarkası" ticarət mərkəzində mətbuat katibidir.*

***

***Xeyirliyə olsun, bu xeyirliyə:***
***girsin yuxusuna dan üzü güllər..!***

**Zülfət**

Sanki soyuyub Günəş
küskündü pəncərəmdə...
Göylər üzmü çevirmiş –
səhər açılır qəmlə..?

Dayanıbdı bir günlük,
suların axını da...
Yaxşılıq olsun təki –
bunu yazaq haraya?

İndi bu Yer üzündə
batmadadır bir qitə... –
O bülbüllər ölkəsi... –
əbədi bir xatirə...

Ha görünər-görünməz,
Söndü odlu məhəbbət...
Ax... çiçəkləri suya
Qoya bilmədik fəqat...

Sən yay paltarındasan
qış qapının ağzında...
Üşüyürsən indi sən
ən xəfif rüzgarda da...

...Və adamı kor edir –
Günəş soyuyub-nədi..?
Bunu haraya yozaq? –
yaxşılıq olsun təki...

**(*Çevirəni*: Elxan YURDOĞLU)**

## ANAMA

Son nəfəsimi sənə,
Sənə saxlaram, ana,
Ürəyim ən son dəfə
sənin üçün döyünər...
Amma
sən bu hissimi
daha öncə duymuşdun,
Mənsə həmin hissləri
sözə çevirdim
yenə...
Ömrümü sənə verim,
təşəkkür borcum olsun..!
Ömrünü mənə verdin,
kişi dözümüm olsun..!

***

Baxmaram yuxarıya,
böyüklüyə can atmam;
Fəlsəfəm – öz könlümdür,
dərinliyə axaram...

***

Göy üzünü tən bölüb,
Üfüqə endi yıldız...
Soyuyan quyruğuyla,
eşqimə tale cızdı...

***

Möcüzələr axtararaq
başımı sındırmıram –
Şeir pıçıltısı gəlir könlümdən...

Mən inanmayıram ki,
ilhama gəlmək üçün
                    göyün üzü gərəkdir...
Gün çıxarkən, qeyb olmazmı yıldızlar..?

Qasırğa tək qəzəblənər
                            coşğun ruh,
Fırlanan Yer kürəsi
                    gəlib
                    mənim vərəqlərimdə toxtar...

***(Çevirəni*: Ə.QOŞALI*)***

**DANİYA NAĞIMULLİNA**

**(Дания Нурулла кызы Нәгыймуллина)** –



*7 may 1991-ci ildə Tatarıstanın Balıq Bistəse elinin Yuxarı Dəyirmanlıq (Yuqarı Teqermənlek) kəndində doğulub.*
*Kazan Maliyyə-İqtisad Texnikumunu bitirdikdən sonra mühasib işləyib, paralel olaraq Kazan Kooperasiya İnstitutunda qiyabi təhsil alıb.*
*Hazırda, Tatarıstanın Gənclərlə iş və İdman Nazirliyinin "İdel" Gənclər Mərkəzində çalışır.*
*Poeziya sahəsindəki uğurlarına görə, "İdelem akçarlaqı 2011" Respublika Yarışması və "Şiqri Sabantuy-2013" yarışmasında "Qran-Pri" qazanıb, "Tayan Allaqa" ("Allaha güvən", 2014) yarışmasında, həmçinin "Sələtkə nur bulqan yoldızlar-2014" Poeziya Yarışmasında I yerə layiq görülüb.*
*Müəllif özü haqqında belə yazır: "...2-ci sinifdən bəri şeir yazıram. Yaradıcılıq mənimçün xobbi deyil, bir yaşam tərzidir...*
*Deyirlər, çətinliklər insanın ruh gücünü sınağa çəkmək üçündür... Şəxsən mən, ən çətin anlarımda qələmə sarılıb yazıram, yazıram... Buna görə də, istənilən sınaqlara və taleyin burulğanlarına görə həyata minnətdaram.*
*...Həyat devizim bunlardır: "İstək olan yerdə, hər şey etmək olar", "Kamilliyin həddi yoxdur"...*
*Mənim diləyim – tatar poeziyasını dünya arenasına çıxarmaqdır..."*

## AXTARIRAM

Gör neçə ildir gəzirəm,
Böyükdü tapmaq umudum.
Varıb İdildən keçənəm,
Köhnə sudan sərxoş oldum...

Küncə qısılıb gəzirəm,
dəysən, boz daşlar ovular.
Dayazlar ölər qorxudan,
dərin ağıllar doğular...

Gəzirəm bulqar çölündə,
hərdən taqətim tükənir...
Xanbikədən qalıb miras,
bir şal yaddaşa bükəlir...

Gəzirəm üz-gözüm çaşqın,
əlim ovxalar gözümü...
Gəzirəm, heç toxunmayın,
tapmış deyiləm özümü...

***

Yaş keçir... razıyam sizinlə mən də...
Sözüm var xalqıma, qoy deyim onu..!
Kol-kos çox... qalxıb da uçmaq nafilə,
qanadlarmı yığıb gedim, ən sonu..!

Olurmu? Yox, olmaz, axı olan, yox..!
insanlar var, kəmdi günü, kəm ömrü...
Çoxdandır çalınır qəmli təranə,
əfv edin sözləri ötürdüyümü...

Bağladıq yaranı qan qurtaranda,
toxunduq qəlbinə qara daşların...
Düşüb izlərinə ulu əcdadın,
uzun-uzun bir səfərə başladıq...

## ÇƏTİNLİK GÜC VERDİ

Mənim sənə üç sözüm var,
Üç söz:
yar,
      yara,
            yaran...

Gül kimi açıb güllənər,
Yarın açdığı yara..!

Sevgim ürəyimi sardı,
Dağları yarıb gəldim.
Sinə gərdim ağrılara,
Köksümdən varıb gəldim.

Üçcəcə sözüm var sənə:
Üç söz:
al,
   ala,
       alan..!

Məndən alsan da al rəngi,
çöllərim çiçək-çiçəkdi...

## KÖPƏK HƏYATI

Axsaya-axsaya başını əyir,
yolu tutub gedir...
gedir bir köpək.
Yuxu olsa, oyanardın, lap yəqin,
amma bu taledir,
bu – zalım həyat..!
Həyat..!

Kiməsə səs eləyər yavaşdan-yavaş,
anladar: bir aman-güman yeri yox..!
Yolun toz-torpağı onun dostları,
Günəşsiz açılar hər gün dan yeri.
Dan yeri..!

Bir ayının pəncəsimi bu həyat..?
cəngindən qurtarmaq olmaz da olmaz...
Gözündən sakitcə damar, yaş... damar,
Deyirsən: "Ulamaz,
güclü ulamaz..!"

Çörək atdı biri sənə,
biri tapdadı, qış dövrü...
Daş olub ürəklər, yoxsa,
yoxsa zəmanə - daş dövrü,
Daş dövrü..!

Qayalı yoldan keçirsən,
ay köpək, əylən, qayadır...
Gülməyin, barı, hər kəsi
büdrək ayağı oyadır...
Oyadır...

***

Dayanacaq...
Yad üzlər,
göy, hava,
üstümü qara gecə gizlər...

Restoran...
“Menyu”da – keçmişim,
sən də gəl, qonaq ol, əzizim.

Telefon...
yeddi rəqəm...
Ağ taksi...
küçə boyu küləklər;
Əlimdə gül dəstəsi...
Danışmırsan, sözlərin susur.
Əlimdə deyil, əzizim..!
Ürəkdə açdığın yaralar,
saralar...
Lal küçə.
Yad qala.
Addımın köksümdə iz salar,
Salar...

## DÖZƏRİK

Qumda bir gəmi dartıram,
dəniz hələ görünmür.
Ovcunda ümid işığı,
gəmim qəmə bürünmür.

Sularda sal kimi üzəm,
ha bir batam, ha bir çıxam;
Qürurumu qırsalar da,
unanmayan yerdən çıxam.

Toxum səpdim boz çölə,
cücərə düzüm-düzüm...
Nə qədər olsa dözərik,
səbrimiz genişdi bizim...

***

Diz qanayır,
Daş boyanır.
Pərilərin
            bayramıdı,
Təbiət özü oyanır.

Dizimi bərk sıxdım,
Barmaqda damcılar...
Qəlbimi gözümdə,
Kipriyim qamçılar.

Məni hey qamçılar,
Talemi, sınaqmı?
Gələcək gözəl gün,
Gedəcək qonaqmı?

Taleyim yorulmuş,
Gəlirmi, gedirmi?
Yaxşılıq eləyən
Kişilər ölürmü?

Diz qanar, şirin söz,
Kəsər qanaxmanı.
Beşikdə uyudar,
Bir adam vicdanı...

***

Günlər-aylar yumaqdımı?
Çözələnib tükənir...
Ürək vücudda önlükmü,
Hər şeydən tez çirklənir?

Həyatımız şəkərdimi,
Vaxt çayında əriyir? –
Ədalətsiz dünya yenə
Qılıncını siyirir..?

Həyat əldə bir hörük ki,
Ömür boyu hörək biz.
Göylərə geri dönəcək,
İxlas adlı surəmiz...

Dünya ayqır atmı belə? –
hər gələn yenə peşman...
Öz dibinə çəkir bizi,
nəfs, qeybət və yalan...

Həyat bir nağıldı
hər kəs
öz dilində oxuyur.
Min illərdi oxunsa da,
yenə də sirr saxlayır...

## GÜC

Ocaq közüylə,
şaxta buzuyla,
səhər üfüqlə,
insan ürəklə,
güclüdür...

## QƏRİBƏLİK

Şehli ota dodağımla toxunsam,
İlhamıma sərvətimdən yaxınsam,
Gecələri toy libası toxusam,
Demə, nə qəribəsən.!?

Əgər
bir ox sonsuzluğa dəydisə,
Əgər
bir güc tükəndiysə, söndüysə,
Əgər
bir xan, xanlığını böldüysə,
Onda, qəribədir de..!

## ANA DUASI

İmtahan verməyə gedirsən,
Ananın əlləri duada,
Yanına mələklər uçuşar,
Günəşə götürər havada.

Ağrısan, anan səninlə,
bir üzülər, bir ağrıyar...
Dualar pıçıldar ürəkdən,
duası dərdi doğrayar...

İşlərin düz gələr, özün,
inana bilməzsən buna...
anacanlı, istiqanlı,
dua can qatar canına...

Anan xəstələndi, sənsə
yetib, yoxlaya bilmədin.
Sənə oxunan duadan,
ona saxlaya bilmədin?!.

Ananın əlləri duada..!

**(*Çevirəni*: Həyat ŞƏMİ)**



## ELNAR BAYNAZAROV
## (Эльнар Рөстәм улы Байназаров) –



*1992-ci ilin 12-ci ayının 12-ci günündə Orenburq vilayətinin Sunarçi kəndində doğulub.*
*Hazırda iki təhsil ocağının tələbəsidir – KFU, Uluslararası İlişkilər İnstitutunun və İ.V.Əüxədiyev adına Musiqi Məktəbinin vokal şöbəsinin...*
*Gənc şair bir neçə dildə, o cümlədən dünyanın aparıcı dillərində yazıb-oxuya bilir.*
*Şeirləri davamlı olaraq Tatarıstan dövri mətbuatında yayımlanır.*
(Gənc şair özünü belə tanıdır:
*“...18 yaşımdan şeir yazıram. – Həm tatar, həm də rus dilində... Bilirsiz, bunun özündə də seçim gözəlliyi var. Sən öz hisslərini insana düzgün çatdırmaqda hansı dilin daha münasib olmaq seçimini edə bilərsən.*
*...Tatar şairləri məni “tatar tərzi”ndən qıraq cümlələr qurduğum üçün və ya məna çalarlarına xətər gətirdiyim üçün danlayır. Soyuqqanlıqla susuram. Məni təəccübləndirən onların poeziyaya olan münasibətidir, sanki nitqin fəaliyyəti və qurbanı kimi... Mənim üçün poeziya və nitq - tam ayrı, tam bərabərhüquqlu nəsnələrdir. Onların üzərində hakimlik edən məna və məntiqdir.*
*Ritm və qafiyə haqqında: klassik şeirin tərəfdarıyam.*
*...Freydin sözlərinə inanıram ki ,insana əmək yaddır, bunun təməli təbiətdəndir. ...Şeirlərə yalnız minor və ya major tərzində yanaşmaq olmaz. Belə bir tərz var – çelaton. Bu tərz fantastik, başadüşülməz və ağrılıdır. Bax, mən öz şeirlərim haqqında, təxminən (təvazökarlıqdan qıraq olmasın), belə düşünürəm...”)*

## KİÇİK ÇILĞINLIQ...

Daha azılası küçə qalmayıb
Azmaq istəyirəm…
İstəyirəm, səs
eyləsin,
yelləncəklər,
Bu şəhərin
ahəngini bilir hər kəs…

Dostlarım azalır… dost sayı qalır,
Comərdlər həmişə az olub, neynək…
Nə arzular uddu bu dişsiz şəhər…
Ev-eşik buz kimi soyuyub… neynək…

İz düşən cığırlar – bir tapıntıdır,
Hamı yürüyən yol, içimi çəkmir…
Bu şəhərin yol qızları tanışdır,
Mən özümü yedim… içim isinmir...

## BİZ

Körpüsüzdü, qayıqsızdı adalar,
Aramızda min dəniz var, bir yara...
Mənim yorğun gözlərimə, sən Allah,
Boylan öz adandan, ani də olsa...

Yağış yağır
                yəqin sənin adana,
Mağarana damcı damır, aramla...
Bu dəm baxıb kuzədəki məktuba,
bir ünvan qoyursan: “kimə”, “hara”ya...

Adalar elə də uzaqda deyil,
dənizdə boran yox, külək sakitdir;
Deyirsən, əsas şey körpü ha deyil,
onda, niyə bağlarımız kəsikdir?

Bir bax, aramızda dənizlər varkən,
özümüz uçurum salmışkən, bir də,
Bilsəydin, nə qədər yaxınsan mənə,
nə olsun, çox da ki, efir kimisən...

***

– Qorxma, uzun qış gecəsi, – deyirsən,
nəmli gözün dolub-daşan piyalə.
– Bir girək, – deyirsən, qış aylarına,
amma qış sonunu yalqız qarşıla...

Şəhər üçün mahnımızı oxuma –
Binalar, binalar qısqanar, bir-bir...
Tiryəkə qurşanma, nə ağu içmə,
Bu mərəzlər səni bir gün bitirir.

Qarğama bu qışa, o suçlu deyil,
qışda sevmək hər oğulun işimi?
Azmışıq, cığırsız qoca meşədə,
sənin qışdan qorxun çox təbiidi…

Qəm eyləmə, gözəl günlər ararkən,
yarpaqlar baxarmı sözə…? – tökülər...
Xoşbəxt bilet kimi saxlama cibdə,
çətin məndə sənə yığval görünər…

***

Yarıldı birdən səma,
eşitdim gurultunu;
Gün tezdən üfüqlənib
“söykəndi” pəncərəyə...
Dəyişdi dünyanın
               təranələri,
duymuş idim onları;
sükunət də dəyişdi,
dəyişdi düşüncələr
  hərəkətlər dəyişdi...
Sənin əlin soyuqdu,
bəs niyə sənə gəlim?..

Buludlar düyün vurur
qürubun kəndirinə…
Dəyişik sal Günəşi,
qan damarını kəsmə..!
Gecikmiş tramvaylar
Boşluğamı gedirlər..?
Mən onların birinə
oturdum, düşünmədən…
Sən, ey əlləri soyuq,
       əlin niyə soyuqdur?
Bir qaranlıq otaqda,
yuxu axtarıram mən.
Qonşuluqda kimdisə
     sarı simə toxunur.
Amma yuxarı qatda,
   əldən düşmüş insanın,
   dünya dardı gözündə…
Sən, ey əlləri soyuq,
   niyə toxundun mənə?

## NOKTÜRN
(KƏDƏR NOTU)-**1**

Qan qusur sübh oyanarkən patefon,
iynəsi hey cırıldayır çarəsiz…
Bir gizli otagın ağ tavanını,
dörd bəbək öyrənir, nəsiz və nəsiz...

Gecələr gizlənib sınıx saatda,
gecənin sinəsi küləyə məskən…
Gözlərinə yuxu satan gecənin,
bir ucu o yanda üfüqə həmdəm...

Köhnə pəncərədə öpüşə səslər,
aşiqlərin damdan “asılan” ruhu…
Üzündən Günəşi qovuram sənin,
çəhrayi qürüb da, bir cür qorxudu...

Yenə oyanırıq qonşu səsinə,
süd istəyən körpə ağlayır orda.
Bizim otaqdasa – “dalğalı dəniz” –
patefon çarəsiz cırıldamada…

## NOKTÜRN -2

Tellərin daransın aprel yelində,
seyr edərkən boz evlərin damını;
ulduzlar ox kimi atılsın gözə…
Sərxoş it sürüsü "vurur" havanı…
Üzsüz şəhərlərə nifrət edərkən,
söyüşlə sığınma azadlığına..!

Əzilmiş don kimi asfalt yollarda
gecikmiş taksilər cərgələnəcək...
Sözsüz qalacaqdır şeirin sənin,
Səni zümzüməylə yaşadacağam..!

Mən yırtıq buludlar yollayım sənə,
Yağışlar yuxuna ələnsin ordan…
Gözə yuxu getməz bu gənc apreldə,
ulduzlar qürüba enər – görərik…
gözü yuxu görməz vurulmuşların,
əslində, bu gecə yatmaq günahdır..!
"Yanlış da bir çeşni" deyib atalar,
Gəl azaq yolları – azaq, tapışaq…

(***Çevirəni:*** **Fərqanə MEHDİ**)

## NOKTÜRN -3

Gözlərdə – ağ yaylıq, başda – yel əsir,
pəncərə açıqdır – gecə rəqs edir...
Bu gecə özümlə söhbət edirəm,
hər ümidsiz sözə üç nöqtə gəlir...

Şeirlər – dosdoğma sükut üçündür,
həqiqət yerinə "sanki" yazılıb...
Yandırdım divarın kağız üzünü,
indi otağımda rəngsizlik qalıb...

O, açır qapqara saçını birdən,
tavanda bir ilan qıvrılır sanki.
Sən cənnət quşunu dinləməkdəsən,
Başına yastıqdır bir özgə çiyni...

Sizin gecə yuxsuzdu.
                    Mənim sübhüm açılır,
kölgələr oyanıb, qalxır 6-da...
Öz göz yaşlarımı gizlədirəm mən,
Mənim yerim yoxdu sizin sırada…

(***Çevirəni:* Ə.QOŞALI***)

**ELVİRA HADİ**YEVA

**(Эльвира Рафил кызы Һадиева)** –



*1989-cu ildə doğulub.*
*Kazan Dövlət Universitetinin Filologiya və Tarix fakultəsini bitirib.*
*Şeirləri respublika səviyyəli qəzet və dərgilərdə yayınlanır.*
*İlk kitabı ("Büqeneqdən ixlas bulamabız...") 2013-cü ildə Moskvada çıxıb.*
*Hazırda "Yalkın" dərgisinin bölüm redaktoru vəzifəsində çalışır.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

Gənc şair özünü belə tanıdır:

*"May ayı idi. – Yazın son ayının on biri. Mən Kazanda doğuldum. 3 il orda yaşadım, sonra isə ata-anam öz dədə-baba yurdlarına qayıtmaq qərarına gəldi. Bu, onların ilk övladları olan mənim, rus dilində danışmağa başladığım vaxtlar idi... Beləliklə Baltasa köçdük. Bu, təmiz tatar eli idi. O el ki, bir zamanlar orda* ***Abdulla Tukay*** *doğulub...*

*...Dahiləri oxuyanda, həmişə onlara qibtə edirdim: gah ilişkilər, gah gəzilər – oturaq olmayan yaşam... Özümə də bunları diləyirdim, 2012-2013-cü illəri Türkiyənin paytaxtı Ankarada keçirdim. O zaman özümə yeni bir dost tapdım, gözəl ürəyə sahib ədib Rinat abi Muhammadiyev. O, Moskvada şeir kitabımı çap etdirməyi təklif etdi. Şeirləim isə məndə qalmamışdı, bilgisayarımla birgə itmişdi. Mən ona 20 yeni şeir göndərdim, qalanlarını isə o özü bircə-bircə qəzet və dərgilərdən yığdı. Belə insanlar da var... mən olsam yığmazdım, bəlkə... Ona çox minnətdaram!.."*

## QAR QOXUSU

Sizdə yandırır qış... şaxta və ayaz,
qara buludların qara qorxusu...
Bizdəsə gündüzlər necə bəmbəyaz,
ah, soyuq qoxusu... ah, qar qoxusu..!

Bu ağlığı buraxıban getməkmi? –
daş-qalaq etsən də, addım atamam...
Qoy ötüşsün zaman... Hər sətrim sənə
sevgimlə bəzənib, sevgimlə tamam...

Əgər gözləyərsən, sözüm yenə söz,
əgər gedər olsan, neynim... Əlvida..!
Amma səbrin olsun, dönəcəm bu yaz,
bilməm, bu il niyə gecikir o da..?

Sizlərdə soyuqdur, amma sən donma,
qarı da, ağappaq yorğan bil hələ...
Günəşin olaram, bircə sən çağır,
parlaram, tək bircə kəlmə sözünlə...

## AZITMA

Sən gedəndə, yollar upuzun idi...
sanki göylər təsbeh kimi dağıldı...
Muncuq-muncuq oyanırdı Kazanım,
hər yan, hər yan, sən olmayan nağıldı...

İzlərin düşmədi daşlı körpüyə,
ah, yumadı kirpiklərni büllur şeh;
Nəfəsinçün darıxdıqca pəncərə,
ağladı boşluğa... əsdi, əsdi meh...

Bir gecikmiş vidaydımı bu? - desən,
- Kaş ki, bir az, bir az, daha gecikə...
Göz yaşını gizlətsə də küləklər,
dardı nəfəsinə ən böyük küçə...

Çalışırdı görsün hər bir görüşdə
bütün cizgilərimi o, ılıq-ılıq...
Derlər, gedənlərə tapılır yoldaş,
qalana çətindir, çətin ayrılıq...

Yolun uzun idi, sənin gedişin
sığmadı şəhərin qara bağrına...
Aramıza məsafələr yerləşdi,
mən ağrıdım, barı sənsə ağrıma...

Özgə şəhərlərdə səsin kəsilib,
doğma cığırlara heç uğramazsan...
Yeni qışa açılsa da, sabahlar, –
sənsizliyə alışmadı bu Kazan...

## UNUDARSAN YƏQİN

“Unudarsan yəqin, – dedin –
olanları –
Yaddaşından siləcəksən “biz” sözünü...”
Mən nə deyim,
özün anla,
Bu hekayə
olduğundan uzun çəkdi, yaman uzun...
Hekayənin izi qaldı, cadu kimi...
Arranıram,
qəm çəkirəm,
xəciləm yamandan yaman...
aramızda məsafələr qısaldıqca,
Bəs nədəndir üşüyürəm,
gözlərimlə nəm çəkirəm..?

...Mənə belə dərdli baxma,
hər addımda -
büdrəyirəm, qəlbim bomboş... kədərim bol...
“Bağışlayıb, keçərsənmi?”- deyirsən sən;
Gələcəkdə bəlkə,
nə bilim...
indiliksə
sağlıqla qal!

## OYUN

Üz-üzəyik...
ən əsası, ən əsası,
çox da yaxın olmayalım bir-birmizə.
Əlimizdə “iki tuz”,
Kəsmə,
bu oyunu, di haydı, başla..!
Sözlər daşmı atır? – geriyə yol yox..! –
Bağışlamaq aya-iləmi qaldı?..
Təqvimlərdə günlər artır elə bil...
dərdimiz azalır...
Artıq, şər qarışır, saat 6-dır,
Bu saatda küçələrə işıq axır;
soyuq azır pəncərədə,
Ən azından, bir oyunluq zaman vardır,
Sən başlaynan, məndə “kozır” çoxdan hazır...

## HEÇ ZAMAN...

Gəl, bu yad şəhərin isti küncündə,
ikimizçün göydə bir ulduz yandır,
“Öyrəşmişəm, - dinsən, dinməsən də, sən,
elə bilirəm ki, tamam yalqızım...

Elə bilirəm ki, qanadsızam mən,
görə də bilmirəm daha Günəşi...”
Qoy, mən addım atım səninlə qoşa,
payızla boyayaq bütün şəhəri...

Bir yad ad var – dodağından qopmağa...
eh, daha nə deyim, nə söyləyim mən?..
Nə olsun, qaradır, dərindi gözün,
Bu fərqi bilməzsən, görməzsən ki, sən...

...Kimisə köksünə sıxıban yenə,
ulduzları sayır Aylı aynadan...
Öpdükcə isidir onu... mən isə,
qollarım qoynumda qaldım nigaran...

Yad şəhərin mənsiz küçələrində,
ikimizçün göydən bir ulduz qopar..!
Bizim bugünkü tək yaxın, səmimi
günümüz bir daha nə zaman olar?..

## ŞAİR

Şimşəklər gecənin üzünü yalar,
qoca dünya, bizimsənmi, yadınmı?
Göyləri dolaşır gur fırtınalar,
bu sənsənmi, şair... yoxsa, azdınmı?

O ağ cığırlardan, gizli yollardan,
qəlbin qanad açıb, uçub keçəndə,
necə oldu sənin isti sözlərin? –
Söylə, hansı hisslər qalıb içində?

Kimlər səni özününkü bildi, de,
hansı alov ötdü sənə dəymədən?
Şair vurnuxurdu, amma ki, şeir,
ağır-ağır nəfəs aldı dərindən...

***

İynə ucu qədər itidi anlar,
ikiyə böl, bir qələmlik hissimi.
Qəlbim yanır... arzular baş qaldırıb,
belə
cəhənnəmin ortası kimi...

Günəşin özü də bir həqiqətdi,
dünya özü bütövlüyün rəmzidir.
Aramızda məsafələr tel qədər,
ürək ha vurnuxur, yolunu gəzir...

"Dözüm" adlı aksiomdur həyatım...
Ötənlərim – keçmiş olan sevgilər...
Bir gün üzə çıxar bütün doğrular,
Axan göz yaşımı öz əlim silər...

İynə ucu qədər itidi anlar,
qanım damarımda son dəfə axır...
Bir gün Yer kürəsi iki bölünsə,
yenə sən hardasan, həyat ordadır...

## MƏNDƏN SONRA ŞƏHƏRİNDƏ

İndi hər şey sənin əllərindədi,
Axşam düşür, di dur, yandır fanarı.
Gecə göyü boya sapsarı rəngə,
Sakitləşsin külək, sən oyat Ayı...

Kədərin üzünü bir azca basdır,
işıqlandır ən qaranlıq tinləri.
Həqiqətin yaşıl ətəklərinə,
yeni naxışlar cək, çək yeni əsri...

sən gizlət büsbütün yalnızlıqları,
Yanlış məktubları yandırıb, yığış..!
Guya Yer üzündə hər kəs xoşbəxtdir,
hər şey dəyişibdir...
Çırpanaq yağış
təmizləsin buğlu pəncərələri,
Hətta yalnızlığı yuyub, aparsın...
Hər şey gözəl olanda da, son anda,
Xəyanətkar ruhun çaşır ki: “Yoxsan..!”

## QIŞ GƏLƏNDƏ

Qılıncların qana susadığı vaxt,
sübhə hamiləykən geniş üfüqlər...
Dolub-dolub allananda pəmbə Şərq,
ovuc-ovuc qar yığardım – apağ qar...

Soyuq toxunardı, bərk də yatardım,
Bəlkə də gec sağalmağım sınaqdı...
Enir boylu bulud torpağa, suya,
Kömür parçasını sızladacaqdı...

Hopub hər damcısı ürəyə damır,
Sayır yaramızın hər tikişini;
Hərdən dəli könlüm qanlar ağlayır,
amma dözmək olar
sıxıb dişini...

Vurur, qan ağlayır, qan... – qəzəbindən,
Gözlərində əks olunur bir ürək...
Kazanın önündə başını əyir,
İslaq ətəyini çirmələyərək...

Ona nə var.?! – Hətta, tanımır belə,
Gecə pəncərəli can şəhərinəm...
Qış gəldimi... gileylənər, deyinər:
“Lənət olsun..! yenə soyuq, yenə nəm..!”

## UZAQLAŞMA

Uzaqlaşma,
sən, ey vəfalı sirdaş,
birlikdəyik...
qoşa görsün bizi qış...

Məsafələr, nə də zaman ölçüsü yox...
Sənin göyün şimşəklidi, mən rahatam...
Səndə gözü qamaşdıran əngin göylər,
Mən bir topa ulduz ollam, ya da, Ayam;
Gəl, bir gecə göy üzünü qarışdıraq,
Alışsın göy, yeni, dərin Dünya quraq...

“Yox, bomboşdur sizin xəyal!” –
deyib durma,
Deyilənlər boş deyildir, ikimizçün;
Sənin bircə gülüşünlə
aydınlanar tutqun hava..
Gözəlləşər... çözələnər ipin ucu...

Uzaqlaşma,
pəncərənə yaxınlaşır,
yeni qışın buzdan soyuq pak əlləri...
Əmin-əmin nəfəs alır... qaranlıqlar işıqlaşır
Bizim görüş vaxtımızın dəqiqələri...

## DAHA ÇOX ÖZÜM OLANDA

Susqundu küçələr... –
gün dözdüm, ay dözdüm,
sözləri üzümə-gözümə sıxıb...
Yapmacıq bir şəhər –
sıxlıqdan bezar...
Mən belə
              təptəzə yalanla çox gəzdim.

Zamanın hesabı misqal-misqaldı,
Döşənib səkiyə daşın qarası...
Acı söz, yad baxış, sönmüş telefon,
Məndə "sənsizlik"di ruhun yarası...

Yandırır ovcunu, ruhunu, əlbət,
Sən Kazan qarını, suyunu udarsan.
Kül olub ovcundan uçur həqiqət,
Bu çılpaq Kazanda,
              nə qəm? – sən varsan..!

Duracaq... ötər bu, nəfəs al, yadam,
hər söz – bir səbəbdi, hər tanış – mənəm...
Burda mən başqayam, lap daş-qayayam,
tək sənin yanında ÖZəm, ÖZüməm...

Tək sənin yanında durulur ruhum,
BƏXTİMdən yol alıb dünya darlığı...
Keçərsən – çox sağ ol, söz arifiyəm,
Haqq vermə... qoy qalsın haqqın varlığı...

Sənə gecikərəm bir şeir boyu,
yaram göz göz olsa, sənə qaçaram...
Öləziyən ürəyimdə adın var,
yeni günü qapı kimi açaram...

***

Daha yaşlar gözlərimdən qaçaqdı,
al-qırmızı boyalıdı paltarım;
Gecə susqun... qələm-dəftər oyaqdı...
Qanadlandı pəncərədən, yazdığım,
yerə düşdü gülüşlərdən asdığım...

Unut, keçmişimin notunu unut,
ağlamaram əvvəlki tək, gülərəm;
Kazan tütünündən, dünəndən bəri,
min ulduz asmışam, gizlədəmmərəm...

Lap təzə qaydalar qoydum, bu gecə
gəmilərdən yeni bayraqlar asdım.
Bu gözlər o üzə gülərmi bir də..? –
gülüşü söndürdüm, sözümü susdum...

Yaşıl gözlərimdən duzlu su axmaz,
geyinərəm al-qırmızı boyalı...
Səbəb də arama... yuxun çin çıxmaz,
sən mənə, mən sənə yaxın olalı...

## GÜNƏŞİM OL

Sən gülümsə, Günəşim ol,
çaşsın rüzgar,
darıxmaram, min qaranlıq gecəm olsa;
Qaranlıqlar məni əsla qorxudammaz,
Günəşimin nuru axıb, qəlbə dolsa...

Yaralanmaz, qaralanmaz susqun könlüm,
Göz yaşların islatmayır əllərimi...
Qollarımda yanır indi
Günəş özü,
Gecələrim intizarda əriməyir...

Gülümsə ki, könlüm doysun gülüşündən,
Nur çilənsin Yer üzünə dolu-dolu...
Nəğmə gətir, nəğmə söylə, o gün olsun,
Göylər özü alqışlasın, sən tək oğlu...

## YUXU

Ötdü sənli çağlar, keçmişdə qaldı,
qılıncın ucunda son ehtiras tək...
Hörülmüş çələnglər ov kəməndidi,
sevgisiz ömür tək, eşqsiz həvəs tək...

Keçir qaranlıqlar, axır ulduzlar,
Bürküdür... nə var ki, səninlə bölüm.
Bir az soyuq nəfəs, bir də tanış üz:
“Ağıllı ol, yaxşı olacaq, gülüm..!”

**(*Çevirəni*: Həyat ŞƏMİ)**

**FİDAİL**
**(Fidail Vasil oğlu MƏJİT,**
**Фидаил Васил улы МӘҖИТОВ) –**



*24 may 1984-cü ildə Tatarıstanın Aktanış rayonunun Kırkaentübə kəndində doğulub. Çallı Dövlət Pedaqoji İnstitutunun Tatar filologiyası fakültəsini fərqlənmə diplomu ilə bitirib. "Meydan" ədəbi-bədii, ictimai dərgisinin baş redaktorudur. Respublika mətubatında ardıcıl olaraq çıxış edir.*
*İlk şeirlər kitabı ("Sağışlar da altub bula ikən") 2006-cı ildə, ikinci kitabı isə ("Yıldızlı çətir") 2015-ci ildə gün üzü görüb.*
*Rusiya və Tatarıstan Jurnalistlər Birliyinin, Uluslararası Jurnalistlər Assosiasiyasının (IFJ), habelə Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*
*Bir sıra yarışmalarda, o cümlədən respublika miqyaslı şeir yarışmalarda birincilik qazanıb.*

***

Mən deyəsən dövrlərin arasında azmışam,
yoxsa mənim taleyimmi yanılıb?
Mənmi bu həyatda artığam, Tanrım,
Tanrım, yoxsa, Vaxtın ağlımı çaşıb?

Hara tələsirlər tanıdıqlarım
niyə vurnuxurlar, niyə? – bilmirəm...
Bir mənəm, dayanıb baxan, deyəsən,
mənsə həqiqəti görmək istərəm...

İxtiyarlar keçmişinə darıxır,
gənclər isə baxışını dəyişir;
Təkcə mənmi qəribəyəm, görəsən,
eh, nə qədər sualım var – bir bilsən...

“Eh, öz köhnə mahnılarnı oxuma,
eşq dediyin quru bir uydurmadır...
Ölüm-dirim savaşıdır bu həyat..!” –
Belə sözlər ürəyimi qanadır...

Hesablaşma zamanımı, ya hisslərmi korşalıb?
yoxsa mənim təbiətim bu dünyaya
tərs düşür..?
Sözünə yad, özünəyad baxışlar,
ilan kimi qıvrılınca,
düz ürəyim üşüyür...

Mən qəlblərdə ülviyyəti gəzəndə,
qəlb yoxuydu yolum üstə çıxanda...
Tale məni aldadırdı yoxsa ki,
mən özümmü azmış idim zamanda?

Ruh quşum öz qəfəsində çırpınır,
hey çırpınıb, zamanını arayır...
Yüzilliyin arasında itmişəm
neynirəmsə, ürək dinclik tapmayır.

## UZAQ YOL

Yenə yollar... yenə, yenə həyəcan
düşüncələr dərin dəniz misalı...
bircə bilsəm qarşımızda nə durur,
bəlkə onda uzun yollar azalı...

Yol uzundu...
                    yollar boyu ağ toz var,
ancaq birdən bilinir ki, toz deyil;
bu qar imiş...
                    Ağ kədərdən keçirəm
ya keçdiyim nə toz, nə də, yol deyil?!.

Keçmişə aparan böyük körpüdə
ağ qarın üstundə qalın izim var –
İzlər ömür tariximi yazırlar...
Niyə dolmuş vərəqlərdə, bilmirəm,
səhvləri düzəltmək imkanı qalmır!?.

## PARLAQ ÜMİDLƏR

Şəcərə tarixi yazılmalıdır
əlyazmalar yurda qayıtmalıdır
Biz vətəncanlıyıq, biz tarixcanlı...
yeddi yerdən didilməsin
sabahın bayraqları...

Hələ üzəngilər paslanmayıbdır,
həyətdə kişnəyir qaçağan atlar...
Poladüz qılıncın cingiltisindən,
kim uyuquya dalar, söylə kim yatar?

Elə gün gələcək, düşmən bayrağı
əski parçası tək yandırılacaq..!
Damarda doğrular baturun qanı;
Tatar atlıları əlbət, qalxacaq!..

Döyüşçü tonqalı alovlananda,
Söylə, neylər bizə çölün küləyi?
Zülmətlər arxada qalacaq, əlbət,
Şəfəqin şüası – üfüq bəzəyi...

## DÜNYA YATIR
***Taktaşvari...***

Yenə də qar yağdı, yenə qış gəldi,
Ağır şaxta canı cəzalandırar.
Hələ şaxta külək ilə görüşsə,
Onlar məni astanada qarşılar...

Mən küçəyə çıxınca
                    çimdiklərlər üzümü,
“necə oynaqdı” deyə
                        zarafat da edərlər.
Düz evədək gülümsər ikisinin də üzü,
bir gün urcah olsalar,
                        çox da gec əl çəkərlər.

Boylanıb onlara pəncərələrdən,
Barmaq silkələdim ikisinə də.
Bax, əlim giyişir, tutsam onları
Bir yerdə çırparam, tutub tərsinə..!

Və yenə qar yağdı, yenə qış gəldi,
küçələrdə gül qoxudu küləklər...
Düz dünyanı şirin yuxu bürüyüb
və qar yorğan olub, torpağı örtər...

Gecə don başladı, hava əsnədi,
Ay da qıdıqladı gümüş qırovu...
Şaxta hünəriylə kənd gənclərini
Soyuq küçələrdən evlərə qovdu...

Yun əyirən qadınların mahnısı
Aynada dondurar soyuq havanı.
Külək köhnə dəyirmana söz atar,
Bəlkə çox görməyə gecə qalmağı...

Belə vaxtda
soba, bir də samovar –
qocaların ürəyini qızdırır.
Şaxtadan heyrətə düşən məstanlar,
evin dirəyinə qısılıb, yatır...

Yenə də qar yağdı, yenə qış gəldi,
Ağır şaxta canı cəzalandırar.
Hələ şaxta külək ilə görüşsə,
Onlar məni astanada qarşılar...

## AĞ ŞEİR

Yer üzünü ağ ümidlə geyindirərək
ağ qar yağır, apağ vədlər verərək.
Ağ vərəqdə ağ şeirlər yazıram,
bu ağlığa bürünməyə hazıram...

Öz ağ fikirlərmi bir də düşünüb,
bax, ağ canlar məni keçir deyirəm.
Qoy ağ güllər
Yer üzünə bəxtiyarlıq gətirsin
Bugün, ağlıq qarşısında baş əyirəm..!

***(Çevirəni*: Günel GÜN*)***

**GÜLNAZ ƏZİZ**OVA
**(Гөлназ Рамил кызы Газиз**ова
**(Bədərtdin**ova**))** –



*25 iyul 1991-ci ildə Tatarıstanın Çallı şəhərində doğulub. 2009-cu ildə 4 saylı Aznakay orta məktəbini bitirib, hələ XI sinifdə oxuyarkən, sağlam həyat tərzi mövzusunda bölgələrarası şeir yarışmasında I yerə çıxıb. Ali təhsilini İdarəçilik Universitetinin Hüquqşünaslıq fakultəsində alıb. Aznakayda yaşayır.*
*2010-cu ildən ART Teleradio şirkətində çalışıb, müəllif verlişlərinin redaktoru olub.*
*Hazırda, "Tatarıstan xəbərləri", "Yalkın" kimiburaxılışların əməkdaşı, "Bolqar" radiosunun Aznakay üzrə xüsusi müxbiri, Tatarıstan Jurnalistlər Birliyinin üzvüdür. "Oxuyan bülbüllər ölkəsi" XII Bölgələrarası şölənin (2009) II dərəcəli diplomunu alıb, habelə respublika səviyyəli (gənclə-rarası) başqa yarışmalarda öncül yerlər qazanıb.*

***

Bir taledi, bir dünyadı, bir ömür…
baxma ki, qəlbinə çınqı da düşmür,
mən səndən bir azca güclüyəm,
bəlkə.
Addım – keçilmiş yol,
külək – vaxt ölçür,
anlar saatlara qarışıb, keçir…
Mən səndən bir az çox dözürəm,
bəlkə...
Dözürəm ümidlə, tək bir ümidlə...
Günəş döğuşunu xəbər eləmə..!
Təkcə mən ha deyiləm
aldanışın cilvəsinə göz yuman
Çalışma ki, məni başa düşəsən,
anlamağa çalışmaynan sən məni,
sadəcə sev!.. sev, məni,
Yoruldum güclü olmaqdan…

***

Torpaq hənrini duymaq xoşdu,
                                        xoşdu, deyirlər;
Ən gözəl musiqi – çayın səsidir.
Küləyin mahnısı ürəyə dərman,
Bülbüldü kədəri yaxşı oxuyan...
Çıtır-çıtır yanan odun ocağı –
qəlbin rahatlığı, ruhun aclığı…
Meşə səsi ehtirasla doludur,
onu yüksəklikdə dinləmək xoşdur.
Gör necə də uğuldayır rüzgarlar,
qollarını geniş açıb… qucaqla;
yanağına düşən teli sığalla…
Nə dərindir, bilməzsiniz siz, bunu –
gecələrin sirlər dolu sükutu...
Ah..! bir an dayansa zaman axışı…
…Bilsən, necə də xoşdur
                                        yarıxulu
övladın
            qəlb atışını dinləmək...
Çöllərdə fırlanıb, əsdikcə külək,
uzaqdan dənizin səsi gələcək...
Alovları sayrışacaq ocağın,
Lakin mənsə duymayacam bunları;
Mənim üçün zaman durub, elə bil...
Vaxtın axışını hiss eləmirəm…
Sükut…
         Bəxtiyarlıq…
                           Bir az da, mürgü…
Körpə nəfəsinə tutunub, qaldım –
   dünyanın ən gözəl musiqisinə,
onsuz bu dünya nə, ya musiqi nə?..

***

Qanadımı pəncərəndə unutdum,
Bəlkə ona görə də,
artıq yuxularımda
uçub göyüzünə toxunammıram.
Qanadımı pəncərəndə unutmuşam,
nədənsə,
artıq qanadlarımda yatır dənə-dənə qar...
Qar oxşayar qanadımı,
lələyimi tumarlar...
Bu qar dənələrini seyr edirəm günlərlə;
Sanki göyün üzündə bir çuval deşilibdi
Və ağ qar dənələri bu çuvaldan səpilib,
səpilib qanadıma...
Daha məni səsləmə..!
nə gözlə, nə də darıx!..
Mən mələk olammadım..!
Taleyin dönüşünü
öncədən görə bilib,
qabaqlaya bilmədim.
Sanki qış olmamalı,
soyuq düşməməliydi… –
Təki taleyimiz uğur gətirsin…

Buzlu addımlarla gəldi soyuq qış,
Qarlar yerə deyil, qəlbimə yağdı...
Yer üzünə enmək nəyə yarayır?
kim Göyü nəyəsə dəyişər axı.?!
Amma Yer üzündə arzularım var,
həyat gözlər məni, istək haraylar…
Məni danlaq edən soyuqüzlü qış
Günlərin birində edər yır-yığış...
Qanadlarım isə pəncərəndədir…
Yer üzü necə də mənə bənzəyir…
Qanadını çıxarıb, evə, yola bərkidib...
Mən mələk olmadım, məni bağışla..!
Bu qarlı yerdən çıxıb,
                    taleyimə çatmaqçün,
yalnız bircə addıma heyim qala-qalmaya…

***

Əmican, sənin qızın səhvən ətək geyinib..!
Sənin qızın, əslində, oğlan olmalı imiş..! –
Qonşumuz yaşlı qadın belə derdi atama;
Əgər mən oğlanların “komandiri” olsaydım,
Yəqin ki, aşmadığım bağ divarı qalmazdı.
Uca ağaclardaca keçərdi uşaqlığım…
Göllərdə oynamaqla ötərdi günüm-ayım...
Mən evdə tək qalanda,
bir küncdəcə ağlardım.
Bir bax, o dəcəlliyim elə orda da qaldı...
Qəfil dəyişdi qəlbim…
deyirəm, uşaqlığım –
şəhərlə kənd arası,
sınıq-salxaq körpüdür –
Kilidlidir keçmişim...
Qarşıda uzun yol var..!
Amma niyə gizlədim, qəlbə istilik verir,
oğlanlara tay tutulmaq istəyi...

***

…Ən sərt, ən şirin acı
şərab tək sərxoş edər.
Nisgili dərviş kimi
kilidlənib dodağım –
kristal qazamatda…
Səhərə nifrət edir
gecənin xoşbəxtliyi;
İki tağdır göyüzü –
bizim ikimiz üçün.
Düz üfüq xəttinədək
gedib dirənən yollar,
tale qanadındadır…

***

Aynabəndaltı…
Ulduzlu axşam…
Soluxmuş sifət...
Gedimli bir yol…
Sürüşgən cığır…
Qarışıq izlər…
Yaş dolu gözlər…
Közərən hisslər... –
Bir nakam sevgini
        anladır hamısı…

***(Çevirəni:* Ülkər PİRİ *(*DƏNİZ*))***



# GÜLNAZ VƏLİYEVA

**(Гөлназ Мөдәррис кызы Вәлиева) –**



*25 avqust 1983-cü ildə Kazanda doğulub. KFU-nu bitirib; filologiya üzrə fəlsəfə doktorudur. Şeirləri hələ 17 yaşından dövri nəşrlərdə yer alır. İlk şeirlər kitabı 2005-ci ildə çıxıb. Tatarıstan Yazıçılar Birliyinin üzvüdür. 2009-cu ildə Londonda "Tatar Phrasebook" (Nikolas Oud ilə birgə) adlı elmi kitabı çıxıb. Hazırda Almaniyada yaşayır.*

(Gənc yazar özünü belə tanıdır: *"Mən şeir yazmağa hələ yazı yazmağı bacarmazdan öncə başlamışam. Yəqin, mənim kitab və sözlə sıx bağlı olan ailədə doğulmağım buna öz təsirini göstərmişdir (Atam - şair, tənqidçi və naşir, onun dayısı şair)... Həmçinin mən Yazıçılar Evində böyümüşəm; evimizdə daim yaradıcılıq haqqında söhbətlər gedir, qonaqlarımız klassik tatar ədəbiyyatından örnəklər oxuyur, ədəbi nəşrləri müzakirə edirdi. Odur ki, mənim şeirə bağlılığım təbii idi.*

*...Atamla anam həm fərqli, həm bir-birini tamamlayan insanlardı, – biri Tatarıstanın güneyində, o biri quzeyində doğulub. Bürclərə görə, biri göy, digəri torpaqdır... Anam mənə ruh verirdi, atam isə... mənim peşəkar ədəbi tənqidçim idi. O səbəbdən, mən bu gün də öz yazılarımı diqqətlə seçirəm. ...Həyat boyu gələcək nəsillərin fəxr edəcəyi yalnız bir şeirlə (və ya romanla) xatırlanmaq, öz adını təsadüfi, uğursuz nəşrlərlə biabır etməkdən yaxşıdır.*

*Əgər sevgidən danışsaq, deməliyəm ki, mənim həyat yoldaşım Danisa olan sevgim 8 il öncə mənə, birdəfəlik Almaniyaya köçmək kimi (-o artıq bir neçə il idi orada yaşayırdı) sorumlu bir addım atmağa imkan verdi; ancaq mənim heç vaxt mühacir olmaq fikrim olmayıb, hətta mən digərlərini də bu yoldan çəkindirmişəm, bununla belə həyat daim məni ora-bura, öz evimdən uzaqlara atıb. Kazandan uzaqda yaşasam da, doğma vətənimdəki olaylara biganə deyiləm.*

*Mənim digər sevincim, bizim övladlarımız Bulat və Amelia ilə bağlıdır. Onlar bugün mənim əsas yaradıcılıq qaynağımdır.")*

## KAZAN QIZI

Deyirsən, “ulduzlar eşqlə parlayır –
bizim kəndimizin göyü başqadır”.
Sən də yay gecəsi görəydin keşkə, –
Kazan küçələri necə qaynayır...
küçələr sevgiyə boyanıb qalır...

Söylə, soyuyan daşlar,
  qızınmaq istəyiylə
      iç-içə sıxlaşanda,
  çimirdinmi ulduzun
  eşq dolu yağışında?
Bal ətrinə bələnibdi havası,
cavan cökələrdən zövq alır küçə...
Bu küçədə gəzmisənmi sübhədək –
söylə,
          yar adını sən çəkə-çəkə..?

Sübh bülbülü oxuyanda diksinib,
çaşmısanmı danışdığın sözləri?..
Yoxsa, sənə tanış deyil bu hisslər,
Oxunmamış mahnıdımı,
                          edilməmiş arzumu? –
Mənim Kazanımın mavi gecəsi..?

Mavi gecə... parlaq ulduz... gen küçə... –
nə gizlədim, utanıram...
                          sən əlimdən tutunca... –
Elə bilki “təmkinli ol!” deyirlər
yalnız bizə
                     baxıb duran ulduzlar...

İşıq seli ulduzları udammaz,
gözlərimiz qamaşsa da şəhərdə...
Göyə baxsan, gözün məni unutmaz,
Hərgün məni xatırlarsan kəndində...

“Ulduz parıltısı oynar gözündə” –
belə demə..!  - göz yaşıdı... göz yaşı..!
Amma sənə bir söz deyim, qoy hələ:
öz kəndinə, öz evinə dönüncə,
hər ulduza bir qız adı söyləmə..!
ulduzumu qaralasan,
adıma
ad gətirsən,
bir də girmə yuxuma..!

***

Yaz yağışı –
Beşikdə uzanmış uşağın gülüşü...
Yay yağışı –
Sürünün çöldən dönüşü...
Süd buxarının qoxusu...
Payız yağışı –
Səndən sonra hansı iz qalar?
Payızlıq çovdar,
yaşıl, sarı yarpağı ovundurur:
“Payız yağışı –
Xoş müjdədir –
Bu yaz ılıq gələcək...”

## AYSIZ GECƏ

Ayı qara duman udub,
ulduzları da...
Dəcəl itlər sakitləşib:
qara bulud
“ova çıxıb”...
Qara-qara kölgələr
pəncərəyə sürünür:
“Mənəm bu gecənin sahibi!” deyib,
barmaq da silkələyir...

Onun qara gözləri qorxuncdu,
Hələ qapqara ağzı..!
Mənsə cavab vermədim,
Durub bir şam yandırdım.

## QU GÖLÜNDƏ MEŞƏ

Boylu boylu sünbüllər
qalxıb toxunur sanki
göy üzündə buluda...
Dolu dolu buldular,
əlim çatsa, sıxardım
sizi bu sünbüllüyə...

Hələ, bir də boylanır,
                    ağappaq tozağacı..! –
Qəlbim dalğa-dalğa mahnıyla dolur –
ağ qələm qəlbimə yazır elə bil...
içim-dışım aydınlanır. –
Ah! diləyim çin olsa,
çimsəm tozağacı "gölü"ndə bir gün...

## GÜNƏŞ

Hisslərimin tufanları qopanda,
bir geniş yol səsləyəcək hey səni...
O vaxt, ana kölgəsində saxlanmış,
(bir ucu ananın ruhuna bağlı)
"xilas ipliyi"nin ucundan yapış..!

Həyat yollarında çaş-baş qalanda,
aydın yola səni nə çıxaracaq? –
Nənən toxuduğu sehirli xalça..! –
xəyal göylərində gerçək olacaq...

Bu xalçanın ancaq küncü tapdanır,
görsən xəyalların hələ çin olmur,
Öz əlini göz yaşlarına gömmə..! –
bir əl dəsmalı toxu...
ağ tikişli ağ dəsmal
səni xoşbəxtliyə aparar yəqin...

## YAY TRİPTİXİ

### MEŞƏ BOYUNCA GİLƏMEYVƏ

Otların arasında
                    çəkinir, gülür, -
Görülmək istəyir,
                    dərilmək deyil...
Dodaqlarda bal dadır,
Gözlərdəsə acı yaş...
İzləyir yavaş-yavaş
Gənc qız giləmeyvəni...

### BİÇƏNƏK VAXTI

Otlar qəzəblidir biçilməyindən,
Kəndçi gənclər kərəntini itilər...
Hətta sisəylər bu gün
Soba həndəvərində -
        yavaş-yavaş cikkildər...

### BİÇİN

Mənə elə gəlir ki, mələkləri görərəm –
göylər elə aydındır..!
Yarpaqlar istidən tərləyir sanki...
Çölün tozanağında
Hisslərim şahə qalxıb... –
Pöhrə sünbül qoxusu
dörd tərəfə yayılıb...

Bir də, isti sobada
Bişən çörək qoxusu..!
Bir çörəkçi kürəyiyəm
elə bil...
Bütün doğma hisslərim
bu gün bayram eləyir...

**(Çevirəni: Turan TEYMUR)**

## İLHAM

Gecə yarı... Kazan yatıb,
qar yorğanı yeri örtür.
Düşüncəmlə toqquşan,
qələmim əldən düşür...

Fikirlər qarışıqdı –
vərəqlərə baxıram:
Sanki dualarımı
ağ xalçaya "yazıram"...

nəbzim ahəstə vurur
hər vuruşu sayıram...
Bu an... saat zəng çalır..! –
mən barmaq qıjayıram:

Deyirəm, "Bax,
ilham mələyimi
qaçırdacaqsan"..!
...qoy qara gecədən
şeirlə çıxaq...

## QU GÖLÜNDƏ YAĞIŞ

**1.**

Narın-narın yağış yağır
dərin-dərin doyur göllər...
Sünbül-sünbül qoxu dolur
Künc-bucağa, gizlinlərə...
"Hamam günü"dü elə bil
Qalın-qalın meşələrdə...
Çox isti olmasa da...

**2**

...Hərdən elə duyuram,
bakirədi bu dünya –
lap indicə yaranıb.
Gözəldi hər yan, hər şey... –
və mən bu gözəlliyi
ilk dəfədi görürəm...
mən bu gün də elə bil,
bir dişsizcə körpəyəm...

***(Çevirəni:* Ə.QOŞALI*)***



**GÜLNUR QURBANOVA**
**(Гөлнур Равил кызы Корбанова)** –



*1979-cu ildə Tatarıstanın Aktanış rayonunun Puçı kəndində doğulub. Kazan Dövlət Universitetininin Tatar filologiyası, Tarixi ve Doğu dilləri fakultəsini bitirib.*
*Dövri mətbuatda tez-tez məqalələrlə çıxış edir. "Uyemnın quyını" ("Fikirlərimin qoynu", 2006),"Utlı yeşenlerqe kaqılsan" ("Odlu ildırıma toxunsan", 2007) adlı ədəbi kitabların müəllifidir.*
*Gülnur əsasən uşaqlar üçün yazır. 2012-ci ildə şeirlər toplusu və "Ayu bulu kıenmı?" ("Ayı olmaq çətindirmi?") adlı tapmacalar toplusu işıq üzü görüb. "Tayan Allaqa" ("Allaha güvən", 2012) ədəbi yarışmasının qalibi, "İpək Yolunda şairlərin görüşü" adlı uluslararası şeir şöləninin laureatıdır (Türkiyə, 2013).*
*O, həmçinin bir çox mahnının da müəllifidir.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## GECİKMƏ..!

***1.***

Bir kənd qırağında bir ev var, bir ev...
Günləri qış bilməz, yay tanımazlar...
O evdə bir ana oğul gözləyir,
elə gözləyir ki, çırağı sönmür...
Onun sinəsində ocaq qalanıb,
inamla doludu yanar ürəyi,
deyir, bir azca gec, bir az tez olar,
ancaq,
        bilirəm ki, o qayıdacaq! –
Öz-özüylə danışmaqdan doymayır:
"Sən toparlan, var gücünlə çıx, oğlum,
fəlakətnən mübarizən mübarək!
Bax, əziz evladım, çox da gecikmə,
Heç nə Ay altında əbədi deyil,
əbədi həyatdır, başqa nə deyim..?
Sağsağan səsləndi, dedi, anacan,
oğlun qayıdacaq, fərəhdən düşmə!..
Dərd ağır olsa da, ürək istidir...
Oğlunun gəlişi agah olacaq"...

"Biraz ömür istəyirəm Tanrıdan,
Yoruldu gözləyən ürək, yoruldu"...
Sürür onun tənhalığı hələ də,
sürür onun yer həyatı hələ də...
Yada salır cavanlığnı bir ana,
yada salır, ağlayır:
"qızdırma içində, beşik yanında,
onun əskilərini dəyişmək lazım".
amma qalxa bilmir,

qızdırma qoymur,
Su düşünür,
uşaq yalnız
"Su!" deyir,
bu fikir hər şeyin üstündən keçir,
özünü sımsıcaq köksünə sıxır...
Paltarını qurutmaq,
yemək və qızınmaqçün,
yada salır bir ana, oğlunu, ağlayaraq...

***2.***

...sağsağan xəbər gətirdi…
Gəldi ulduzlu qaranlıq...
Ay da boylandı aynadan,
İllərin dostu tək ərki göründü...

Qapı tıqqıldadı – kimdi görəsən? –
Avara küləkmi azıb yolunu?
Aynabənd önünə keçəndə ana,
Yarıyumuluydu gözləri hələ.
O fikir eylədi, baxıb-boylandı,
Qaranlıqda gözü alacalandı...
ona elə gəldi, oğlunu görür,
özcə kölgəsindən hissə qapıldı:
"Oğlum! Qayıtmısan!
Bircə saniyə dur, qapını açım,
qəbir qırağında gün sayırdım mən,
sənin bu gəlişin diriltdi məni..!
Bəs niyə susursan, ağıllı balam?!"
Ana əl atdı ki, qucsun kölgəni,
gecənin soyuğu vurdu üzünə...
Külək güclü dişlərini qıcadı,
Aysa bulud arxasına çəkildi...
Və bir azdan kəndə səs-səda düşdü:

Orda – filan evin kandarındaca
əli uzanıqlı bir cəsəd yatır…
Torpağı da üzü kimi soyuqdu...

“Anan öldü..!
Sən onun
son
nəfəsinə yetmədin...
Heç olmazsa,
torpağa
özün tapşır,
Gözlərinə torpaq tök,
əlinin hərarəti,
torpağın sərinliyi
ürəyinə yayılsın”...

**(*Çevirəni:* Lamiyə İSAZADƏ)**

## YALQIZ ALMA

Budaqda son alma,
Torpaqda ilk qar...
Nəyi gözləyir o,
Düşməyə nə var?..

Düşməyə yermi yoxdu?..
Yumşaq qarla örütülüb,
qara torpaq görünmür...
İndi necə asandı,
Ağ qar üstə atılmaq...
Yoxsa, qorxurmu alma,
Qar üstdə buzlamaqdan..?

Bəlkə də, düşünür ki,
budaqda qurumaq
daha yaxşıdır,
ayaq altda qalmaqdan..!

***

İncəlidik qu quşu kimi,
saraldı gözünün dibi...
Taleyimə minnətdaram
qovuşdurdu axır bizi.

Bilirəm, qu quşu uçar,
onu qəfəsə sal, qalsın.
Payız soyuğu düşəndə...
qəfəsimiz qəlbin olsun...

**GECƏ**

Günəş alma kimi qopub, ayrıldı,
Özünün özündən doğma göyündən...

**SƏHƏR**

Günəş yenə al qaranlıqdan çıxıb,
Zərrin şəfəqini saçdı – min şükür..!

**GÜN**

Sakit, aram-aram axır, dayanmır
Vaxt
öz qanunundan çıxmır heç zaman...

**AXŞAM**

Ruh da yorulanda, ev-eşik gəzir,
Can bəzən qəbirtək çəkir yatağı...

**HƏQİQƏT**

Gecələr, gündüzlər və günlər birgə
ilahi uyğunluq içində dönür...

***

Yad diyarlar – yad deyil
(Bağışla məni, doğma diyar)
Orda Ay nurludur, Günəş şəfəqli,
o nurdan, şəfəqdən hamıya pay var...

Adəm və Həvvadan gəlmirmi nəslin? –
Mənim də köklərim ordan su içib...
Budur, yeni tablom "Dəniz" adlanır,
O şəklə, elə bil, ürəyim çöküb...

Öz yurdumda dəniz... Dağ ardında dağ...
Ah, necə gözəldir saf dağ havası..!
Mənim xalqım qürurludur binədən,
Hər yanda toxumu cücərir, şükür!..

Mən necə deyim ki, dünya yadlaşıb,
Bax, budur məscidin Aylı günbəzi..!
Azan eşidirəm, dua duyuram
İlahinin nuru axır qəlbimə...

Başqa tərəf... söylə, başqa yadlıqmı?
Həyatda yad yoxdur, özgə yoxdur heç..!
Bəs niyə, bəs niyə, bilmirəm düzü,
Vətənin həsrəti bunca çətindir?..

**(*Çevirəni:* İntiqam YAŞAR)**



## **İLMİRA KAMA**YEVA

**(Илмира Фәнис кызы Кама**ева**)** –



*28 aprel 1992-cı ildə Tatarıstan Respublikasının Aznakay elində doğulub. Orta məktəbi gümüş medalla bitirib.*
*Məktəb illərində müxtəlif ədəbi yarışmalarda, fənn olimpiadalarında iştirak edərək, ödüllər qazanıb.*
*Ali təhsilini Kazan Federal Universitetinin Tatar ədəbiyyatı və Tarixi fakültəsində alıb.*
*Səcidə Süleymanova adına Ədəbi Ödülün təqaüdçüsü olub (2013-2014).*
*Şeirləri respublika dövri nəşrlərində davamlı olaraq yayınlanır.*

## TALEYİN HƏDİYYƏSİ

Yenə görüşdük sənlə, -
Ruhum havalandı, ürəyim əsdi...
Əllərin çiynimə toxundu yenə,
Ah!..
        bu anlıq toxunuş
bir ömrü qurban istər...
Sənin qəfil gəlişin
ömrümə ömür qatdı –
tale hədiyyəmsən sən..!
Uzun həyat yolunda
odum, suyum ol mənim..!
İstərəm,
ömür boyu
yalnız səninlə olum.
Məni yalnız buraxma!..

## SƏNSİZ

Çalışıram gözlərini unudum,
gülüşünü yaddaşımdan silirəm.
Mən öz ürəyimi, hər gecə, hər gün,
Sənin ucbatından viran edirəm...

Qoy yaralanmasın ürəyim artıq,
Bir daha yenidən sevən deyiləm.
Xatirə dolusu kövrək qəlbimi,
Elə yer varmı ki, gizlədə biləm?..

## GƏL

Yağış pəncərəni döydüyü zaman
buludlar öpürdü Günəşi,
gördüm...
Çiçəklənən mavi zınqırovotu,
səhər küləyindən nəvaziş gördü...
Sən də, insafa gəl,
gəl,
küləklər sovuranda qəlbimi...
barı bircə dəfə gəl...

Təbiətin neçə gözəl anı var;
İnanıram,
baharda
ilk yağışlar yağanda,
bütün nəğməkar quşlar
bir-biriylə
“danışır”...
Payız gecəsinin öz gözəlliyi,
Öz gözəlliyi var yaz gecəsinin...
Yağışlar çətiri öpdüyü zaman
gəl, isti baharla
bircə dəfə gəl...
gəl,
isti-isti...

## GETMƏ

Pəncərəmdə külək qarı sovurur,
rəsmini çəkirəm soyuq şüşədə.
Nəfəsim istidir,
duyğularım tək...
Lakin özüm tuturam
özümü suallara:
Bəs birdən buz əriyib
sürətlə yox olarsa?!. –

Ah, necə sadəydi
tanışlığımız –
elə bil olmalı bir işdi,
oldu..!
Ürəyi sevgi sarıb...
Yol boyusa ağappaq
güllər-çiçəklər açıb...
Nə yaxşı ki,
səni buldum, nə yaxşı..!
Gördüm... Güvəndim...
Sevdim... Sevindim..!
amandı, getmə,
heç zaman getmə!..

## MƏNİM ARZUM

Can atır insanlar,
işığa, işığa,
Ürək arzulara tutunub durur...
Hər səhər qəlbimdən qalxır arzular,
Günəş hər gün
mənim qəlbimdən doğur...

Deyirəm, başqa cür yaşayaq, eşqim,
ağ qar kimi ələn ömrüm üstünə...
Ömür kitabının vərəqlərini
birlikdə çevirək,
bahar fəslinə...

Sonra,
daş ürəklərdə
sevgidən tonqal çataq
tonqal çataq baharda...

Ah,arzular, arzular..!
Salxım söyüdlərin
tumurcuqları
Yaşıl gözlər kimi qalar yadımda...

***(Çevirəni:* Rəsmiyyə SABİR*)***



## LENAR ŞEYX
## (Lenar Minnemohim oğlu Şeyx;
## (Ленар Миңнемөһим улы Шәехов) –



*4 oktyabr 1982-ci ildə Tatarıstanın Aktanış elinin Taktalaçık kəndində doğulub. 1999-2002-ci illərdə Menzelin Pedaqoji Kollecində, 2002-2007-ci illərdə Kazan Dövlət Universite-tinin Tatar filologiyası və Tarixi fakültəsində təhsil alıb.*

*Universitet illərində "Əllüki" Ədəbi-bədii yaradıcılıq dərnəyinin başçısı olub, tatar tələbələrinin "Tərəzə" ("Pəncərə") qəzetini təsis edib (və onun redaktoru olub). Eyni zamanda "Şəhri Kazan" (2004-2005), "Tatarıstan gəncləri" (2005-2007) kimi respublika qəzetlərində çalışıb.*

*L.Şeyx "Avıldan kilqən mendə" ("Kənddən gələn balış", 2005), "Kerpe niçek enələ bulqan?" ("Kirpi necə tikanlı oldu?", 2007) "Beznen işelqaldında" ("Bizim həyətdə", 2010; 2012) , "Aldamıym" ("Aldatmıram", 2014) adlı uşaq şeir toplularının müəllifidir. "Dürtençe kat... Bişençe kat..." ("Dördüncü qat... Beşinci qat", 2008), "Jılıtası kilə dönyanı" ("Dünyanı isitmək istəyirəm", 2011) kitablarına onun lirik, fəlsəfi və yumoristik şeirləri daxil edilib.*

*2007-ci idən etibarən L.Şeyx, Tatarıstan Kitab Nəşriyyatı Uşaq-gənclər redaksiyasının redaktoru, 2008-ci ildən isə baş redaktorudur. Filologiya üzrə fəlsəfə doktoru (2012), Tatarıstanın Musa Cəlil adına respublika təqaüdünün laureatıdır.*

*L.Şeyx 2007-ci ildən Tatarıstan Yazıçılar Birliyinin, 2012-ci ildən isə həmin Birliyin yönətim kurulunun üzvüdür.*

***

Mən hələ donuram, girsək də yaya,
ruhuma istilik tapa bilmirəm.
Əlimi Günəşə uzadıram gah,
gah da kibritlərdən qopa bilmirəm.

Elə soyuqdur ki, bilmirəm nədir,
qışmı yaya dönüb, yoxsa, yay qışa?
Bəlkə sevgisizlik dondurur məni,
mən addım atmışam yoxsa yanlışa?..

Bir ılıq havayçün gəldim dünyaya,
ya Tanrı, bu dünya niyə isinmir?..
Onsuz da soyuqdur,
                                        od yoxluğuna,
Bədənimdən qabaq ürək isinmir...

***

Görən, yandıraqmı, qızışdıraqmı? –
qoy qızınsın dünya, isinsin ömür...
Əgər həyat üzümüzə gülməsə,
Yanar ürəyim var, üzülmə, ömrüm...

Sevgini özüm də verə bilərəm,
götürün, aparın, bəs olan qədər...
Almayın siz onu pul-para kimi,
yazın ruhunuza, getməsin hədər...

Mən özüm od-ocaq çata bilərəm,
kimsə gözləməkdən qoy yorulmasın.
Bir yarpaq ömrü tək qısasa həyat,
Bir alov yolunda hədər olmasın...

Bir yarpaq ömrü tək qısasa həyat,
küləklərdə sovrulmasın alovu...
Mən də tamarzıyam yay şəfəqinə,
ruhum atəşlidir, ürəyim odlu,
kibrit qutusuna sığarmı Günəş..?

Həyat yarpaq kimi
                    düşməsin yerə,
qopsa budağından qoy göyə qalxsın...
Qoy, atəş ötürüm, bir əlçim atəş,
yorğunluq azalsın, ümid çoxalsın...

Həyat soluxmasın yarpaqlar kimi,
mən ki, inanıram... duyuram onu...
Bir də soyumasın deyibən, təki,
isitməyim gəlir bütün acunu...

## QIRMIZI ALMA

Qızıl alma əllərində,
qaynar Günəş şəklində...
Bu almanı mənə verdin,
ürək şaşdı əlindən...

Yanaqların alma kimi –
allanmış və yetişmiş...
Ruhuna bahar gəlib,
donmuş simlər tutuşmuş...

Gülümsərsən, gülərsən,
Sən yazın özü kimi.
Qızıl alman, sirli alman
Könlünün gözü kimi...

Əllərində qızıl alma,
sanki yanan ürəkdir...
Sənin xoşbəxtliyinçün
mənim qəlbim gərəkdir.

## SƏNSİZ GECƏLƏR

Sevgiyə və naza susamış canım,
soluxub, qaysıyıb, ərpimiş idi...
Hərarətin bədənimi, elə bil,
qalın yorğan kimi bürümüş idi.

Sənsiz ötən aylı-aysız gecələr,
yumşaq saqqız kimi uzanıb gedir...
Pəncərəm önündə sığallı duran
ağcaqayınlar da mənə əl edir...

Səni gözlədiymi anlatmaq üçün
kağızlar bitsə də, söz bitməz, əlbət.
Xəyalım sıxılır,
 içim çəkilir, –
hardasa bir şamı söndürə bilər...

Hıçqırmaq... dağıtmaq...
 qovmaq, qovulmaq... –
zaman yumaq-yumaq axır ağ yolla...
Dərin bir sükutu pozmağına bax
milçək qonaq olub bir dar otağa...

Yay ayı əriyib, damır elə bil...
başqadı yağmurdan sonrakı isti...
Üfüq cizgisini yaranda Günəş,
öncə aşiqlərə "günaydın!" dedi...

Yaxşı ki, sevginə bürünmüşəm mən,
Qışda isti saxlar, yaydasa sərin...

## SEVİRƏM..!

Çöldə dümağ qar yağır,
dümağ qarı sevirəm...
Qanadlanıb, uçuram,
sevirəm, barı sevirəm..!

Gümüş qar sovrulur
uzun yollara,
üzürəm qar dənizində
üzürəm...
Əylənirəm, əylənirəm,
tar-rar-tam,
Sevirəm, sevirəm, sevirəm...

Çöldə ağ yığval yağır,
qar içində sovrullam...
Mən xoşbəxtəm, tar-rar-tam,
Sevirəm, sevirəm, sevirəm..!

## SƏNƏ YAZILAN ŞEİRLƏR...

Hər gün şeir yazardım ki,
məktub kimi oxuyasan...
Anlamırsan, mənim üçün
sehr dolu bulmacasan...

Gözlərindən sirr yağır,
sənin qəlbin sirdir, sirr...
Fikrimdən adın damır,
doymağım mümkün deyil...

Bəs sən? – düşündünmü heç,
düşündünmü durmadan?
Susmaq da yara açır, -
heç yerimə vurmadan...

***

Mən şeirlə düşünürəm,
şeir olur nə desəm...
Neydə, qəmdə yanmazdım,
əgər səni sevməsəm...

Ruhumu aç,
                istəsən,
qəlbimi aç
                taybatay;
Ordadır ikimizçün
ortaq Günəş, ortaq Ay...

Bu şeiri sənə yazdım,
bağışladım tək sənə.
Göy üzündə ulduz tək
tapmacasan sən mənə...

***

İlkbahar..! – Ruhuma ilkbahar gəldi,
çoxdan – doğulduğum günün başında...
İllər qanad taxıb yeyin keçsə də,
mən hələ qalmışam ilkbaharımda...

Kədər yuva saldı, kədər... könlümdə
ılıq yağmur üz-gözümü yuyandan...
Qızıl vaxtım dönüb nəğməyə, getdi,
mən heç cür ayrıla bilmirəm ondan...

Könlümdə bir səda yayıldı,
keçdi,
göy zəngiçiçəyi ormanlığından...
Həyat bir sədayla uçub getsə də,
ayrıla bilmirəm mən heç cür ondan...

*Taxt qurdunuz könlümdə -*
*kədər, səda, ilkbahar...*
*Ayrıla bilməyirəm,*
*qəlbim sizinlə vurar...*

***

Bu gün gül-gülüstansan,
çiçək açıb üz-gözün...
Toy libasın nə gözəl,
Sən beləmi doğuldun..?

Ağ gəlinlik ağ gündür,
Ağ olsun günün, üzün!
Səndə ata-ananın
Ümidlə dolu gözü.

Elə bil, Günəş çıxır
gülümsəyən üzündən.
Ulduz-ulduz hər yerə
nur çilənir gözündən.

Ağappaq gəlinliyin
ləkə nədir görməsin...
O qədər sevinsin ki,
Könlün "xoşbəxtəm" –
desin!..

***

Leysan,
yağış damcıları
pəncərəni öpürmü?
Göy üzündən ələnən su,
Damı-daşı döyürmü?
Ah, palıd koğuşunda
qurduğumuz evciyi
yol azmış sular yuyur...
daha danışım nəyi..?

***

Dünya olanağından,
Səni qaçırmam gərək.
Qucaq-qucaq şeirdə
Səni uçurmam gərək.
Sənə, mənə -
ikimizə
Xoşbəxt Yer qurmam
gərək...

***

“Bircə şeir yazmırsan” –
deyib, öfkələnmisən.
Könlümdə sarı simə
Vuran, bilirəm, sənsən.

Gözlərin yaşla dolu,
gözlərin yalnız ada...
Duyğular baxışımın
yaxasından tutmada...

Duyğu tutsa yaxadan,
yüyənsiz at kimidir...
Ürəyi qəmə salan
sevgi, horyat kimidir.

Duyğu – selləmə yağış,
ya da fırtına, külək...
O bir baş qaldırdısa,
önündə duran gərək...

Hamısı sevgidəndir
ölçüsü, sınırı yox...
Yanımda olduğun an,
duyğular çoxalır, çox...

Onlar susacaq bəlkə,
zamanı deyil yəqin...
Mənsə duyğuya açdım
yelkənini sevgimin...

**(*Çevirəni:* Könül Aydın Nehmət)**

## NECƏ DİRİ QALMALI?..
### (TUKAYı düşünərkən...)

Qar üstündə ayaq izim yalnızdı,
üzümə bir qapı açılarmı ola..?
Bir kimsə yoxdumu məni eşidə?
könlümə bir işıq saçılarmı ola..?

Mən görən qapılar niyə bağlıdır? –
bu ürək ki sevgi ilə doludur..?
Mən donmadan, ürəyiniz donmasın..! –
göy bulanır, qar ələnir, yer donur...

Şaxta iliyimə işləyir artıq,
indi nə ölüyəm, nə də diriyəm...
Gözlərimdən axan yaşlar da donuq,
gərək buza dönsəm yenə yürüyəm...

Qar soyuğu isti cana tələsir,
Ürəyimə... ürəyimə yol alır...
Soyuqla mən deyil, qəlbim savaşır,
Dərində bir azca atəşi qalır...

Açın qapıları, zalım adamlar,
sevgi dolu ürəyimi götürün..!
Ayağım keyiyər, çənəm qıc olar,
Son gücümü gələcəyə ötürün..!

...Polad barmaqlıqlar varsa qapıda,
Qorxuludur, şübhəlidir, ağırdır...
Kim necə sağ qalsın, kim necə burda? –
Quzey qütbü
derlər –
hər yer buz-qardır...

**(*Çevirəni:* Ə.QOŞALI)**

**LENİZA VƏLİ**YEVA
**(Лениза Газинур кызы Вәли**ева**) –**



*1986-cı ildə Tatarıstanın Aznakay şəhərində doğulub.*
*Alabuğa Dövlət Pedaqoji Universitetinin Tatar dili və filologiyası fakültəsini bitirib. 2012-ci ildə filologiya üzrə dissertasiya müdafiə edib.*
*Tatarıstan Ədəbiyyat və İncəsənət İnstitutunda çalışır. Lenizanın şeirləri Tatarıstanın ədəbiyyat dərgilərində, almanaxlarda çap olunur. Gənc tatar sairlərinin "İdelem aqçarlağı" ("İdil qağayısı") yarışmasında ödülə layiq görülüb (2011, 2012). Müəllifin "Ulduzlar dənizdə çimir" (2008) və "Həyat göylərdədi" (2015) adlı şeir kitabları işıq üzü görüb.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## YÜKLƏNMİŞ ATLARA YAZIĞIM GƏLIR

Çox yüklənmiş ata yazığım gəlir,
yük altda şıltaqlıq çətindir ona.
Baxıram, beşikdə yatan körpəyə,
deyirəm, uşaqlıq çapdı uzağa...

Hər şey gedir... yol bağlıdır geriyə,
qəlbdə təlatüm də bir iztirabdır...
"Saxla!" – var qüvvəylə döyünür ürək,
ağılsa məsləhət verir: - Sakitləş..!

Səni baxışımla yola salıram –
ürək əzab çəksin içimdə, neynim..?
Zaman yetişdisə, dayanma, var get,
arxanca su atım, "yaxşı yol" deyim..!

**(*Çevirəni*: Elxan YURDOĞLU)**

***

***Əsər yellər, uçar qumlar... itər iz...***
***Səbr et, könül, bir gün çatar növbəmiz!***
**Dərdimənd**

Dağlar yerindən oynar, qumlardan da itər iz,
Nə varsa ötəsidir, belə... – mübahisəsiz.
Amma yüzillər adlar, şairin dediyi söz,
Şairlərin ruhudur – gələcəyə baxan göz...

Erkən duyar dərdi dünya, qəmi gün,
bilər hansı küləkdir ölkəyə qəm daşıyan...
Zaman başqa, yalan başda... –
Bu gün də,
ağıl susur, zor özüdür "danışan"...

Hər vaxtkı tək... sonda yetər həqiqət,
Qum axar, qum axar, örtər hər izi...
Kökün dərindəsə, usanma, ruhum,
Nə silər tarixdən su içən sözü?..

**(*Çevirəni*: Şahməmməd DAĞLAROĞLU)**

***

Axır əsrlər boyu, sahilləri yuyaraq,
İdil əsrlərdir axır burada...
Sinəsini qayalara çırparaq,
Coşub-daşır...
zaman keçir, şair yenə tonqal çatır sahildə.
Qalın illər arasından axır çay...
Qoy, ölüm çələngi qurulsun,
                                        həyat,
yalnız
  şair başını aşağıya salmasın..!
İlham atı darlıqdadır,
              şeirsiz gün gün deyil...
Şairin silahı inci sözüdür,
Türkülü dillərin sorağı
həyat...
Özünəinamlı, sərtüzlü həyat...
O əziz sözlərlə doğrula bilir.
Şeirlərin ahəngi
İdilin əbədi ritminə uysun...
Şöhrətli, qarmaşıq dəlixanamı? –
Nə qamçı, nə kötək
                    sözdən eyləyər...
Sinəsi qalxandır –
                          zamanqırandır...
Şahlar unudular,
                          İdilsə axar...
Sahildə ocaq yanır.
Ocaq yanır sahildə...

***

Qürub...
            Alovlar içində
bir tənha kölgə...
Sonuncu şamdana
              bir şam taxacam,
lakin o şam ümidləri közərtməz...
Sağ əlim qələmə doğru uzanır,
sətirlər burxulur, vərəq sürüşür...
Bir də, rəng çatışmır sonuncu rəsmə...
Göydə bir quyruqlu ulduz görünür,
yerdə mənim qəlbim çırpınıb-durur...
Ahəng axtarıram – fırça darıxır...
Mən şəkil çəkirəm, şeir alınır...
Rəngmi sözə dönür, sözmü boyanır..?
Şam da elə bil ki, son kəz titrəyir,
Sevdalı ürəklər qanadlanırlar...
Bu da son:
               Qürubda bir tənha kölgə...

***(Çevirəni*: Lamiyə İSAZADƏ*)***



**LEYSAN FƏTHƏTDİNOVA**
**(Ләйсән Илдар кызы Солтанова (Фәтхетдинова)) –**



*- 1990-cı ildə Tatarıstanın Balıq Bistəse rayonunun Kutlu Bökəş kəndində doğulub.*
*Tatar Kitab Nəşriyyatı tərəfindən gənc yazıçı və şairlərin kitablarının nəşri proqramı çərçivəsində müəllifin "Yaşayan sükut" şeirlər toplusu çap olunub.*
*Gənc yazarların respublika yarışmasının qalibi ("İdelem akçarlığı" (Qranpri, 2008) olub, 2009-cu ildə isə Səcidə Süleymanova adına təqaüdə layiq görülüb.*
*Kazan Dövlət Unversitetinin Jurnalistika fakultəsinin məzunudur. Hazırda "Kazan odları" ("Kazan utları") dərgisində redaktordur.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## HAVAYI

Havayı xoş gün olmur, –
hər uğur bədəl istər...
Get, – tutub öz yolunu;
var hər anın faydası,
Hər sözün öz boyası...

Havayı pul verən yoxdu,
heç kim satmır sağlığı...
Göyə hesab verməsən
varmı can rahatlığı..?
Talen öz əlindədir –
kim bunu anlamadı?..

Yaxşı dost yolda yatmır,
sirrini yada satmır.
Dünən, bugünlə yaşa,
sabahı bilir Allah! –
başqasından soruşma...

Havayı xoş gün olmur,
bu oyunda pul yoxdur...
Bir eşq, bir də ki, həvəs
ümidə dayaq olur.
Ümidə tapınanların
hər yanı çıraq olur...

## ÖTÜR

Keçir anlar... ötür saat... dolur zaman,
Gün gün ilə görüşüncə, baş qarışır...
“Nə qazandım?” deyib durub, duyğulandım,
Fikirlərim od götürüb, hey alışır...

Dəqiqələr həftə olur, həftələr il,
Məqsədimə çatmağıma bir addım var...
Dönməliyəm, gerilərdə bir kənd qalıb,
Bax, o kənddə min xatirəm, bir adım var...

Dəqiqələr, aylar keçir... yüzil olur...
Ha bəxtimiz gülər, deyib, gözləyərik...
Səadətim qanadlanıb, əldən uçub,
Peşimanlıq gəlincə də, can üzərik...

Fərq etmirik, anlar necə əsr olur,
Bizdən öndə zaman gedir, hey çaparaq...
Biz dünəndə ümid tapdıq, xəyal qurduq,
Ömür gedir qaça-qaça, “taraq-taraq”...

## ÇATMIR

Söz kəm qalır mahnımda, səsim də zəifləyib,
Xalqımın arzuları qəlbimi məskən seçib...

Gün də çatmır, ay da çatmır, il də çatmır, danışım:
Xalqımın çəkdiklərinə yüzil lazım, anladım...

Anlatmağa gücüm yox, istedadım da yetmir,
Xalqımın yazdıqları bugün də keçərlidir...

Hər xalqın öz keçmişi, öz məni, öz dili var,
Mənim də keçmişimdə, şanlı əsrlər durar..!

Çox danışıb, çox eşitdik, çox işlədik – lap yaxşı,
Milli qürur olmasa, bunların nə yararı?..

Özgə yerdə qəribsən, kimin var, olsun hayan?
Millətin çətin vaxtı, xalqın yanında dayan!

## QAYIDIRAM

Masa arxasına dönürəm yenə,
Amma şeir başqa qiymət almalı...
Mən özüm özümə tələb qoyuram,
Şair qələmiylə dərin olmalı...

Bugün qiymətlidi hər təzə fikir,
Söz-söhbət çox olsa, dəyərdən düşər.
Hamının axırı, mənzili qəbir,
Mənasız sözlərsə məzarsız ölər...

Yenə sarılıram öz qələmimə,
Böyük fikirlərə söz-söz gedirik...
Bəzən susmaq özü fikir daşıyır,
Fikir sınırsızdır, qalxıb-enirik...

**(*Çevirəni*: Akəm XAQAN)**



## LİLİYA QIYBADULLİNA
**(Лилия Фаис кызы Сираева (Гыйбадуллина))** –




*1987-ci ildə Tatarıstanın Aktanış elinin Əjmət kəndində doğulub.*
*Kazan Dövlət Universitetinin Tatar filologiyası və Tarixi fakültəsini bitirib.*
*"Mən bəxtimi görürəm" adlı ilk şeirlər kitabı hələ orta məktəbin son sinifində oxuyarkən işıq üzü görüb.*
*Tatarıstanın və Başqırdıstanın dövri mətbuatında ardıcıl olaraq, yeni şeirlərlə çıxış edir. 2010-cu ildə "Sükutun səsi" adlı ikinci kitabı nəşr olunub.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

***

Kədərlər qəzəblənir,
can çəkir yaşamağa..!
Bir də dönmək istəyir,
geri yol yoxdur amma...
Ah, aprel küləyi –
                vəfalı qardaş!
Nə qədər yatmış can
oyatmaq olar..?

Dəli cıdır atıtək,
qaçıb, halsız düşmüşəm.
Getməkçün yüz cür yol var,
Ancaq
          bu yeni yolçün
heybəmi kim yığacaq?

Qapı kandarına
        kim çıxar
                görən? –
varmı bir qarşılayan?..

## PAYIZ

Bənd olub bir-birinə
   yağışın damlaları
     zəncir kimi görünür,
   havalar yağış dadır...

Açıqdır qapılar,
yaxındır soyuq...
Səslənir qapı zəngi,
kim olar? – qalxıb, soruş...

Bağla qapıları, açma amandı,
açarı qəlbinin başında saxla.
Qapıları ilkbaharda açarsan.
dəsmalın altında sarı yarpaqlar...

İlkbaharda qapıları açarsan,
duyğularmı soyuq hava bürüyür...
Ah, isti sentyabr,
             bir də nə vaxt
                   dönərsən..?

Açmaynan qapıları...
pəncərə önündəcə
bir şam yandırıb, otur...
Orda, alatoranda
iki nəfər dolaşır,
iki iz buzlayır
         hər addımsonu...

***

Qoy, göylərin boşluğuna
tənhalığım yamaq olsun.
Yoxluğumda, cahanı
nəmli aprel doldursun...

Əsrlər keçir,
          sizsə
  ardı ilə qaçırsız...
Adsız peyğəmbərlərin
   yoluna tapınırsız...

Gedirəm,
   tufan bitər.
3-də
yağış başlayar...
Damlalar rəqs eyləyir
  və
  mənim tənhalığım –
  qaranlıqda qığılcım...

Ah!
   Mavi gözlü anam
   leysanda
      paltar yuyur.
Bu yağışlı havada,
mənim xoşbəxtliyimçün
Tanrımıza üz tutur...

Göylər onun səsini
eşidirmi? – bilmirəm.
Üfüqdə ilğım vurur...
İlkbaharın küləyi
xəfif xəfif əssə də,
yeri-göyü qurudur...

Peyğəmbərlərin ruhu
adlarımı yoxlayır?..
İlkbahar gəldiyini
mən bilirəm...
        torpaq da.
Ağ ləlKlər uçuşur,
   ancaq,
   mən getməliyəm...

**(*Çevirəni:* Rəsmiyyə SABİR*)***



**LUİZA YANSUAR**
**(Луиза Николай кызы Шарова (Янсуар))** –



*1981-ci ildə Tatarıstanın Pitrəç elinin Kovali kəndində doğulub. 1998-ci ildə orta məktəbi qızıl medalla bitirərək, Kazan Dövlət Universitetinin Tatar ədəbiyyatı, Tarixi və Doğu dilləri fakultəsinə daxil olub.*
*Universiteti 2003-cü ildə bitirən istedadlı gənc tatar şairi, artıq dörd kitab müəllifidir.*
*Şeirləri Tatarıstanın və Rusiya Federasiyasının digər respublikalarının ədəbi orqanlarında dərc olunur.*
*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## MARŞRUT

***Uulduzlar sonuncu marşrutu bilir…***

**Diana Arbenina**

***1.***

Sən hər ilkbaharın
ilk yağışıyla
geri dönərsən…
Çilənərsən ruhuma
və deyərsən:
Dünyamızda yeni ildırım çaxır
səbr edək, tezliklə bu ildırımlar
bizi bağlayacaq bir sap əlçimi
düyün vuracaq, –
O bağ heç bir zaman qırılmayacaq.
Elə bu yerdə də dolaşır hər şey,
dolaşıq düyünü açana əhsən..!
Tanrıdan başqası bacarmaz, əsla..!
Fəsillər dəyişər, aylar ötüşər
yaz yaya çevrilər,
yay payız olar.
Elə ki ilk qarlar ələnər yerə
Kövrəlib ürəyin sevgiylə dolar...
Sən yenə yazarsan:
- Keçər bu çovğun da,
keçər, şübhəsiz,
birlikdə salarıq yola bu qışı...
Mənsə gözləyirəm hər yaz gələndə
yaddan çıxmağımı, unudulmağı...
Qəlbimin kodları dolaşıq düşər...
Hər qışa sonuncu güntək çıxıram,
bəs hansı umuda mən yaşayıram..?

***2.***
***Niderland, Amsterdam***

Heç nə gözləmə səmadan,
körpüdən aşağı atma özünü! –
bu bugünün mesajıdır...
Amma sakitliyi heç pozmaq olmaz,
lakin elə körpülər var, atılmaq olar.
Bağı açılmayan düyünlər var ki,
o bağı illa da açmaq gərəkdir.
Biz birgə keçmişik çətinlikləri,
yadında saxla..!
Səni tanıdıqca sevindim yaman
sənin hər bir sözün,
                                        sənin hər izin
Bir başqa gözəldir ələnən qarda...
Ancaq nəyə görə
                yağan bu qarın
                yaddaşı yoxdur..?

Özün qayıt gəl!
ürək dözə bilməz bu həyəcana...
əlini qəlbinin üstünə qoy, gəl..!
gəl ki, xilas edək ötən anları,
Bu qarlı-şaxtalı, bu buzlu yoldan...
O zaman bu dünya daha da gözəl
daha da sevimli görünər bizə.
Mən buna o qədər inanıram ki..!

**3.**
**Quzey dənizi,**
**naməlum kordinatlar**

Quzeydə də dəniz var –
buzlu və quru dəniz.
Onun dalğası yusun
görüm, sənin qəlbini,
qalmasın kədərdən iz.

Sığınıb qucağına
necə aşa bilərdik qarlı buz dağlarını...
Talelərin içində gümüş üzük kimisən;
sən on nəfərdən biri,
mən isə, ola bilsin, elə yüzdən biriyəm...
ruhlarımız tanıyır amma biri-birini...
bu bağlılıq qoruyar çirkin əməldən bizi
qəlbimiz təmiz qalar
ağappaq qarlar kimi...

Dalğalar alıb bizi apara son sahilə,
görək kimə qalacaq bu həyatdan nişanə...
Bəlkə də, heç kimsəyə heç bir şey
qalmayacaq...

**4.**
**Norveç, Berqen**

Sən çox uzaqdasan –
dünyanın buz örtüyünün
yanındakı ölkədə...
oraya məktub çatmır
amma ümidim çatır –

sən gələcəksən..!
Dözürəm,
barmağımla,
sən gələsi yolları
qarış-qarış ölçürəm....

Məni çox yaxında bil,
əllərini uzatmaq bəs eyləyər, sanıram;
bu axşam qolların uzansın mənə.
Məni qucmaq istəyinə
ildırımlar duracaq...
Bir gözəllik gələcək bütün Yer kürəsinə.
Gözlərinin rəngini
göz yaşımda qurutdum.
və o gecə hiss etdim,
Səni yenə dan üzü görə bildim,
danüzlüm...

Sən mənə çox lazımsan,
görmək istəyirəm səni.
Gəl, oyadaq  yuxulardan
yaz ətirli Kazanını...
Buzlu yollarda,
çırpınan ürəyimdə
eşqimin qüvvətini
özün görəsə deyə,
mən nəyi seçsəm də,
              seçməsəm də,
gəl..!
Gəl!..

**(*Çevirəni:* Faiq BALABƏYLİ)**

**REZEDA QOBƏYEBA**
**(Резеда Рифат кызы Зәйниева (Гобәева)) –**



*1988-ci ildə Tatarıstanın Baltaç rayonunun Arbor kəndində doğulub. Kazan Dövlət Universitetinin Filologiya fakultəsini bitirib. Q.Kamal adına Tatar Dövlət Akademik Teatrında yönətici olaraq çalışıb. Gənc Jurnalistlərin XI "Altun qələm" Respublika Festivalının (2006) və "Şiqri Sabantuy"un (Poetik Sabantuy", 2010) qalibi olub. Səcidə Süleymanova adına Ədəbi Ödülün təqaüdünə layiq görülüb (2009-2010).*
*İngilis və Norveç dramaturqlarının əsərlərini tatar dilinə çevirib və həmin əsərlər Kazan teatrında oynanılıb. Şeirləri respublika mətbuatında, toplularda yayımlanıb.*
*2007-ci ildə onun "Sevgi sadə iş deyil..." adlı ilk şeirlər kitabı gün üzü görüb..*

***

Əlini ver, əlini..!
Yolu birlikdə gedək.
Bir-birmizin könlünün
istiliyni hiss edək.
İlkbaharın nəfəsi
canımızı isidir.
Bəxtiyarlıq diləyi
çin çıxacaq yəqin ki...
Bu sevdadan əl çəksək,
aldatsaq duyğumuzu,
nəyə yarar – doğrumu?..
Sənin izlərində,
mənim sözlərim,
mənim ürəyimdə
yazın şəkli var...
Gəl, bu yaza tutunaq..!
Ömrün yazı
bir daha qayıdarmı? –
qayıtmaz..!
Göylər yəmin edib,
inandırsa da,
inanmam..! –
Həyat təkrar olunmur.
Nə qədər ki,
ürəyimiz istidir,
gəl,
bu günü yaşayaq.
Əlimizdən
buraxmayaq məqamı.
Neynəsək də, irəlidə
qəmli payız dayanıb...

***

Daş dünyadan
bir səs gəlir.
Yer titrəyir bu səsdən.
Məni
sənin zərifliyin qorxudur.
Mən bahardan qorxuram.
Çünki sən hardasan,
bahar ordadır;
sən baharsan, bahar sən...
Səni aldatmaq,
sənə aldanmaq,
duyğularında azmaq
qorxudur məni... –
Silinməz izlər qalır ürəkdə...
Qorxudur məni:
günlərin birində
ən gözəl anların
            astanasında
sənsiz qalmaq
və dəli olmaq..!
Gəlişindən qorxuram..!
Sədaqət yəminindən,
hələ gileyli dildən,
hələ nəzərli gözdən
qorxuram mən, əzizim.
"səni qoruyammasam!?."
        deyib-deyib
                  qorxuram.
Mənimsə daş dünyama
sənin səsin yetişir:
Gəl, birlikdə yaşayaq..!
gəl, birlikdə qocalaq..!

## QIZIMA

Mənim xoşbəxtliyim gözlərindədir,
min kərə baxıram, baxıb, doymuram.
Gözəllik dediyin, məna dediyin,
hamısı səndədir, qızım, duyuram.

Açıb gözlərini gülümsəyirsən,
Hər şey sənin üçün təzədir hələ.
Qadınçün dualar etmək istəsən,
Dünyaya bir uşaq gətirsin, – dilə...

Özün ana olan günü,
                                        evladım,
mənim hisslərimi anlayacaqsan.
Ananın evladçün keçirdikləri,
keçirər ananı oddan-alovdan...

Necə yaşamışam dünyada sənsiz?
ömrümün gecikmiş bahar fəslisən...
Mənim xoşbəxtliyim hiss ediləndir,
sən özün cavabsan, sual deyilsən...

## SİRLİ KAZAN

Əzəmətli evlərinlə
necə sirlər saxlayırsan,
                Kazan, sən?
Şairlərin
        nəğmə qoşdu,
          vəsf eylədi.
Neçə-neçə söz yaraşdı şanına,
nur yaraşdı ruhuna,
ruh yaraşdı nuruna...
Min kərə sevinir,
    qürurlanıram.
Tatarıstan sevgimiz
səndən başlar,
        Kazanım..!
yollarının sonu yox... –
izn versən, azaram... –
Ha tərəfə getsəm də,
Boylanaram, baxaram,
    yenə qüllən görünər –
      şəhərimin mərkəzi...
Mənim məğrur ünvanım..!

Hələ, bir də Kabangölü..! –
Neçə-neçə sirr saxlayır –
                açılmamış...
Tarixində
gör nə qədər məşəqqət var,
bir o qədər qələbən var...
gör nə qədər müzəffər var..!
Əsrləri,
        min illəri,
ağ üzünlə keçirmisən!
                Kazanım..!

## GECƏ

Leysan yağışlarıyla
tapıram təsəllimi.
Ancaq qəlbimə daman
hisslər çox qarışıqdı –
gah yanır,
              gah donuram.
Səssizlik
yavaş-yavaş yüksəlir
                 göy üzünə...
Göylərdən gecə enir...
Pəncərəni açıram,
Qatı səssizlik içrə
özüm susqun oluram...
Duyğular, düşüncələr
qovalar bir-birini...
Səssizlik hökm sürür...
Qulağımda eyni səs...
Ən doğma musiqi də
ötəri hissdi, sanki...
Ancaq dərin fikirlər
fırlanır, hey fırlanır...
Tənhalıq vərdişləri
axtarışdan başlayır...
Nəğmələr təsəllimdir,
qayıdıram Keçmişə;
hər arzuya, ümidə
güzəştə qayıdıram.

Səbrimi yoxlayıram;
Yetərsizdi sözlərim...
Hisslər sirdaşım olur...
Ancaq gecəki sözlər
qüvvədən düşür sanki..
Dan yeri ağarmamış
açıram pəncərəmi,
boşalmış qəlbim kimi
yollar bomboş, kimsəsiz...
yollar yetim görünür...

**(*Çevirəni:* Rəsmiyyə SABİR)**



## RÜZƏL ƏHMƏDİYEV
**(Рүзәл Рөвшән улы Әхмәдиев)** –



*3 aprel 1989-cu ildə Tatarıstanın Aksubay elinin Şərbən kəndində doğulub. Orta təhsilini P.K. Belyaev adına Şərbən orta məktəbində alıb (1996-2006).*

*2006-cı ildə Kazan İnşaat Kollecinin "Binaların və başqa tikililərin texniki işlənməsi" fakültəsinə daxil olub; 2 il sonra Tatatr Dövlət Humanitar Pedaqoji Universitetinin Hüquq fakültəsinə daxil olduğu üçün kollecdən ayrılıb. Universiteti 2013-cü ildə bitirib. Tələbə olduğu müddətdə qaynar yaradıcı mühit içində olub: şeir yazıb, gitara çalmağı öyrənib, tamaşalarda iştirak edib, habelə rep qrupu yaradıb; II kursda oxuyanda televiziyada aparıcı olub; eyni zamanda, ərəb, türk, ingilis dili kurslarına gedib. 2013-cü ildə isə Hüquq fakültəsinin magistraturasına daxil olub. Şeirləri Tatarıstan gənc yazarlarının "Ağ yol" ədəbi toplusunda yer alıb.*

***

Xəyalımda yaratdım
Xəyalən doğdum səni.
Xəyalımda istədim –
Qəlbimə qoydum səni.

Düşüncəmlə sevdirdim
Ürəyimdə yaratdım.
Ruhumu parçaladın
Sonsuzluğu aratdın...

Yenə də sabah oldu,
Cığırlara qar yağır.
Səninlə rastlaşıram
Həqiqət üzə çıxır...

Həqiqət xəyalları
Parçalayır, dözərəm.
Sən həqiqət olmasan,
Xəyallarda gəzərəm...

## MELODİYA

Aparsaydı hisslərimi küləklər
Dözərdinmi ayrılığın izinə?..
Ürəyindən sevgi quşun uçarsa,
Nə deyərdin ayrılığın üzünə..?

Biz dəmir deyilik, polad deyilik,
Nədənsə ruhumun simləri sızlar.
Bu ki, bizim mahnımızdı, qulaq as,
Bu səslərə oynayardıq o vaxtlar.

Çağırıram, gizlədirsən içini,
Titrəyirsən, sakit dayan, gecədi.
Hər sözünə inanmaq istəyirəm,
Ruhumun qəribə vaxtı
necədi?..

## NƏ QALACAQ?

Yuyulunca döş cibimdən çıxacaq
beş manat pul, bir də əzik biletlər.
Bu hal kimi dərdə-qəmə kökləyər..?
Nə olacaq, aman canım, söylə nə..?
Böyük yola yoldaş oldum, yol getdim,
Gün oldu ki, qulağımı yad səslərə
        qapadım,
        qapayıb da öz ruhumu qorudum
Nə qalacaq, aman canım, söylə nə..?

Bir də, telefonunda
                        adım yazılan dostlar,
Adımı anacaq, yoxsa, pozacaq..?
Bəlkələr nə çoxdur, suallar nə çox,
Nə yozacaq, anam, canım, söylə nə..?
Canına anam hər məscidə girəndə
Nəzirini mənə ad eyləyərdi,
Mənsiz nəzir qutusuna pul atsa,
Nə deyəcək, dondu qanım, söylə nə..?
Həyatmı dənizdir, dənizmi həyat? –
İnsan gedir izi qalır, susa izi saxlamır...
Bəlkə oğlum doğruldacaq adımı..? –
Hara vergül qoyuramsa,
                ora nöqtə qoyacaq.
Nə duyacaq, aman canım, söylə nə..?
Var gücümü yumruğuma toplayıb
əzabların sərhəddini keçərək
əllərimi uzadıram –
                        dünya sığar ovcuma,
kim mənə əl uzadacaq, söylə kim..?
nə dolacaq, nə solacaq, söylə nə..?

***

Səhvimizi çevirməyək qarğışa,
Səhvlər çoxdur, bizsə iki nəfərik.
Bu dünyadan küsmüş iki dəliyik,
Yəqin duydun,
duyarlısan, bilirəm.
Mənsə bir-bir duyğyuları topladım
Atmamaqçün... –
Diri qalan duyğuları qoruyaq...
Yəqin alın yazısıdır –
sirrimizin sərhəddində
Ürək azıb yolunu...
Böyütməyək addımları
Göz yaşımız damar durar...
Yuxumuza qımışar...
Hələ bir dön geriyə bax,
görürsənmi ot üstündə izləri..?
Dan söküldü...
səhər ürkək açıldı...

***

***"Sevmək! – sonuncu dəfə..."***

***E.Hadi****yeva*

Ruhumun sonuncu simi qırılıb,
Kəsilən nəfəsim cavab axtarır.
Göydə bizim olan yollar uzaqda,
Gecələrin gerçək üzü saxtadır...

Mənim dostum günahsızdır özümtək,
Yenə qoru qürurunu, yenə, dost...
Gözün görən gözəlliyə inanma,
Payız gülür... – nə səfehlik, bu nə şəst..?

Sovqatım qəmlidir, günüm sınaqlı,
Gecə, sən də gözlərimə fikir ver.
Göylər özü göz yaşını bağışlar,
Amma yenə titrək qalar kirpiklər...

Gecənin bağrını yararaq enir,
Bir söz..! – O söz baxışları dondurar...
Qayğıları silər, pozar bircə söz,
Bizi yenə son eşqimiz durdurar...

Ruhumun şübhəli titrəməsi var...
Günahdımı sevgi? – günahdımı, de.
Yanlış sevmək, yanlış yaşamaq da var...
Yanlış məhəbbətdən göynədinmi heç?..

***

Sən mənim bəxtim idin
Sən mənim bəxtəvərim
Hamı dua eyləyir,
Sənsə bəddua oldun...

Əvvəlcə sevgim idin,
nifrətdən adam oldun.
Xoşbəxtliyi dolaşan
niyyətdən adam oldun...

Mənə hərdən sevgili,
Hərdən də şeytan idin.
ən uca varlığımdın,
ən ucuz xatam oldun...

Tale quşum olsan da,
mənə pislik gətirdin.
Ulduz parıltısıydın
eşqə şərik gətirdin...

Həyəcanlı sükutum,
hirsli müharibəmsən.
Hərdən buzdan soyuqsan,
ən isti nəfəs sənsən...

**(*Çevirəni:* Elşad BARAT)**



**RÜZƏL MÜHƏMMƏDŞİN**

**(Рүзәл Фәиз улы Мөхәммәтшин) –**



*1989-cu ildə Tatarstanın Kukmara elinin Tatar Tollısı kəndində doğulub. Tatar Dövlət Humanitar Pedaqoji Universitetini bitirib.*
*Hazırda KFU-nun aspiranturasında oxuyur.*
*"İdel" dərgisinin Poeziya bölməsinin redaktoru vəzifəsində çalışır. Tatarıstan gənc yazarlarının bir sıra ədəbi yarışmalarında qalib olub.*
*"Təhsildə və elmdə uğurlarına görə" Tatarstan Respublikası Prezidentinin fərdi təqaüdünə (2011-ci il), "Qaralama" adlı kitabına görə isə Musa Cəlil ödülünə (2013-cü il) layiq görülüb.*
*Tatarıstan Yazıçılar Birliyinin* üzvüdür.

## ARSIZLAŞMA

***Bir az arsızlanmağa başladım...***
**Gəray Rəhim**

***İndi canım bu haldadır..!***
**Zülfət**

Arsızlaşma...
deyirəm
indi özüm özümə.
Mənə yadlardan kimsə,
nəfsini saxla desə,
neynəyərdim,
bilmirəm...

İndi mən bu haldayam...
Dəf edəincə yerləri;
Ürək niyə dönməyir..?
Artır həvəs
dönə-dönə,
Yol çağırır: ancaq önə..!

Bəxt çox vurdu
küräyimdən,
Həm büdrətdi, həm axsatdı.
İş qurtardı, əl soyudu,
Arzularsa, doğdu, artdı...

Aclar kimi saf havanı,
Udduqca uduram yenə.
Bu nə haldır? –
                    dolur sinə,
Həyat eşqi artır, artır...

İndi mən bax, bu haldayam:
Yırtıb göyün pərdəsini,
Ya da qalxıb min-min sənəm,
Hətta Tanrı desə: Vaxtdı! –
Həyatı tərk edəmmərəm...

İnsanı məst edən dünya,
Doyulmazsan, doyulmazsan...
Öllük, torpaq udar bizi...
Əvf et, bizi, əvf et, Tanrım..!
Olsun ki, arsızlıq budur...

## ÇE (YURO)

O, qapqara  gödəkçədə, gecə tək qara çəkmədə:
“Yetər!” – deyib, əzablardan qaçmağına and içir.
ən gərəksiz duyğuların qaysağını qoparıb,
için için boğulunca, nəm otdan nəfəs çəkir...
Argentina-Havana- Kazan-Kukmara:
Açıldıqca üfüqlər əsəb çəkilir dara.
Günəş də batıdan doğuya dönür,
Alnım da damlayır – tərdimi, nədir..?
Ya Tanrı! Görürsən, gösəldir hər şey..!
Min il azdır, iki min il yaşayaq.
Yağış dursa, göydən daşlar ələnsə,
Nə işdən əl çəkək, nə də yığışaq...

“İyirmi altı iyul”dan bu günə qədər,
Fidel Kastro özü
qatı söyüşlər söyər.
Avtomatın yerinə əldə gitara dindi,
Çenin vaxtı ötübdü, indi zaman mənimdi...
Yeni mahnı doğulur, uladıqca əsən yel,
Bu mahnıda hava yox, o heç gərək də deyil..!
Bu nifrətin odunda, bu sevgi alovunda,
Bu ocaq qırağında... hamı sirli oyunda...
Bu mənim həyatımdır, bir nəğmədir həyatım,
Oxuduqca yaşaram, oxuduqca mən varam..!
Son damla qanımadək pozmayacam bu andı,
Çavuş, hədəfə düz at, önündəki bir candı...

Eh, bu gün ağlardan arıdı bulud,
Yaşıl bağ üstündə hərlənib durur...
Günəş şüalarna aldanmasaydın...
Kirpiklərin nəmdi – ağlamasaydın...
Səndən xahişim var, pis hala göz yum,
Mən heç yaşamadım, xülyaya uydum...
Çəkmələrim qara, biretim qara,
Yaddaşım qarışar, ağrım... çaş qalar...
İyulun sonudur – payız tez gəlib,
Qəlbimə erkəndən gur saflıq enib...
Ya Tanrım, bir söz de, oxunmur alnım,
Ölümümmü səhvdir, ya doğulmağım?..

**(*Çevirəni:* Şahməmməd DAĞLAROĞLU*)***



**YILDIZ MİNNULLİNA**

**(Йолдыз Фәрваз кызы Миңнуллина) –**



*1985-ci ildə Kazanda doğulub. Kazan Dövlət Universitetini bitirib. (Öncə, Riyaziyyat fakultəsinə daxil olsa da, sonra Tatar filologiyası və Tarixi fakultəsinə dəyşirilib.)*

*Bundan başqa, Qorki adına Ədəbiyyat İnstitutunda oxuyur. "Yalkın" dərgisinin baş redaktorudur.*

*Şeir və çevriləri Tatarıstan, həm də Rusiya mətbuatında davamlı olaraq yayınlanır. Onun şeirləri gənc tatar şairlərinin "Əllüki" və "Ağ yol" almanaxlarında yer alıb.*

*Özünün ilk şeirlər kitabı "Kük tirməse" ("Göy çadırı") 2011-ci ildə gün üzü görüb.*

*Bir sıra mahnıları müğənnilər tərəfindən oxunur.*

*Rus və Batı dramaturqlarından çevirmələri teatrda oynanılıb.*

*Tatarıstan Yazıçılar Birliyinin üzvüdür.*

## ÖFKƏLİ MAHNILAR
***A.B.-yə...***

**1.**

Sən elə inanırsan,
  sən elə danışırsan –
nə qədər geciksə də,
  əlbəttə, əriyər qar...
İtaətkar dediyin,
  sərtüzlü dəli külək,
  bugün mənim üzümə
  pəncərələr açdırar...
Çevirər “cingilti”yə
  hər bir keçən gününü...
Tanıyar, bəlkə mənim
  üzümə boylanaraq –
Yəqin
mən onları səhvən yazmışam –
Mahnım incik səslənir –
səndən geri dönüblər;
Yadlaşan dönük sözlər
Kazan qapısına
                    hücum eylədi...
Mən səni tanıdım, sənsə, elə bil,
Bir kür quzeyliyə dönüb gəlmisən;
Ancaq kürlüyün də donub, özüntək,
Gözün buza dönüb, baxışın solub...
Danış, itirdiyin sehrindən danış,
Sehrin kimin baxışına köçübdür..?
Daş evlərin girişində örtünüb,
Kimin kölgəsini sən qoruyurdun?
Mən sual verirəm, sənsə gülürsən.
Bəli, sualımın cavabı sənsən...

Tamam günahkarsan, ehtiyatlı ol..!
Lakin mənim dilimdən
çıxan sözlər doğrudur:
Bilirsənmi, əgər ümid ödüsə,
daha heç nə lazım olmur adama... –
Nə həqiqət təntənəsi,
nə yaxşı dost, nə var-pul...
Baxma, yuxular və yuxugörənlər
Ümid olmayanda girir araya...
Hər an qıvrıla bilən
ən nazik sapdan belə
Ümid xilas olursa...
həyat pəncəsini çəkir hardansa...
Ağac gövdəsindən,
qaya başından,
Elə bil indicə şaxta-buz enib...
Elə bil nəyisə dondurmalıdır...
Kim nəyi istəyir, nə kimi – bilməm,
pəncərəm açıqdır... səslərsən məni...

**2.**

Sən qayıtdın,
                    sən özünü bilirsən,
Ancaq gözün hələ də, yeni həmlə arayır...
Təsadüfən saçlarına toxunsam,
heç bilmirəm, ağrım-acım keçərmi..?
Amma sənin o nəmli, o qəmli baxışınla,
sanki göyüzü əsir bütün cavanlığıma...
Bəlkə biz nə qədər yoldan keçmişik,
ürəkdən keçmişik, qoldan keçmişik...
Baxmışıq xəritəyə,
baxmışıq yola... –
sonda da, ən uzun yolu seçmişik...
Bəzən qəfəslərə düşüb, vurnuxduq,
Öz ölkəmiz bizə yabançı oldu...
andımız pozuldu...
                              gözümüz doldu...
Bizi gözləyənlər yüz əzab gördü...
Biz yüz yol dəyişdik, yüz yol tutuşduq,
Kimisinə başçı, kimə qul olduq...
Böldük qara çörəyi,
                    qaldırdıq bayraqları...
Bugün
          bayraq dirəyini saxlayan,
Neçə cavan ömrü, igid qanıdır...
Uzun sözün qısası,
Nəfəslər buzlusa,
                         gecə qısasa,
   nə qorxma, nə qoruxtma,
çevril, gözlərimin düz içinə bax...

***(Çevirəni:* Şəfəq SAHİBLİ*)***

**3.**
Hələ ki, dəlisov külək kimisən,
gözlərin yad dənizləri gizləyər...
Uzundan uzun yol,
ərkə fikirlər,
və ocaq yerində at əyləmələr...
Qumla dolmuş sandallar,
Günəşdən qızarmış arıq çiyinlər,
çiynlərdə zərif saçlar,
dəniz qyılarını
doğmalaşdırdı mənə...
Ayrı-ayrı şəhərlərdə donduğumuz
və bayraqların solduğu an –
biz and içdik:
səndən öncə qarşılaram
səndəki
dan yerini...
Əgər bu Yer üzünə
qəlbimizi donduran
yağışlar yağsa,
hər yer bozdan da boz rəngə dönüncə,
yanağımdan göz yaşlarım
damcı-damcı düşüncə,
biz söz verdik:
dünyalar
hər nədənsə dağılsa,
həyat dirənəcək fırtınalara..!
Dünya öncəki tək çox sirli olsa, –
öncəki tək, – çətin... canlı...
mehriban,
İnsanlar fərqində olmazlar bunun...
öncəki tək davam edəcək həyat...
Sən döndün, döydün qapını,
pozuldu sükut...

**4.**

Düşünmə ki, baxışından sınaram –
Gözünü dikərək, niyə baxırsan..?
Səndən indiyədək çox söz gözlədim.
Ancaq hiss etdiyim ilk qar qoxusu
Sözlərdən daha çox zövq verir mənə...
Bizim qısqanclardan qısqanc ölkədə
hər şey şübhəlidir indi elə bil...
Mənim ən utancaq tərəfim sənsən..!
məni əlyazmamdan tanıyan sənlə
aramızda sanki qütb soyuğu var...
Bəzən utancaqlıq haqq yerin olur,
bəzən haqq bildiyin bir yalan olur...
Bu gediş... bu gediş çoxdan başlayıb,
Girişdə döşəmə cırıldayandan...
Əgər bu gedişin dönüşü varsa,
o dönüş bu qəlbi çiçəklədəcək...
yorğun ruh dirçələr... inadlar bitər...
Kim azad günündən hesab ödəyər?
Söylə, sənmi?
                    mənmi? –
                              Bax, yol hardadır?
Qanımız qaynayır damarımızda,
Demə, ikimizə bir iz bəs edər...
Bu halal torpaqda məni aldatma...

**5.**

Hətta sərt tufanlı dənizlərdə də,
yolunu gözləyən odlu ürək var. –
Bəlkə sən mənsiz də şad olacaqsan,
ancaq baş qoymağa çiyin ararsan,
ararsan əlimin hərarətini...
Mənə mktub yazma, heç lazım deyil,
zərif sözlər qələminə yad olsun...
gözəldir yerində, vaxtında olan...
Pıçıltı yaxşıdır gurultulardan...
Min tədbir tökülər bir işdən ötrü...

Qar qışda yağınca gözəllik olur,
Yer öz cazibəsi ilə fırlanır...
Biz də qanunlardan qıraq deyilik,
Biz də Yer üzünün sakinləriyik...
Nə qədər ürək var bu Yer üzündə,
Bizim aramızda döyünür onlar...

**6.**

Yer üzündə odlar sönəcək artıq,
gecə gecəliyni yaşayacaqdır.
Qış son saatdadır... İsti yaz gəlir...
Qaşlarını çataraq, bir insan göyə baxır,
çətindir ona bugün, nədənsə çox çətindir –
Sanki gözübağlı döyüşçüdür o...
Uzun saçlarıyla
                    fikir qovur o,
qovub fikirləri, dövrə vurur o...
Toplayır keçmişin kölgələrini –
Səhər havasını çəkir canına,
Nə zamandır, rəngli yuxu görməyir,
Bəlkə də, unudub gördüklərini? –
O yalnız yuxuda qanad çıxarır,
Qanadlı yaşamaq – əsl həyatdır..!
Göylərə boylanan o insanoğlu,
Özünü sınayır, durub-daşınır:
Mənim gördüklərim gerçəkdi ya yox?.. –
Qaranlıq göylərdə bir uçaq süzür,
Bu uçaqda sən varsan...

***

Çox qəribə yuxu gördüm o gecə
– neçə qərib, yad baxışı səninlə gördüm,
gah sən olurdular, gah sən onlardın...
yadlar doğma gülüşlüydü,
üzlər yaxındı...
Maşınlar, işıqlar – qızıl-qırmızı –
Dayan, nəfəs alma, tərpənmə belə,
Bax, şəhərin mərkəzində -
çürük lövhəli hasar...
lövhə hasarda çürür...
Hasar ardı məzarlıqdı – daş xaçların üstündə...
Nə qədər qarğa var... – saysan qurtarmaz. –
Həyat çox genişdir, dünya gözəldir...
Qar yağır, gözəldir hər qar dənəsi,
Bir də, sənin göz yaşların görünmür,
Söylə, görüm, sən varsanmı dünyada? –
...Bəd ayaqda, tutun can ağrısından...
Sən təksənmi? – barı, pəncərəyə bax,
Kimin kölgəsidir pərdədə əsən..?
Bəs burda susqunca dayanan kimdir?
Səni görən biri vardır, unutma –
O bugün sağdırmı... sağdırmı bugün?
Niyə onun nəfəsində qarlar ərimir?
Say, bu dəfə onun kipriklərini say..! –
Hər kipriyə toxun ayrı-ayrıca,
Yenə də sirli ol, bir az məkrli...

Bir vaxt necə mehribandın...
                                        sualdın necə?..
Bəlkə heç kəs duymayacaq
Yer üzündə
nə baş verir, nə dəyişir..?
qabaqlar necəydi... indi necədir..?
bugünün şərtləri dünən necəydi?
Amma sən..!
                  sən nə etdin bəs? –
Vətənə dönüncə, qapı döyüncə,
dünənlə bugünün birliyni pozdun...

***(Çevirəni:*** **Nigar RƏHİMOVA*****)***



# ÇEVİRMƏNLƏR

**Afaq ŞIXLI**
**(Afaq Arif qızı Şıxli**nskaya**)** -



Həkim, şair, publisist, çevirmən; DGTYB Məsləhət Şurasının, Rusiya Yazıçılar Birliyinin, Avrasiya Yazarlar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, Uluslararası Yazıçılar və Publisistlər Assosiasiyasının üzvü, Azərbaycan Yazıçılar Birliyi (AYB) Moskva Bölməsinin məsul katibidir.
25 iyun 1969-cu ildə Bakı şəhərində doğulub.
İxtisasca həkim-terapevtdir, 2000-ci ilədək Bakı şəhərində ixtisası üzrə işləyib. Hazırda Rusiya Federasiyasının Moskva şəhərində yaşayır.
Təbabət, ədəbiyyat, musiqi, rəssamlıq və tərcümə işi ilə məşğul olur.
Şeir yazmağa kiçik yaşlarından başlayıb və müxtəlif şeir yarışmalarında uğurla iştirak edib. Çoxsaylı şeirlərin, hekayə və publisistik yazıların, eləcə də, rus, türk, tatar (çağdaş və klassik) ədəbiyyatından bədii çevrilər edib.
Əsərləri Türkiyə türkcəsinə, özbək və tatarcaya, habelə rus, ingilis və fransız dillərinə çevrilib.
Bir sıra yerli və uluslararası şeir şölənlərində "Onur bəlgəsi" və "Diplom"larla təltif olunub, ödülə layiq görülüb.
İndiyədək Azərbaycan, Türkiyə və Rusiyada 10-dan artıq kitabı çıxıb.

**Akəm XAQAN**
**(Akəm Xanbaba oğlu Məmməd**zadə**) –**



1966-cı ildə Şəki rayonunun Kiş kəndində doğulub.
1983-cü ildə orta məktəbi, 1987-ci idə Mingəçevir Mühasiblər Məktəbini bitirib. Şair-publisist, tənqidçi, Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) Şəki bölməsinin məsləhətçisi, “Vətəndaş rəyi” qəzetinin təsisçisidir.
“Səninlə dünyaya baxmağa dəyər”adlı şeirlər kitabı işıq üzü görüb; “Türkün səsi” və başqa toplularda şeirləri çap olunub.

**Elxan YURDOĞLU**
**(Elxan Qadir oğlu Məmmədov) –**



9 may 1980-cı ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının (NMR) Kəngərli rayonunun Yurdçu kəndində doğulub. Naxçıvan Dövlət Universitetinin (NDU) Tarix-filologiya fakültəsinin bakalavr pilləsini və magistraturasını, AMEA Folklor İnstitutunun doktoranturasını bitirib.
"Azərbaycan" qəzetinin Naxçıvan üzrə müxbiri, həmçinin AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi, NMR Mətbuat Şurası İdarə Heyətinin, DGTYB Məsləhət Şurasının üzvüdür.
İndiyədək müəllifi olduğu 6, çevirdiyi 4 kitab gün üzü görüb.
Gənc yazar kimi Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdünə (2011), mətbuatdakı fəaliyyətinə görə isə "Tərəqqi" medalına (2015) layiq görülüb.
Naxçıvan şəhərində yaşayır.

**Elşad BARAT**
**(Elşad Akif oğlu Barat)** –



5 oktyabr 1988-ci ildə doğulub. 2006-2010-cu illərdə Bakı Dövlət Universitetində (BDU) bakalavr, 2011-2013-cü illərdə NDU-da magistr təhsili alıb; hər iki universiteti fərqlənmə diplomu ilə bitirib. Naxçıvan Dövlət Televiziya və Radiosunun "Xəbərlər" proqramının, "Məclisi-şüəra" verlişinin, "VisionTV.az" internet televiziyasının "Alimin günü" verlişinin aparıcısı olub. Bir çox elmi konfrans və uluslararası seminarın nümayəndəsi olan Elşad Barat, onlarla elmi, ədəbi yarışmada diplom və sertifikatlara layiq görülüb.

AMEA Geologiya və Geofizika İnstitutunun əməkdaşı, AMEA Gənc Alimlər Şurası İdarə Heyəti, Azərbaycan Yazıçılar Birliyi və DGTYB-nin üzvüdür.

Hazırda Bakı Slavyan Universitetinin Yaradıcılıq fakültəsində təhsil alır.

"Tükənməz məhəbbətim" (şeirlər, "Bəyaz", 2008), "Ruhumun səsi" (şeirlər və hekayələr, "Afpoliqraf", 2012), "310-cu otaq" (şeirlər, "Vektor" NE, 2014) adlı kitabları gün üzü görüb.

**Əkbər QOŞALI**
**(Əkbər Mehdi oğlu Yolçu**yev**) –**



1973-cü ildə Tovuzda doğulub. 1990-1995-ci illərdə Azərbaycan Texniki Universitetində ali, 1998-2001-ci illərdə isə Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ikinci ali təhsil alıb.
1996-cı ilin fevral ayından 2000-ci ilin aprelinədək Azərbaycan Gənclər və İdman Nazirliyində (AGİN) çalışıb. Azərbaycanda Atatürk Mərkəzi yaranandan əmək fəaliyyətini burada davam etdirən Ə.Qoşalı, hazırda Mərkəzin şöbə müdiridir.
DGTYB-nin Təsisçilər Şurasının başqanı olan Ə.Qoşalı, eyni zamanda Milli QHT Forumu İdarə Heyətinin üzvü, AYB Nəzarət-təftiş Komissiyasının sədr müavini, "Ədəbiyyat Qəzeti" və "Ulu Çinar" dərgisi Redaksiya heyətinin üzvü, habelə "Yeni Azərbaycan" qəzetinin Ədəbiyyat şöbəsinin redaktorudur.
50-dən artıq ədəbi, elmi kitabın müəllifi, həmmüəllifi, tərtibçisi və həmtərtibçisi, redaktoru, "Önsöz" müəllifidir.
15 iyul 2015-ci ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilən, Azərbaycan Prezidentinin Təqaüd Fondunun təqaüdçüsü olan (2008-2009) yazar, Gənclər Təşkilatları Milli Şurasının AGİN-lə ortaq təsis etdiyi "Fəxri Gənc" Qızıl Döş Nişanına (2010), Yazıçılar Birliyinin AGİN-lə ortaq təsis etdiyi "Respublika Gənclər Mükafatı"na (2002), Rəsul Rza Fondunun "Rəsul Rza" Ədəbi Ödülünə (2009), Qırğız Respublikası "Toktokul Satılganov Fondu"nun medalına (2014), TÜRKSOYun "Plaket"inə (2014) layiq görülüb, eləcə də, Tatarıstan Yazıçılar Birliyinin, Çuvaşıstan Yazıçılar Birliyinin, Moskvadakı "Şəhriyar" Ədəbi Məclisinin, Gənc Qaqauz Yazıçılar Birliyinin "Fəxri fərman" və "Diplom"ları ilə təltif edilib.

**Faiq BALABƏYLİ**
**(Faiq Ağaş oğlu Səfərov)** –



23 fevral 1964-cü ildə Cəlilabad rayonun Sabirabad kəndində doğulub. AYB-nin üzvü, "Axar.az" portalının əməkdaşı, "Müstəqil.az" xəbər portalının təsisçisidir. "Yeni Xəbər" və "Millətin səsi" qəzetlərinin baş redaktoru, "Ədəbiyyat qəzeti"-nin müxbiri olub. Ədəbi və jurnalistlik fəaliyyətinə görə DGTYB-nin, "Vektor"un ödüllərinə, habelə "Məmməd Araz" ödülünə layiq görülüb. Azərbaycan Prezidenti Təqaüd Fondunun təqüdçüsü olub. İndiyədək 7 kitabı gün üzü görüb.
Elazığda (Türkiyə) və Kazanda (Tatarıstan) düzənlənmiş şeir şölənlərinin nümayəndəsi olub.

**Fərqanə MEHDİ**
**(Fərqanə Habil qızı Mehdi**yeva**)** –



1964-cü ildə Salyan rayonunun Ərəbqardaşbəyli kəndində doğulub.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakultəsini bitirib. 1981-ci ildən respublikanın ədəbi orqanlarında, televiziya və radio verilişlərində vaxtaşırı çıxış edir. "Çəkdiklərim mənə bəsdi...", "Deyirlər şirindi dünya..." "Payızın yanında gözlərsən məni", "İkimiz darıxsaq..." şeirlər kitablarının müəllifi olan şairə, Azərbaycan Prezdenti Təqaüd Fondunun təqüdçüsü olub. O, həmçinin Rəsul Rza və Mikayıl Müşfiqin adına təsis edilmiş ödüllərə layiq görülüb.
Hazırda "Ulduz" dərgisi "Poeziya" şöbəsinin redaktorudur.

**Günel GÜN**
**(Günel İzzət qızı Lətif**ova**) –**



3 avqust 1985-ci ildə Bakıda doğulub. Bakıdakı F.Nəcəfov adına 266 saylı orta məktəbin məzunu olub. 2007-ci ildə Bakı Biznes Kooperasiya Universitetinin Maliyyə-Vergi Hüququ fakultəsini bitirib. Hazırda BSU-nun Yaradıcılıq fakultəsinin tələbəsidir. 2013-cü ilin aprel ayında UNİCEF və Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkil etdiyi ”Qısametrajlı filmlər” layihəsində ssenarisi Günel Günə məxsus olan “Səadət” filmi 3-cü yer ödülünə layiq görülüb. O, televiziya kanallarında dublyaj səslənməsində iştirak edir.

**dr. Həyat ŞƏMİ**
**(Həyat Rəhman qızı Şamı**yeva**) –**



Şair, çevirmən. Füzuli rayonunun Gecə-gözlü kəndində doğulub. 1990-95-ci illərdə BDUnun Tarix fakultəsində oxuyub. 1995-1998-ci illərdə AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əyani aspiranturasında oxuyub. "VIII-IX yüzillərdə Azərbaycanda dini-siyasi hərəkatlar və onların tarixşünaslıqda əksi" mövzusunda dissertasiya müdafiə edib. Bir neçə tərcümə olunmuş qaynaq kitablarının "Göstərici"lərini işləyib. Elmi məqalələri Azərbaycan, Gürcüstan və Rusiyanın müxtəlif elmi dərgilərində dərc edilib. Türkiyə və QKTC-də keçirilən bir çox uluslararası elmi konfranslarda çıxış edib. Rus, ərəb və ingilis dillərini bilir.

Hazırda Milli Tele-Radio Şurasında baş məsləhətçi vəzifəsində çalışır. Televiziya verilişləri ilə bağlı bir çox məqalələrin müəllifidir.

3 şeir kitabı (“Adamlar”-2003, “Yazılmayan şiirler”-2009 və “Gecə gözlü həyat”-2009) və 2 çeviri kitabının (“Hər qürubda sən varsan”- Raisa Sarbi, “Ətirli yarpaqlar”- Robert Minnullin) müəllifidir.

2000-ci ildə ümummilli lider Heydər Əliyevin gənc yazarlara verdiyi Prezident təqaüdünə layiq görülüb. "Ulduz" jurnalı redaksiya heyətinin və AYB Qəbul Komissiyasının üzvüdür.

Şerləri bir çox dillərə, o cümlədən ingilis, italyan, ukrayna, rus və türk dillərinə çevrilib.

**İntiqam YAŞAR**
**(İntiqam Yaşar oğlu Cavanşir) –**



3 oktyabr 1990-cı ildə Gədəbəydə doğulub.
AZƏRBAYCAN Universitetinin Filologiya fakültəsində ali təhsil alıb. 2012-ci ildə "İlk görüş" adlı şeirlər kitabı gün üzü görüb. DGTYB Yönətim Kurulunun və AYB-nin üzvü, Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdçüsüdür.
AYB və AGİN-nin birgə təsis etidyi "Gənclər mükafatı" ilə təltif olunub (2 fevral 2016).
İkinci şeirlər kitabı olan "...və susarsan" 2016-cı ilin mart ayında çıxıb.

**dr. Könül AYDIN**
**(Nəhmətova)** –



9 yanvar 1975-ci ildə Ağcabədi şəhərində doğulub.
DGTYB Məsləhət Şurasının üzvü, “Kurikulum” təhsil dərgisinin məsul katibidir. Filologiya üzrə fəlsəfə doktorudur.
“Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan” əsəri”, “Abbasqulu ağa Bakıxanovun “Kitabi-Əsgəriyyə” əsəri”, “...“Qaraca qız”ın taleyi” elmi əsərlərinin, “Ay ellər, mən də varam”, “Bir ömrün qəlpələri”, “Dəyanət” adlı ədəbi-bədii kitabların müəllifidir. “Azərbaycan”, “Ulduz”, “Füyuzat” və digər mətbu orqanlarda elmi, publisistik və bədii yazıları dərc olunur.

**Lamiyə İSA**ZADƏ
**(Lamiyə Ədalət qızı İsa**yeva**) –**



12 may 1989-cu ildə Gəncədə doğulub.

Gəncə Humanitar Kollecində oxuyub.

Elektron və çap ədəbi orqanlarda, habelə "Səs... Söz... Rəng" toplusunda şeirləri yayınlanıb.

İlk şeirlər kitabı nəşrə hazırlanır.

Müxtəlif ictimai qurumlar tərəfindən "Fəxri fərman" və "diplom"lara layiq görülüb.

DGTYB-nin üzvüdür.

**Nigar RƏHİMOVA** –



08 oktyabr 1984-cü ildə Bakı şəhərində doğulub.

2001-2006-cı illərdə BDU-nun Jurnalistika fakültəsində bakalavr, 2007-2009-cu illərdə isə həmin fakultədə magistr təhsili alıb.

2006-cı ildən Azərbaycanda Atatürk Mərkəzinin elmi əməkdaşıdır.

"Azərbaycan mətbuatında ortaq türk mədəniyyəti problemləri (1900-1920)" adlı ilk kitabı 2014-cü ildə gün üzü görüb.

**dos.dr. Rəsmiyyə SABİR**
**(Rəsmiyyə Sabir qızı Abdulla**yeva**)**–



Masallı rayonunun Ərkivan kəndində doğulub. Azərbaycan İnşaat Mühəndisləri Universitetini bitirib. İqtisad üzrə fəlsəfə doktoru, dosentdir. Azərbaycan Yazıçılar Birliyinin üzvü, DGTYB-nin qurucularındandır. 2000-ci ildə Türkiyədə keçirilən I Uluslararası Füzuli Şeir Yarışmasının ödülünə layiq görülüb. 100-dən çox şeirinə mahnı bəstələnib. 2002-ci ildə sözlərinə yazılmış mahnılardan ibarət "Səni aradım" adlı audio albom gün üzü görüb. 2003-cü ildə "Fəxri Gənc" qızıl döş nişanına layiq görülüb. Həmin il "Həbs olunmuş sükut" adlı ilk şeirlər kitabını çıxarıb.

2006-cı ildə "Kölgəsiz dar ağacları" (kərkük-İraq), "Rəngsiz göz yaşları" (Bakı), 2009-cu ildə "Unutdun məni" (Bakı), 2011-ci ildə "Sahilsiz adam" (Ankara-Türkiyə) adlı şeir kitabları gün üzü görüb. 2006-cı ildə KİBATEK və "VEKTOR" tərəfindən "İlin Ədəbiyyat Ödülü"nü alıb. Azərbaycanı müxtəlif uluslararası tədbirlərdə (Türkiyə, Ukrayna, Rumıniyada və s.) təmsil edib. Şeirləri 6 xarici dilə çevrilərək, fərqli ölkələrdə yayınlanıb.

Azərbayacan Prezidenti Təqaüd Fondunun təqüdçüsü olub.

2014-cü ildə ədəbi uğurlarına görə Qırğız Respublikasının Coomert Bekenbaev adına "Altın diplom" və medalına layiq görülüb.

**Səhər ƏHMƏD**
**(Səhər İsmayıl qızı Əhmədova) –**



14 may 1972-ci ildə Kürdəmirin Şilyan kəndində doğulub.
1997-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsini bitirib.
AYB-nin üzvü, DGTYB-nin Təsisçilər Şurasının üzvüdür. Dövri mətbuatda şeir, hekayə və esseləri ilə ardıcıl olaraq çıxış edir.
"Gözlərimin içinə bax", "Ruhun nəfəsi", "Görüşməyənədək" və "Kalbimin sokakları" şeir kitablarının müəllifidir.

## Şahməmməd DAĞLAROĞLU
## (Şahməmməd Nurulla oğlu Soltanov) –



1956-cı ildə İsmayıllı rayonunun Pirəqanım kəndində doğulub.
Novosibirsk Xalq Təsərrüfatı İnstitutununun 1991-ci il məzunudur.
İsmayıllı rayonunun Ağbulaq kəndində yaşadığı illərdə ilk bələdiyyə seçkisində uğur qazanaraq, bələdiyyənin sədri, ikinci, üçüncü və dördüncü seçkilərdə isə İsmayıllı bələdiyyəsinin üzvü seçilib.
2005-ci ildə Jurnalistika üzrə 1 illik kurs bitirən şair, İsmayıllının yerli radio verilişləri redaksiyasında redaktor vəzifəsində işləyib.
Ş.Dağlaroğlu 5 kitab müəllifi, 30-a yaxın kitabın redaktoru, 2 toplunun tərtibçisidir. Şeirləri "XX yüzilin Şirvan şairləri" toplusunda, "Türk Dünyası şairlərinin antologiyası"nda və digər bir neçə almanaxda yer alıb.
2008-ci ildən çıxan "İsmayıllı xəbərləri" qəzetinin təsisçisi və baş redaktoru, 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2014-cü ildən isə "İsmayıllı Yazarları" ədəbi birliyinin başqanıdır.

**Şəfəq SAHİBLİ –**



1967-ci ildə Füzulidə doğulub. Hazırda Bakıda yaşayır.
Ali təhsilini BDU-da alıb.
“Könlüm susuz səhradır”, “Biçilmiş çiçəklər”, “Anası günlərim”, “Həsrətin evimin qonağı olur”, “Düşmən əlimi sıxır, dost ürəyimi”, “Tənha qu quşu”, “Üşüyürəm sözə sarı”, “Alovuna üşüyən şam”, Bir gün...” adlı şeir və poema kitabları gün üzü görüb. Azərbaycanda və Türkiyədə keçirilən bir neçə şeir şöləninin nümayəndəsi olub.
AYB-nin üzvüdür.

**dos.dr.Təranə TURAN**
**(Təranə Yusif qızı Rəhimli) –**



20 fevral 1970-ci ildə Bakıda doğulub.
1995-ci ildə ADPU-nun Filologiya fakültəsini bitirib. Hələ tələbəlik illərindən "Gənc müəllim" qəzetinin ədəbi işçisi (1991-1994), universiteti bitirdikdən sonra isə məsul katibi (1994-2000), baş redaktoru (2000-2007) olub.
2003-cü ildən ADPU-nun "Azərbaycan və dünya ədəbiyyatı tarixi" kafedrasının müəllimi, 2008-ci ildən baş müəllimi, 2011-ci ildən dosenti, 2014-cü ildən isə "Dünya ədəbiyyatı" kafedrasının dosentidir; 2015-ci ildən BDU-nun Şərqşünaslıq fakültəsində Yapon ədəbiyyatından mühazirə və seminar dərsləri aparır.
Onun şeirləri, publisistik, elmi məqalələri Azərbaycanla yanaşı, qardaş Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanda, habelə İtaliya, Belçika, Yunanıstan, Rusiya, Ukrayna və b. ölkələrdə çap olunub.
T.Turan 1994-cü ildən Jurnalistlər Birliyinin, 1998-ci ildən DGTYB-nin, 1999-cu ildən AYB-nin, 2007-ci ildən KIBATEKin üzvüdür.
O, 20-dan artıq elmi, bədii və publisistik kitabın redaktoru, "önsöz" müəllifi və rəyçisidir.
Türkiyədə, Rusiya Federasiyasında, Qırğız Respublikasında, İtaliyada uluslararası tədbirlərin nümayəndəsi olub, "fəxri fərman", "təşəkkürnamə" və ödüllər alıb.
T.Turan hazırda "1960-1970-ci illər Azərbaycan nəsri ədəbi tənqiddə" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

**Turan TEYMUR**
**(Turan Mövlud oğlu Teymurov) –**



30 may 1981-ci ildə İsmayıllı rayonunda doğulub.
2001-2005-ci illərdə BDU-nun Filologiya fakültəsində təhsil alıb. 2005-2007-ci illərdə həmin universitetin Filologiya fakültəsinin “Türk xalqları ədəbiyyatı” ixtisası üzrə magistratura pilləsində təhsilini davam etdirib. 2007-ci ildə bu təhsil pilləsini fərqlənmə diplomu ilə başa vuraraq, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun “Türk xalqları ədəbiyyatı” şöbəsində doktorant kimi elmi tədqiqatlar aparıb. 2015-ci ildə “Muxtar Auezovun “Abay” romanında epik vüsət və bədii detal” mövzusunda yazdığı dissertasiya işini uğurla müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.
Elmi fəaliyyəti ilə yanaşı, bədii çevirmə ilə də məşğul olan Turanın, görkəmli qazax yazıçısı Muxtar Auezovun yaradıcılığından Azərbaycan dilinə etdiyi bədii çevirmələr nüfuzlu qəzet, dərgi və saytlarda yayınlanıb.

**Ülkər PİRİ (DƏNİZ)**
**(Ülkər Söhbət qızı Piri**yeva**) –**



24 avqust 1988-ci ildə Masallının Ağakişibəyli kəndində doğulub. AZƏRBAYCAN Universitetinin "Xarici dillər" fakultəsini bitirib. Hazırda BSU-nun Yaradıcılıq fakultəsində təhsil alır.

Şeir, esse, hekayələr yazır, eyni zamanda, bədii qiraətçi kimi tanınır.

Bədii qiraət üzrə yarışmalarda dəfələrlə respublika üzrə I dərəcəli diploma layiq görülüb. DGTYB-nin üzvüdür.

"Zamana Baxış" adlı CD-albomu işıq üzü görüb.

# OXUDUNUZMU?..


АНТОЛОГИЯ
НОВОЙ
ТАТАРСКОЙ
ПОЭЗИИ


ТУТАР
ПОЭЗИЙĔН КĂША
ИЗ ВЕКА
В ВЕК
Татарская
поэзия
Современная
татарская
поэзия
Татарское книжное издательство


ИДЕЛЕМ
акчарлагы
2013
ИДЕЛЕМ
акчарлагы
2011
яшь язучылар бәйгесе
Әдәби җыентык
Казан, 2011
ИДЕЛЕМ
акчарлагы
2012
Әдәби җыентык
Казан, 2012


ISSN 0206-4189
Индекс 73210
КАЗАН
УТЛАРЫ
10.2015


Индекс 73210
КАЗАН
УТЛАРЫ
5.2015


ISSN 0206-4189
Индекс 73210
КАЗАН
УТЛАРЫ
9.2015


TÜRKÜN SƏSİ
ŞEİR ÇƏLƏNGİ
TÜRKÜN SƏSİ


TÜRKÜN SƏSİ
TÜRKÜN SESI
TURK OVOZI
TÜRKÜN SƏSİ
ТҮРКТҮН ДАУСЫ
ТҮРК ТАВЫШЫ
TÜRKÜN SƏSİ


TÜRK DÜNYASINDA
ƏDƏBİYYAT...


Ленар Шәех
АЛДАМЫЙМ!
0+
ТАТАРСТАН КИТАП НӘШРИЯТЫ


идел
TATMEDIA
әдәбият • мәдәният • яшьләр • заман
№4
Телдә, фикердә, эштә берлек!


Фәнил
Гыйләҗев
РИЗАСЫЗЛЫК


Дания Нәгыймуллина
Галәм агачының яфрагы мин


Булат Ибраһим
Балык теле


РИФАТ СӘЛАХ
ЯШЕЛ АЙ


Рифат Сәлах
КЫЗЫЛ ЮЛ
АЛЫЙ ПУТЬ
В переводе Сурайи Гайнуллиной
«АК БҮРЕ» НӘШРИЯТЫ

# İÇLİK

Bakıdan Kazana ədəbi və əbədi salam................... ............. 4
Bir neçə söz... ........................................................................ 7
Tatar şeirinin (ədəbiyyatının) özəllikləri və tendensiyaları . 9
Rifat Salah.............................................................................. 18
Fənil Gilaji ............................................................................. 26
Bulat İbrahim ......................................................................... 32
Şan.......................................................................................... 40
Alyona Kərimova ................................................................. 48
Aydar Camal ......................................................................... 54
Daniya Nağımullina.............................................................. 58
Elnar Baynazarov .................................................................. 70
Elvira Hadıyeva...................................................................... 78
Fidail ...................................................................................... 92
Gülnaz Əzizova ...................................................................... 98
Gülnaz Vəliyeva ................................................................... 106
Gülnur Qurbanova ............................................................... 116
İlmira Kamayeva .................................................................. 124
Lenar Şeyx ........................................................................... 130
Leniza Vəliyeva ................................................................... 142
Leysan Fəthətdinova ........................................................... 148
Liliya Qiybadullina ............................................................ 154
Luiza Yansuar ...................................................................... 160
Rezeda Qobəyeba ................................................................ 166
Rüzəl Əhmədiyev ................................................................ 174
Rüzəl Mühəmmədşin ......................................................... 182
Yıldız Minnullina ................................................................ 188
Çevirmənlər ........................................................................ 199
Oxudunuzmu?.......................................................................221

Çapa imzalanıb: 13.04.2016
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 14
Sifariş № 311
Tiraj: 500